RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 238 (9983) 7 noyabr 2025-ci il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Xalqın birliyindən və inamından güc alan LİDER



Düşmənə qalib gəlmək üçün müasir silahlarla təchiz edilmiş, vahid mərkəzdən idarə olunan ordunun, polad iradə və qətiyyətin olması əsas şərtdir. Eyni zamanda döyüş meydanında qazanılan qələbəni dünya miqyasında qəbul etdirmək üçün güclü diplomatik idarəetmə və zərgər dəqiqliyi ilə ölçülüb-biçilən siyasətin olması çox şeyi həll edir.

Düşmən təkcə sərhədlərimizi keçməmişdi. Bütün siyasi və diplomatik qayda-qanunları pozaraq müvəqqəti qələbə eyforiyasına qapılıb bizə meydan oxuyurdu. İşğal altında saxladığı torpaqlarda keçilməz dəmir-beton istehkamlar qurur, yeraltı tunellər çəkir, beynəlxalq hüquqa məhəl qoymadan məskunlaşma aparır, tarixi adları dəyişdirir, abidələri ya məhv edir, ya da saxtalaşdırırdı. Bunlar azmış kimi babalarımızın at çapıb qılınc oynatdıqları qəhrəmanlıq meydanlarında şənliklər qurub milli heysiyyətimizə toxunurdu. Düşmən o qədər harınlamışdı ki, qarşısındakının əzmini, gücünü və nəyə qadir olduğunu qiymətləndirə bilmirdi.

Prezident İlham Əliyev hakimiyyətə gəldiyi ilk gündən düşməni həm siyasi, həm də diplomatik meydanda küncə sıxışdırdı. Ordu quruculuğuna ayrılan xərclərin artırılması, modern silahların alınması, hərbi intizamın gücləndirilməsi ilə qarşı tərəfə daim xəbərdarlıq da edirdi: "Əgər Qarabağ problemi sülh yolu ilə həll olunmasa, müharibə qaçılmazdır". "Biz torpaqlarımızın bir qarışını belə güzəştə getməyəcəyik. Qarabağ Azərbaycandır!" Bu qətiyyətli mövqe artıq müharibənin qaçılmaz olduğundan xəbər verirdi.

Xalqının məsuliyyətini dərk edən lider olmaq hər kəsə nəsib olmayan xoşbəxtlikdir. Azərbaycanın bəxti onda gətirdi ki, İlham Əliyev kimi rasional hesablama qabiliyyətinə malik, nəyi nə zaman edəcəyini dəqiqliklə bilən praqmatik bir lideri var.

2020-ci il dünya üçün pandemiya ili olsa da, Azərbaycan üçün həm də möhtəşəm Qələbə ili kimi tarixə yazıldı. 2020-ci il həyatımızı zəhərləyən viruskimilərin üzərində çalınan Zəfər ili kimi yaddaşımıza möhürünü vurdu.

11

# "Böyük Zəfər ədalətin təntənəsi olmaqla hüquqi yaddaşın gələcək nəsillərə ötürülməsinin təminatıdır"

## Müsahibimiz Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyevdir

Tarixi qələbəmizin beş illiyinə yaxınlaşarkən cənab Prezidentin siyasi uzaqgörənliyi ilə gerçəkləşən və diplomatik şahmat zəfəri kimi dəyərləndirilən Vaşinqton razılaşması milli iradəmizin beynəlxalq legitimliyini möhkəmləndirdi. Bu nailiyyət bölgədə sülhün daimi xarakter almasına, tarixi ədalətin bərpasına və dövlətimizin gələcək rifahının dayanıqlı əsaslar üzərində qurulmasına xidmət etməkdədir.

Sülhün möhkəmlənməsinə yönəlmiş addımlardan biri kimi ölkəmizin Ermənistana göndərilən yüklərin tranzitinə bütün məhdudiyyətləri aradan qaldırması "etimad quruculuğu" prosesinin "kağız üzərindən" real əməkdaşlıq mexanizminə çevrilməsinə rəvac vermişdir.

5

# Azərbaycan NATO-nun dəyərli tərəfdaşıdır



## Prezident İlham Əliyev NATO nümayəndə heyətini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 6-da NATO nümayəndə heyətini qəbul edib.**

Nümayəndə heyətinə Türkiyə, Yunanıstan, Macarıstan, Monteneqro, Niderland, Şimali Makedoniya, Norveç, Slovakiya, Sloveniya, İsveç, Çex, Portuqaliya, İspaniyanın NATO-dakı daimi nümayəndələri, həmçinin ABŞ və Fransanın NATO-dakı daimi nümayəndələrinin müavinləri daxildir.

AZƏRTAC xəbər verir ki, NATO nümayəndə heyətinin Prezident İlham Əliyev tərəfindən qəbul olunmasının əhəmiyyətini vurğulayan Türkiyənin alyansdakı daimi nümayəndəsi Basat Öztürk dövlətimizin başçısının NATO mənzil-qərargahına səfərlərini məmnunluqla xatırladı.

O, Azərbaycanın hazırkı inkişafının təməlinin Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğunu deyərək, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin bütün sahələrdə daha da gücləndiyini vurğuladı.

Qonaqlar Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində Vaşinqtonda əldə edilmiş nailiyyətlər münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdılar.

Təbriklərə görə təşəkkürünü bildirən dövlətimizin başçısı bu məsələdə ABŞ Prezidenti Donald Trampın xüsusi rolunu qeyd etdi və əldə olunmuş razılaşmaların regionun inkişafı üçün geniş imkanlar açdığını dedi.

Prezident İlham Əliyev də öz növbəsində NATO mənzil-qərargahına səfərlərini xatırladaraq qeyd etdi ki, Əfqanıstandakı əməliyyatlara dəstək Azərbaycan-NATO əməkdaşlığının vacib hissəsi olsa da, ölkəmizlə alyans arasında regional inkişaf, enerji təhlükəsizliyi və digər istiqamətlər üzrə əməkdaşlıq da gündəmdədir.

Dövlətimizin başçısı Azərbaycan Ordusunun NATO standartlarına uyğunlaşdırıldığını və bu çərçivədə Türkiyə ordusu ilə sıx əməkdaşlığı vurğuladı. Bu xüsusda ölkəmizlə alyans arasında əlaqələrin genişləndirilməsinin roluna toxundu.

Prezident İlham Əliyev Azərbaycanın ötən əsrin əvvəllərində müstəqilliyini qazandıqdan bəri əsas məqsədimizə çatdığımızı - torpaqlarımızın işğaldan azad olunduğunu vurğulayaraq qeyd etdi ki, ordumuzun müasirləşdirilməsi prosesi bundan sonra da davam edəcək.

Dövlətimizin başçısı NATO nümayəndə heyətinin ölkəmizə səfərinin uğurlu olacağına ümidvarlığını bildirdi.

Söhbət zamanı Azərbaycanın NATO-nun dəyərli tərəfdaşı olduğu vurğulandı, Silahlı Qüvvələrimizin Əfqanıstanda "Qətiyyətli dəstək" əməliyyatlarındakı xidmətləri, bu xüsusda ölkəmizin regional nəqliyyat və logistika mərkəzi kimi töhfələri yüksək qiymətləndirildi, sülhməramlılarımızın Əfqanıstanı sonuncu tərk edən hərbi qulluqçular olduğu qeyd edildi.

Azərbaycanın alyans üzvləri ilə sıx dostluq və strateji tərəfdaşlıq əlaqələrinə toxunuldu, NATO-nun "Sülh naminə tərəfdaşlıq" Proqramı çərçivəsində ölkəmizin 1994-cü ildən alyansın proqramlarında fəal iştirak etdiyi bildirildi.

Görüşdə Azərbaycan-NATO əməkdaşlığının perspektivləri müzakirə olundu, regional və qlobal məsələlərə dair fikir mübadiləsi aparıldı.

# Neft Daşları bu gün də dünyanı heyrətləndirməkdə davam edir

## Əfsanəvi mədən-şəhərin 76 yaşı tamam olur



6

# 44 günlük Vətən müharibəsi



## Düz 5 il əvvəl həmin gün

9

# "Dəniz Naviqasiya Avadanlıqları üzrə Beynəlxalq Təşkilat haqqında Konvensiya"ya qoşulmaq barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası 2021-ci il yanvarın 27-də Paris şəhərində imzalanmış "Dəniz Naviqasiya Avadanlıqları üzrə Beynəlxalq Təşkilat haqqında Konvensiya"ya qoşulsun.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 oktyabr 2025-ci il*

# "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 93-VIIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 dekabr tarixli 268 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 93-VIIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 dekabr tarixli 268 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 12 (II kitab), maddə 1374) 1-ci hissəsindəki cədvəldə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.10.6-cı yarımbənd üzrə:

1.1.1.1.10.6.1-ci abzasda hər iki halda "1 384 537.0" rəqəmləri "563 681.0" rəqəmləri ilə əvəz edilsin;

1.1.2. aşağıdakı məzmunda 1.10.6.2-ci abzas əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| 1.10.6.2 | Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Balıqçılıq və Akvakultura Mərkəzi" publik hüquqi şəxs | 820 856.0 | 820 856.0 | |

1.2. 1.11.1-ci yarımbənd üzrə:

1.2.1. 1.11.1.4-cü abzasda hər iki halda "16 850 726.0" rəqəmləri "16 568 470.0" rəqəmləri ilə əvəz edilsin;

1.2.2. aşağıdakı məzmunda 1.11.1.4-1-ci abzas əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| 1.11.1.4-1 | Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Balıqçılıq və Akvakultura Mərkəzi" publik hüquqi şəxs | 282 256.0 | 282 256.0 | |

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 noyabr 2025-ci il*

# Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 31 may tarixli 97 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin investisiya əməliyyatlarının aparılması Qaydası"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 31 may tarixli 97 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 5, maddə 965 (Cild I); 2025, № 8, maddə 762) ilə təsdiq edilmiş "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin investisiya əməliyyatlarının aparılması Qaydası"nın 3.4-cü bəndindən ", "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq satınalma müqaviləsi bağlanmış və" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 noyabr 2025-ci il*

# "Investin Azerbaijan" informasiya sisteminin yaradılması və bununla əlaqədar bir sıra məsələlərin tənzimlənməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, investisiya fəaliyyətinin həyata keçirilməsi ilə bağlı investorlara göstərilən xidmətlərin rəqəmsallaşdırılmasını və "bir pəncərə" prinsipi əsasında təqdim olunmasınıtəmin etmək məqsədilə **qərara alıram:**

1. "Investin Azerbaijan" informasiya sistemi yaradılsın.

2. "Investin Azerbaijan" informasiya sistemi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

4. Müəyyən edilsin ki:

4.1. "Investin Azerbaijan" informasiya sistemi (bundan sonra - Sistem) investorlar tərəfindən elektron qaydada müraciətlərin təqdim edilməsini, habelə Azərbaycan Respublikasında investisiya fəaliyyətinin həyata keçirilməsi üçün zəruri olan bütün məlumatların, o cümlədən investisiya mühiti, investisiya layihələri, mövcud tələblər, imtiyaz və güzəştlər barədə məlumatların əldə olunmasını təmin edir;

4.2. Sistemin sahibi funksiyalarını Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, operatoru funksiyalarını isə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi - AZPROMO həyata keçirir.

5. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

5.1. Sistemin formalaşdırılması, aparılması, fəaliyyətinin təşkili və inkişaf etdirilməsi üçün zəruri tədbirlər görsün;

5.2. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə Sistemin Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Hökumət buludu" (G-cloud) Konsepsiyası"na uyğun olaraq "Hökumət buludu"nda yerləşdirilməsi, aparılması və təkmilləşdirilməsi, habelə Sistemin "Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri"nə və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinə daxil edilməsi üçün tədbirlər görsün.

6. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, bu Fərmanın 2-ci hissəsi nəzərə alınmaqla,"Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanının tələblərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 noyabr 2025-ci il*

*Fərmanın əlavəsi ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

# "Antiinhisar və istehlak bazarına nəzarət sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 avqust tarixli 190 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi və Fərmanının ləğv edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Antiinhisar və istehlak bazarına nəzarət sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 avqust tarixli 190 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Maliyyə-sənaye qrupları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 14 sentyabr tarixli 490 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 2, maddə 102 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1.2.2-ci bənddə "İqtisadiyyat Nazirliyi" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin;

1.2. 2.4-cü bənddə "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi" sözləri "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

2. "Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 21 fevral tarixli 679 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 163 (Cild I) 2-ci hissəsinin yeddinci və səkkizinci abzaslarında "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

3. "Əhalinin radiasiya təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 avqust tarixli 758 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 8, maddə 508 (Cild I) 2.7-ci bəndində "İqtisadiyyat Nazirliyi" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

4. "Tullantılar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 26 oktyabr tarixli 3 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 10, maddə 611 (Cild I); 2025, № 6, maddə 541) 2.2-ci bəndinə ikinci halda "Nazirliyi" sözündən sonra ", Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri əlavə edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 23 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 11, maddə 665 (Cild I) ilə təsdiq edilmiş "İnformasiyanı mühafizə vasitələrinin sertifikatlaşdırılması haqqında Əsasnamə"nin 3-cü hissəsinin onuncu abzasında "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə" sözləri ilə əvəz edilsin.

6. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 11, maddə 666 (Cild I); 2024, № 3, maddə 260, № 7, maddə 815, № 8, maddələr 937, 947, № 10, maddə 1138; 2025, № 6, maddə 542) 2.21-ci bəndində "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

7. "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 616 (Cild I); 2024, № 5 (I kitab), maddə 513, № 6 (I kitab), maddələr 653, 661, № 8, maddə 947, № 12 (I kitab), maddə 1289,(II kitab), maddə 1375; 2025, № 4 (I kitab), maddələr 331, 334, № 5, maddə 461, № 6, maddə 541, № 8, maddə 747) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

7.1.1.12-2-ci bənddə "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi" sözləri "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin;

7.2. 1.14-cü bənddə "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi qismində Dövlət Vergi Xidməti və Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti" sözləri "Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyivə Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

8. "Torpaqların münbitliyi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsinə dair əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 979 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 584 (Cild I); 2025, № 6, maddə 541) 1.2-ci bəndinə üçüncü halda "Nazirliyi" sözündən sonra ", Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri əlavə olunsun və həmin bənddə "öz səlahiyyətləri daxilində" sözləri "fəaliyyət istiqamətlərinə uyğun olaraq" sözləri ilə əvəz edilsin.

9. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 aprel tarixli 48 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 4, maddə 228 (Cild I); 2024, № 7, maddə 789, № 12 (I kitab), maddə 1292; 2025, № 5, maddə 454,№ 7, maddə 650) 2.9-2-ci bəndində "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi" sözləri "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

10. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 3 iyun tarixli 248 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 485 (Cild I); 2024, № 2, maddə 145, № 3, maddə 262, № 7, maddə 826; 2025, № 1, maddə 30, № 5, maddə 541) ilə təsdiq edilmiş "Dövlət sirrinə aid edilən məlumatların Siyahısı"nın IV hissəsinin "Dövlət sirrinə aid edilən məlumatlar barədə sərəncam vermək səlahiyyətinə malik olan Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları" sütununda aşağıdakı dəyişikliklər edilsin:

10.1. 14-cü bəndə "DİN" akronimindən sonra ", Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi (bundan sonra - Agentlik)" sözləri əlavə edilsin;

10.2. 18-ci bənddə "İqtisadiyyat Nazirliyi" sözləri "Agentlik" sözü ilə əvəz edilsin.

11. "Telekommunikasiya haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli 277 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 709 (Cild I) 2.5-ci bəndində "İqtisadiyyat Nazirliyi" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə, "öz səlahiyyətləri daxilində" sözləri "fəaliyyət istiqamətlərinə uyğun olaraq" sözləri ilə əvəz edilsin.

12. "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 22 noyabr tarixli 317 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 11, maddə 1012 (Cild I) 2.3-cü bəndində "və Azərbaycan Respublikasının Nazirlər Kabineti" sözləri ", Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

13. "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 28 dekabr tarixli 345 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1114 (Cild I) 2.4-cü bəndində "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi" sözləri "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

14. "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar bəzi tədbirlər barədə "Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 19 mart tarixli 555 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 3, maddə 234 (Cild I) 1.2-ci bəndində "öz səlahiyyətləri daxilində" sözləri "fəaliyyət istiqamətlərinə uyğun olaraq" sözləri ilə, "Maliyyə Nazirliyi" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

15. "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanından irəli gələn məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 5 mart tarixli 717 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 3, maddə 167 (Cild I) 3-cü hissəsi ləğv edilsin.

16. "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 25 dekabr tarixli 203 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 12, maddə 991 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

16.1. 3-cü hissədə "İqtisadiyyat Nazirliyinə" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə" sözləri ilə əvəz edilsin;

16.2. 4-cü hissədə "İqtisadiyyat Nazirliyi" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə, "bəndinə" sözü "hissəsinə" sözü ilə əvəz edilsin.

17. "Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 9, maddə 793 (Cild I) 28.3-cü bəndinə "Agentliyi" sözündən sonra ", Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri əlavə edilsin.

18. "2011-ci il noyabrın 29-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi və Polşanın Standartlaşdırma üzrə Komitəsi arasında standartlaşdırma sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 7 fevral tarixli 582 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 71 (Cild I) 2-ci hissəsində "İqtisadiyyat Nazirliyi" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

19. "Reklam haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1281-IVQ nömrəli Qanununun tətbiqi və "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 noyabr tarixli 644 nömrəli Fərmanının ləğvi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 iyul tarixli 554 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 822 (Cild I); 2024, № 6

(I kitab), maddə 661; 2025, № 4 (I kitab), maddə 330) 2.5-ci bəndində "İqtisadiyyat Nazirliyi" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

20. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259 (Cild I); 2024, № 2, maddələr 151, 157, № 7, maddələr 806, 812, 814, 815, № 8, maddələr 937, 948, № 12 (I kitab), maddə 1294, (II kitab), maddələr 1359, 1378, 1384; 2025, № 2, maddə 127, № 3, maddə 231, № 4 (I kitab), maddələr 325, 338, № 5, maddə 463, № 6, maddələr 541, 561,№ 7, maddə 649, № 8, maddələr 746, 754; Azərbaycan Respublikası Prezidentinin2025-ci il 30 sentyabr tarixli 498 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

20.1. 4.34-1-ci və 4.41-ci bəndlərdə "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi" sözləri "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin;

20.2. 5-ci hissə üzrə:

20.2.1. 5.6-2-ci bənddə "və Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi" sözləri "qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin;

20.2.2.5.42-ci bənddə ", 411-1.1 və 458-ci" sözləri "və 411-1.1-ci" sözləri ilə əvəz edilsin;

20.2.3. 5.44-cü bəndə "455-1" rəqəmlərindən sonra ", 458" rəqəmləri əlavə olunsun və həmin bənddə "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi" sözləri "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin;

20.2.4. 5.51-ci bənddə "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi" sözləri "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin;

20.2.5. 5.54-cü bənddə "Maliyyə Nazirliyi" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

21. "Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında" Azərbaycan Respublikasının 2016-cı il 31 may tarixli 261-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 987 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 7, maddə 1258 (Cild I) 3.2-ci bəndində "İqtisadiyyat Nazirliyi" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

22. "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində "ABAD" publik hüquqi şəxsin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 sentyabr tarixli 1047 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 9, maddə 1484 (Cild I) 7-ci hissəsindən ", İqtisadiyyat Nazirliyi" sözləri çıxarılsın vəhəmin hissəyə ikinci halda "Nazirliyi" sözündən sonra "və Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri əlavə edilsin.

*Ardı 3-cü səh.*

# "Antiinhisar və istehlak bazarına nəzarət sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 avqust tarixli 190 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi və Fərmanının ləğv edilməsi barədə

## Azərbaycan Respublikasının Prezidentinin Fərmanı

*Əvvəli 2-ci səh.*

23. "Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi ilə İranın Standartlar və Sənaye Tədqiqatları İnstitutu arasında standartlaşdırma, metrologiya, uyğunluğun qiymətləndirilməsi və akkreditasiya sahələrində Anlaşma Memorandumunun təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 oktyabr tarixli 1060 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 10, maddə 1619

(Cild I) 2-ci hissəsində "İqtisadiyyat Nazirliyi" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

24. "Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında standartlaşdırma, uyğunluğun qiymətləndirilməsi və metrologiya sahələrində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1262 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 206 (Cild I) 2-ci hissəsində "İqtisadiyyat Nazirliyi" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

25. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765 (Cild I); 2024, № 4, maddə 381, № 6 (I kitab), maddə 649, № 7, maddələr 812, 814, 815, № 12 (I kitab), maddə 1294, (II kitab), maddə 1367; 2025, № 2, maddə 127, № 3, maddə 232, № 4 (I kitab), maddə 325, № 5, maddə 463, № 6, maddələr 541, 561, № 8, maddələr 756, 763; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 30 sentyabr tarixli 498 nömrəlivə 8 oktyabr tarixli 501 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin və hərbi məhkəmələrin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

25.1. 8.1-ci bənddən "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin rəisi, onun müavinləri, şöbə müdiri, onun müavinləri, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, tabeliyində olan regional bölmələrin rəhbərləri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi," sözləri çıxarılsın;

25.2. 16.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"16.2. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi adından - Agentliyin sədri, onun müavinləri, Aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavinləri, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, tabeliyində olan regional şöbələrin və bölmələrin rəhbərləri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi.";

25.3. 22-1.3-cü bənddə "İqtisadiyyat Nazirliyi" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə, "8.1-ci" sözləri "16.2-ci" sözləri ilə əvəz edilsin;

25.4. 40-cı hissə aşağıdakı redaksiyada verilsin:

"40. Məcəllənin 537.1-ci və 538-1.1-538-1.3-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

40.1. Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi adından - bu Siyahının 16.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

40.2. Naxçıvan Muxtar Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi adından - Komitənin sədri, onun müavini, Aparatın rəhbəri, şöbə müdiri.";

25.5. 42-ci hissədə "İqtisadiyyat Nazirliyi" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə, "8.1-ci" sözləri "16.2-ci" sözləri ilə əvəz edilsin;

25.6. 45-ci hissə üzrə:

25.6.1. 45.1-ci bənddə "Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə, "40-cı hissəsində" sözləri "16.2-ci bəndində" sözləri ilə əvəz edilsin;

25.6.2. 45.2-ci bənddə "İqtisadiyyat Nazirliyi" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə, "8.1-ci" sözləri "16.2-ci" sözləri ilə əvəz edilsin;

25.7. 46.2-ci bənddə "Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə, "40-cı hissəsində" sözləri "16.2-ci bəndində" sözləri ilə əvəz edilsin; 25.8. 49.1-ci və 63-1.2-ci bəndlərdə "İqtisadiyyat Nazirliyi" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə, "8.1-ci" sözləri "16.2-ci" sözləri ilə əvəz edilsin.

26. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1238 (Cild I); 2024, № 3, maddə 262, № 5 (I kitab), maddə 515, № 7, maddə 809, № 8, maddələr 943, 948, № 11, maddə 1199, № 12 (II kitab), maddə 1364; 2025, № 3, maddə 224, № 4 (I kitab), maddə 330, № 5, maddə 459, № 6, maddə 541, № 8, maddə 771) ilə təsdiq edilmiş "Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

26.1.4-cü hissənin "Göstərdiyi xidmətlər" sütununun 2-ci bəndinin altıncı abzası və 13-cü bəndi ləğv edilsin;

26.2. 10-cu hissə ləğv edilsin;

26.3. aşağıdakı məzmunda 20-1-ci hissə əlavə edilsin:

20-1 Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi

1. standart nümunələrin və ya ölçmə vasitələrinin tipinin təsdiq edilməsi haqqında sertifikat, malın (xidmətin, işin), prosesin, idarəetmə sisteminin və işçi heyətin müvafiq standartla, texniki reqlamentlə və digər normativ hüquqi aktla müəyyən olunmuş tələblərə uyğunluğunu təsdiq edən uyğunluq sertifikatı və uyğunluğun təsdiqi barədə təsdiqedici sənədlərin verilməsi

2. qiymətli metallardan hazırlanmış zərgərlik və digər məişət məmulatlarına dövlət əyar damğasının vurulması

3. malın mənşə ölkəsini təsdiq edən sertifikatın verilməsi

27. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 dekabr tarixli 413 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2570 (Cild I); 2024, № 8, maddə 942) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə Qaydası"nın 6.1.2-ci yarımbəndində "Respublikası İqtisadiyyat Nazirliyinin" sözləri "Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin" sözləri ilə əvəz edilsin.

28. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 aprel tarixli 622 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 622 (Cild I); 2024, № 3, maddə 262, № 4, maddə 397, № 5 (I kitab), maddə 526, № 6 (I kitab), maddə 657, № 8, maddə 948, № 11, maddə 1197; 2025, № 3, maddələr 224, 232, № 5, maddə 444, № 8, maddə 658) ilə təsdiq edilmiş Əlavə 2 - "Xüsusi dövlət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin Siyahısı"na aşağıdakı məzmunda 17-1-ci hissə əlavə edilsin:

"17-1. Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi üzrə:

17-1.1. Aparat rəhbərinin müavini;

17-1.2. Aparatda şöbə müdirləri.".

29. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyul tarixli 1119 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 899 (Cild I); 2024, № 4, maddə 373, № 6 (I kitab), maddələr 654, 675, № 8, maddə 948; 2025, № 1, maddə 29, № 3, maddə 224, № 7, maddə 662) ilə təsdiq edilmiş "Dövlət büdcəsindən ayrılmış vəsait hesabına işlərin və xidmətlərin göstərilməsinə görə əlavə dəyər vergisindən azad olunan publik hüquqi şəxslərin siyahısı"nın 21-7-ci hissəsində "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin" sözləri ilə əvəz edilsin.

30. "Dövlət qulluqçularının əməkhaqlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 1 mart tarixli 1610 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 3, maddə 198 (Cild I) 1.2-1.4-cü bəndlərində "və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin aparatlarında" sözləri "Aparatında" sözü ilə əvəz edilsin.

31. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 8 (I kitab), maddə 1174 (Cild I); 2025, № 7, maddə 652) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

31.1. 1.5-ci bənddə "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi" sözləri "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin;

31.2. 1.8-ci bənddə "İqtisadiyyat Nazirliyi" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

32. "Kənd təsərrüfatında dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 dekabr tarixli 413 nömrəli Fərmanında dəyişiklik edilməsi və Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə ilə bağlı bəzi məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 noyabr tarixli 2367 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, №11, maddə 1521

(Cild I) aşağıdakı dəyişikliklər edilsin:

32.1. 2.1.1-ci yarımbənddə "Respublikası İqtisadiyyat Nazirliyinin" sözləri "Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin" sözləri ilə əvəz edilsin;

32.2. 3-cü hissədə "İqtisadiyyat Nazirliyi" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

33. "Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 yanvar tarixli 2451 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 1, maddə 27) aşağıdakı dəyişikliklər edilsin:

33.1.1-ci hissə üzrə:

33.1.1. aşağıdakı məzmunda 1.1-1-ci bənd əlavə edilsin:

"1.1-1. həmin Məcəllənin 34.4-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;";

33.1.2. 1.4-cü bənd ləğv edilsin;

33.1.3. 1.5-ci bənddə "birinci halda" sözləri "hər üç halda" sözləri ilə, "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi" sözləri "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin;

33.2. 3-cü hissədə "İqtisadiyyat Nazirliyi" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

34. "Elektron Rəqabət İnformasiya Sisteminin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 9 iyul tarixli 133 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 7, maddə 792) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

34.1. 2.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.2. ERİS-in sahibi və operatoru funksiyalarını Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi həyata keçirir;";

34.2. 2.3-cü bənddə "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin" sözləri ilə əvəz edilsin.

35. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 9 aprel tarixli 2837 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 4, maddə 391 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın "6. Dövlət Proqramının icrasına dair Tədbirlər Planı" hissəsinin 6.3.7-ci yarımbəndinin "İcraçılar" sütununda "İqtisadiyyat Nazirliyi" sözləri "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

36. "2013-cü il noyabrın 21-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında standartlaşdırma, metrologiya və sertifikatlaşdırma sahəsində əməkdaşlıq haqqında Sazişə dəyişikliklər edilməsi barədə Protokol"un təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 27 dekabr tarixli 202 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 12, maddə 1619 (Cild I) 2-ci hissəsində "İqtisadiyyat Nazirliyi" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

37. "Kənd təsərrüfatı və qidaməhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 16 yanvar tarixli 221 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 1, maddə 34 (Cild I); 2024, № 4, maddə 393) aşağıdakı dəyişikliklər edilsin:

37.1.2.4-cü bəndin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz olunsun və 2.5-ci bənd ləğv edilsin;

37.2. aşağıdakı məzmunda 2-1-ci hissə əlavə edilsin:

"2-1. Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi kənd təsərrüfatı və qida məhsulları bazarında, tədarük prosesində haqsız rəqabət meyillərinin qarşısının alınması ilə bağlı tədbirləri və antiinhisar nəzarətini gücləndirsin, nəticəsi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.".

38. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 fevral tarixli 3660 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 263 (Cild I); 2024, № 12 (II kitab), maddə 1364) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında çayçılığın inkişafına dair 2018-2027-ci illər üçün Dövlət Proqramı"nın 8.1.3-cü yarımbəndinin "İcraçılar" sütununa "İqtisadiyyat" sözündən əvvəl "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi," sözləri əlavə edilsin.

39. "İstehlak bazarına nəzarət, standartlaşdırma, metrologiya və əqli mülkiyyət hüquqları obyektlərinin mühafizəsi sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 aprel tarixli 5 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 4, maddə 754 (Cild I) 5-ci hissəsində "İqtisadiyyat Nazirliyi" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

40. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 3 may tarixli 38 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 5, maddə 977 (Cild I); 2024, № 12(II kitab), maddə 1364) ilə təsdiq edilmiş "2018-2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı"nın 7-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

40.1. 1.5-ci bəndin "İcraçılar" sütununa ikinci halda "Nazirliyi" sözündən sonra ", Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri əlavə edilsin;

40.2. 2.5-ci (ikinci halda), 4.3-cü (ikinci halda) və 5.4-cü (birinci halda) bəndlərin "İcraçılar" sütununa "Nazirliyi" sözündən sonra ", Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri əlavə edilsin.

41. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 dekabr tarixli 852 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (II kitab), maddə 2701 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nda aşağıdakı dəyişikliklər edilsin:

41.1. 7.2.4.3-cü abzasın "Əsas icraçı qurum" sütununda "İqtisadiyyat Nazirliyi" sözləri "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin;

41.2. 7.2.4.4-cü abzasın "Digər icraçı qurumlar" sütununa ikinci halda "Nazirliyi" sözündən sonra ", Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri əlavə edilsin.

42. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 aprel tarixli 1143 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 730 (Cild I); 2024, № 6(I kitab), maddə 654) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019-2025-ci illər üçün Dövlət Proqramı"nın "10. Tədbirlər Planı" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

42.1. 10.6.4-cü yarımbəndin "Digər icraçılar" sütununda "İqtisadiyyat Nazirliyi" sözləri "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin;

42.2. 10.9.4-cü yarımbəndin "Digər icraçılar" sütununa ikinci halda "Nazirliyi" sözündən sonra ", Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri əlavə edilsin.

43. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli 2303 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 11, maddə 1372 (Cild I); 2024, № 12 (II kitab), maddə 1386) 1-ci hissəsinə "Zaur Mikayılov - Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri" abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Elnur Bağırov - Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin sədri".

44. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 4 aprel tarixli 3199 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 4, maddə 339 (Cild I);2024, № 3, maddə 257, № 5 (I kitab), maddə 529, № 6 (I kitab), maddə 654, № 8, maddə 759) ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı" üzrə Tədbirlər Planı"nın 2.10-cu, 2.11-ci və 2.13-cü bəndlərinin "Digər icraçılar" sütununda "İqtisadiyyat Nazirliyi" sözləri "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

45. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 7, maddə 790 (Cild I); 2024, № 4, maddə 393, № 5(I kitab), maddə 529, № 6 (I kitab), maddələr 647, 654, № 12 (II kitab), maddə 1359; 2025, № 8, maddə 749) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın 7-ci hissəsinin "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın Tədbirlər Planı"nda aşağıdakı dəyişikliklər edilsin:

45.1. 1.1.21-ci yarımbəndin 1-ci abzasının "Əsas icraçı orqan (qurum)" sütununda "İN" akronimi "AİBNDA" akronimi ilə əvəz edilsin;

45.2. 5.2.1-ci yarımbəndin 4-cü abzasının və 5.2.5-ci yarımbəndin 1-ci abzasının "Digər icraçılar" sütununa "İN" akronimindən sonra ",AİBNDA" akronimi əlavə edilsin;

45.3. "Akronimlər və ixtisarlar" hissəsinə "VXSİDA Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi" abzasından sonra aşağıdakı məzmunda yeniabzas əlavə edilsin:

"AİBNDA Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi".

46. "Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023-2025-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3721 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 1, maddə 114 (Cild I); 2024, № 4, maddə 393; 2025, № 8, maddə 759) aşağıdakı dəyişikliklər edilsin:

46.1. 2-ci hissədə "İqtisadiyyat Nazirliyi" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin;

46.2. 3-cü hissədə "Respublikası İqtisadiyyat Nazirliyinin" sözləri "Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin" sözləri ilə əvəz edilsin;

46.3. həmin Sərəncamla təsdiq edilmiş "Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023-2025-ci illər üçün Dövlət Proqramı"nın "8. Dövlət Proqramına dair Tədbirlər Planı" hissəsi üzrə:

46.3.1. 8.1.3-cü yarımbənd üzrə:

46.3.1.1. "Əsas icraçı orqan (qurum)" sütununda "İN" akronimi "AİBNDA" akronimi ilə əvəz edilsin;

46.3.1.2. "Digər icraçılar" sütununa "DŞAK" akronimindən sonra "İN" akronimi əlavə edilsin;

46.3.2. 8.2.1-ci və 8.2.3-cü yarımbəndlərin "Əsas icraçı orqan (qurum)" sütununda "İN" akronimi "AİBNDA" akronimi ilə əvəz edilsin;

46.3.3. 8.2.4-cü yarımbənd üzrə:

46.3.3.1. "Əsas icraçı orqan (qurum)" sütununda "İN" akronimi "AİBNDA" akronimi ilə əvəz edilsin;

46.3.3.2. "Digər icraçılar" sütununa "AQTA" akronimindən sonra "İN" akronimi əlavə edilsin;

46.3.4. 8.3.2-ci yarımbənd üzrə:

46.3.4.1. "Əsas icraçı orqan (qurum)" sütununda "İN" akronimi "AİBNDA" akronimi ilə əvəz edilsin;

46.3.4.2. "Digər icraçılar" sütununa "DŞAK" akronimindən sonra "İN" akronimi əlavə edilsin;

46.3.5. 8.4.1-ci yarımbəndin "Əsas icraçı orqan (qurum)" sütununda "İN" akronimi "AİBNDA" akronimi ilə əvəz edilsin;

46.3.6. 8.4.2-ci yarımbənd üzrə:

46.3.6.1. "Əsas icraçı orqan (qurum)" sütununda "İN" akronimi "AİBNDA" akronimi ilə əvəz edilsin;

46.3.6.2. "Digər icraçılar" sütununa "RİNN" akronimindən sonra "İN" akronimi əlavə edilsin;

46.3.7. 8.4.4-cü yarımbənd üzrə:

46.3.7.1. "Əsas icraçı orqan (qurum)" sütununda "İN" akronimi "AİBNDA" akronimi ilə əvəz edilsin;

46.3.7.2. "Digər icraçılar" sütununa "RİNN" akronimindən sonra "İN" akronimi əlavə edilsin;

46.3.7.3. "ilkin nəticələr" və "aralıq nəticələr" sütunlarında "İqtisadiyyat Nazirliyi" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin;

46.3.8. 8.4.5-ci yarımbənd üzrə:

46.3.8.1. "Əsas icraçı orqan (qurum)" sütununda "İN" akronimi "AİBNDA" akronimi ilə əvəz edilsin;

46.3.8.2."Digər icraçılar" sütununa "DGK" akronimindən sonra "İN" akronimi əlavə edilsin;

46.3.8.3. "ilkin nəticələr" sütununda "Respublikası İqtisadiyyat Nazirliyinin" sözləri "Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin" sözləri ilə əvəz edilsin;

46.3.9. 8.5.1-ci, 8.6.2-ci və 8.6.4-cü yarımbəndlərin "Əsas icraçı orqan (qurum)" sütununda "İN" akronimi "AİBNDA" akronimi ilə əvəz edilsin;

46.3.10. "Akronimlər" hissəsinə "AQTA - Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi" abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"AİBNDA - Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi".

47. "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 avqust tarixli 4060 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 8 (I kitab), maddə 1219 (Cild I) "8. Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Tədbirlər Planı" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

47.1. 8.7.2-ci yarımbəndin "Digər icraçılar" sütununa "İN" akronimindən sonra ", AİBNDA" akronimi əlavə edilsin;

47.2. "Akronimlər" hissəsinə "VXSİDA- Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi" abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"AİBNDA - Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi".

48. "Dövlət satınalmalarının vahid internet portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 16 aprel tarixli 647 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 646 (Cild I); 2024, № 2, maddə 148, № 6 (I kitab), maddə 654) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 noyabr 2025-ci il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Zəfər Gününün beşinci ildönümü münasibətilə Sizə, Azərbaycan Hökumətinə və dost Azərbaycan xalqına Bosniya və Herseqovinanın vətəndaşları adından və şəxsən öz adımdan təbriklərimi çatdırıram.

Bu əlamətdar bayram Azərbaycan xalqının milli məqsədlərinə çatmaq, ölkənin suverenliyini, ərazi bütövlüyünü təmin etmək yolunda cəsarətinin, qətiyyətinin və birliyinin rəmzidir.

Bosniya və Herseqovina ölkələrimizin inkişaf etdirdiyi dostluq münasibətlərinə və əməkdaşlığına dəyər verir. İkitərəfli əlaqələrin xalqlarımızın rifahı naminə qarşılıqlı hörmət və anlaşma əsasında daha da inkişaf edəcəyinə inanıram.

Sizə bir daha səmimi təbriklərimi çatdırır, dərin ehtiramımı ifadə edir, Azərbaycan Respublikasına və onun xalqına isə sülh, tərəqqi və rifah arzulayıram.

***Jelko KOMŞİÇ,***
***Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri***

Zati-aliləri, cənab Prezident!

Zəfər Günü münasibətilə Sizə və dost Azərbaycan xalqına təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan şərəf və qürur duyur, ölkənizin davamlı tərəqqisi və rifahı naminə ən səmimi arzularımı yetirirəm.

Bu əlamətdar gün Azərbaycan xalqı üçün böyük əhəmiyyət daşıyır, milli məqsədlərinizə çatmaq yolunda nümayiş etdirilən gücü, əzmkarlığı və birliyi bir daha yada salır.

Ölkənizin inkişafını və uğurlarını, eləcə də regionda sabitliyin və rifahın qorunması naminə göstərdiyiniz səyləri xüsusi diqqətlə izləyirik.

Əminəm ki, Serbska Respublikası, Bosniya və Herseqovina və Azərbaycan xalqları arasında dostluq münasibətləri ortaq mənafeyimizə uyğun olaraq qarşılıqlı anlaşma və hörmət ruhunda bundan sonra da inkişaf edəcəkdir.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm. Sizə cansağlığı və uğurlar, Azərbaycan xalqına isə sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***Jelka TSVİYANOVİÇ,***
***Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü***

# Türkiyə Böyük Millət Məclisinin Sədri Numan Kurtulmuş Milli Məclisin Sədri Sahibə Qafarovaya Zəfər Günü münasibətilə təbrik məktubu ünvanlayıb

**Türkiyə Böyük Millət Məclisinin Sədri Numan Kurtulmuş Milli Məclisin Sədri Sahibə Qafarovaya 8 Noyabr - Zəfər Günü münasibətilə təbrik məktubu ünvanlayıb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, məktubda TBMM Sədri Zəfər Gününün beşinci ildönümü münasibətilə spiker Sahibə Qafarovaya və Milli Məclisin üzvlərinə təbriklərini çatdırıb.

Məktubda 5 il əvvəl qazanılmış bu mübarək zəfərin haqqın, ədalətin və milli iradənin təzahürü kimi türk dünyasının ortaq qürurunu və qardaşlığının əbədiliyini bir daha göstərdiyi vurğulanır. Azərbaycan yurdu olan Qarabağın azadlığı üçün 44 gün davam etmiş və dillərə dastan olmuş mübarizənin qəhrəmanı olan qazilərimiz və şəhidlərimiz hörmət və rəhmətlə anılır.

Təbrikdə iki ölkə arasında "Bir millət, iki dövlət" şüarı əsasında inkişaf etdirilən səmimi və dərin əməkdaşlığın ölkələrimizin müstəqilliyinə və inkişafına, bölgəmizin isə sülh və azadlığına önəmli töhfələr verdiyi diqqətə çatdırılır.

***"Azərbaycan"***

# "Qələbənin işığında"



Noyabrın 5-də DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində tarixi Zəfərimizin 5 illiyinə həsr olunmuş "Qələbənin işığında" mövzusunda tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə dövlət və hökumət nümayəndələri, şəhid ailələrinin üzvləri, eləcə də müharibə ilə əlaqədar əlilliyi müəyyən olunmuş şəxslər iştirak ediblər.

Əvvəlcə Dövlət himni səsləndirilib, ərazi bütövlüyümüz və suverenliyimiz naminə canlarından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Zəfər bayramının hər birimiz üçün ən əziz və qürurverici bayramlardan biri olduğunu deyən əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev, dövlət başçısının rəhbərliyi ilə müharibə əlilləri, şəhid ailələri veteranlarının sosial təminatı məqsədilə çox geniş proqramlar həyata keçirildiyini diqqətə çatdırıb. Nazir həmin proqramların ildən-ilə genişləndiyini qeyd edib: "Postmüharibə dövründə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 132 min şəxsə 400 mindən çox xidmət göstərilib. Həmin kateqoriyadan olan şəxslər üçün nəzərdə tutulan müavinət və təqaüdlər orta hesabla 2 dəfədən çox artırılıb. Bu dövr ərzində şəhid ailələri, müharibə əlilləri və həssas təbəqədən olan digər şəxslərə 6900-ə yaxın mənzil verilib. 11 min nəfərə sosial-psixoloji dəstək və reabilitasiya xidmətləri göstərilib. Həmin kateqoriyadan olan vətəndaşların məşğulluğu da daim diqqət mərkəzindədir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi olaraq, bu proqramları davam etdirəcəyik.

DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi inkişafda olan mərkəzdir. Mərkəzdə həssas kateqoriyalardan olan şəxslərə, o cümlədən şəhid ailələri üzvləri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslər və övladlarına müxtəlif xidmətlər təqdim olunur. Bu qəbildən olan şəxslərin bilik və bacarıqlarının artırılması üzrə işlər aparılır. Hazırda mərkəzin 225-ə yaxın benefisiarı var. Mərkəz həssas qruplarla birgə öz fəaliyyətini davam etdirəcək".

Tədbir bədii hissə ilə davam etdirilib, şəhid övladlarının çəkdiyi fotolardan ibarət sərgi nümayiş olunub.

# Milli Məclisin Sədri Sahibə Qafarova COP30-un Liderlər Sammitinin açılış mərasimində iştirak edib








Braziliya Federativ Respublikasının Belem şəhərində işgüzar səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova dünən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 30-cu sessiyası çərçivəsində Liderlər Sammitində iştirak edib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Braziliya Federativ Respublikasının xarici işlər naziri Mauro Vieyra Mavi Zonada Azərbaycan parlamentinin spikerini salamlayıb. Sonra COP30-un Liderlər Sammitinin açılış mərasimi keçirilib. Mərasimdə Braziliya Prezidenti Luis İnasio Lula da Silva, BMT-nin Baş katibi Antonio Quterreş və bir sıra digər ölkələrin prezidentləri və baş nazirləri çıxış ediblər.

Qeyd edək ki, COP30-da bir çox ölkələrin dövlət və hökumət başçıları, nazirlər və beynəlxalq təşkilatların rəhbərləri iqlim dəyişikliyi ilə bağlı aktual problemləri və öhdəlikləri müzakirə etmək üçün bir araya gəlirlər. Azərbaycanı bu tədbirdə Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi nümayəndə heyəti təmsil edir.

***"Azərbaycan"***

# Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyə Respublikasının Vitse-prezidenti Cevdet Yılmazla görüşüb



Milli Məclisin Sədri Sahibə Qafarova Braziliya Federativ Respublikasının Belem şəhərində keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 30-cu sessiyası çərçivəsində Türkiyə Respublikasının Vitse-prezidenti Cevdet Yılmazla görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə ötən il COP29-un Bakıda yüksək səviyyədə təşkil olunduğunu söyləyən Cevdet Yılmaz, COP29 zamanı mühüm qərarların qəbul olunduğunu bildirib. O, qardaş Türkiyənin bu tədbirdə fəal iştirak etdiyini xatırladıb.

Türkiyə Respublikasının Vitse-prezidenti 8 Noyabr - Zəfər Günü münasibətilə təbriklərini çatdıraraq, bu böyük zəfər nəticəsində Azərbaycanın öz torpaqlarını işğaldan azad etdiyini söyləyib.

Milli Məclisin Sədri qeyd edib ki, dost və qardaş ölkələrimiz arasında münasibətlər Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" prinsipi əsasında inkişaf edir və qardaş ölkələrimiz bütün məsələlərdə bir-birini daim dəstəkləyir. Söhbət zamanı əlaqələrin bu səviyyəyə gəlib çatmasında dövlət başçılarımızın müstəsna rolu qeyd edilərək, onların şəxsi dostluğunun və qardaşlığının, siyasi iradəsinin və qətiyyətinin münasibətlərin hazırki yüksək səviyyədə olmasını təmin etdiyi bildirilib.

Görüşdə ölkələrimiz arasında yüksəksəviyyəli münasibətlərin Türk Dövlətləri Təşkilatı çərçivəsində də əməkdaşlığın, o cümlədən təşkilatın daha da gücləndirilməsinə töhfə verdiyi diqqətə çatdırılıb. Eyni zamanda bu əlaqələrin fonunda Azərbaycan-Türkiyə-Pakistan üçtərəfli zirvəsinin önəmi qeyd edilib.

Tərəflər ikitərəfli münasibətlərin daha da dərinləşməsində parlamentlər arasında dialoqun vacib əhəmiyyət kəsb etdiyini vurğulayaraq, bu mənada qardaş ölkələrimizin qanunvericilik orqanları arasında əlaqələrin də yüksək səviyyədə olmasından məmnunluqlarını bildiriblər.

Söhbət zamanı qeyd olunub ki, Azərbaycan və Ermənistan arasında normallaşma prosesi regiona uzunmüddətli sülh, sabitlik və rifahın gəlməsinə müsbət təsir göstərəcək.

***"Azərbaycan"***

# Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında Zəfər Gününə həsr olunmuş tədbir keçirilib





Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında (AHİK) 8 Noyabr - Zəfər Günü münasibətilə "Tarixi Zəfər" adlı tədbir keçirilib.

Tədbirdə dövlət rəsmiləri, AHİK-in rəhbərliyi və kollektivi, üzv təşkilatların nümayəndələri iştirak ediblər.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib, şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Tədbirdə çıxış edən konfederasiya sədri Sahib Məmmədov Zəfər Gününün tarixi əhəmiyyətindən, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin yüksək sərkərdəlik məharətindən, uzaqgörən siyasətindən və müdrik qərarlarından söz açıb, əsgər və zabitlərimizin döyüş meydanında göstərdiyi igidlik və qəhrəmanlıqlardan, xalqımızın sarsılmaz birliyindən bəhs edib.

Vurğulanıb ki, bu möhtəşəm Qələbə Ulu Öndər Heydər Əliyevin ideyalarının, cənab Prezident İlham Əliyevin qətiyyətli siyasətinin nəticəsi, minilliklərə söykənən qədim tariximizin qürur səhifəsi və qəhrəmanlıq salnaməsidir. Qeyd olunub ki, haqq savaşımızda qəhrəmancasına döyüşərək üçrəngli bayrağımızı işğaldan azad edilmiş torpaqlara sancan mübariz oğul və qızlarımızın şücaəti dövlətimiz və xalqımız tərəfindən yüksək qiymətləndirilir, şəhid ailələrinin və qazilərin sosial rifahı daim diqqətdə saxlanılır.

Hazırda azad edilmiş ərazilərimizdə genişmiqyaslı bərpa və quruculuq işləri aparılır, Şərqi Zəngəzur və Qarabağ dirçəldilir və bu torpaqlara yenidən həyat qayıdır.

AHİK sədrinin müşaviri, Vətən müharibəsi iştirakçısı Kamran Umudov keçdiyi döyüş yolundan, komandiri olduğu əsgərlərin əzmkarlığından və yüksək döyüş ruhundan danışıb.

Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri polkovnik Cəlil Xəlilov isə çıxışında Azərbaycan Ordusunun gücünü, dövlətimizin müharibə iştirakçılarına göstərdiyi diqqət və qayğını qeyd edib.

Tədbir çərçivəsində Vətən müharibəsində əsgər və zabitlərimizin qəhrəmanlıqlarını, xalqımızın birliyini və qələbəyə olan inamını əks etdirən film nümayiş etdirilib.

Əməkdar artist Ağalar Bayramovun vətənpərvərlik mövzusunda səsləndirdiyi şeirlər, Vətən müharibəsi qazisi və müğənni Məbud Əhmədovun ifasında təqdim olunan qələbə ruhlu mahnılar tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb. Həmçinin şəhid övladlarından ibarət xor qrupunun "Şəhid övladlarının zəfər sədası" kompozisiyası alqışlarla müşayiət olunub.

Tədbir müğənni Gülzar Fərəcovanın ifasında dövlətimizin qüdrətini və xalqımızın qələbə ruhunu tərənnüm edən "Yaşa, Azərbaycan!" mahnısı ilə başa çatıb.

***Nərminə ƏSGƏROVA,***
***"Azərbaycan"***



# AZƏRBAYCANIN ŞƏRƏF VƏ QÜRUR TARİXİ

## ŞANLI ZƏFƏR - 5 İL

Müsahibimiz Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyevdir

# "Böyük Zəfər ədalətin təntənəsi olmaqla hüquqi yaddaşın gələcək nəsillərə ötürülməsinin təminatıdır"



***- Cənab baş prokuror, ilk olaraq Sizi və başçılıq etdiyiniz kollektivi İkinci Qarabağ savaşında Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə olunan Zəfərin ilk yubileyi - 5-ci ildönümü münasibətilə "Azərbaycan" qəzeti redaksiyasının əməkdaşları adından təbrik edirik. İstərdik ki, müsahibəmizə də bu mövzudan başlayaq.***

***Kamran müəllim, etiraf edək ki, suveren ərazilərimizin işğalı zamanı Ermənistanın insanlıq çərçivəsinə sığmayan əməllərinə qarşı bizim prokurorluq orqanları cinayət işlərinin ibtidai istintaqına başlayanda nə vaxtsa ağlasığmaz cinayətləri törədənlərin Bakıda mühakimə olunacaqlarını təsəvvürümüzə belə gətirmirdik. Şükür Tanrının ədalətinə ki, bu gün biz bunun şahidiyik və təkcə Azərbaycan yox, bütün dünya ölkəmizin hüquq-mühafizə orqanlarının, xüsusən Baş Prokurorluğun uzun müddət apardığı gərgin istintaq işləri sayəsində vaxtilə Ermənistan tərəfindən işğal edilmiş suveren ərazilərimizdə mövcud olmuş keçmiş qondarma rejimin "rəhbər"lərinin cinayət əməlləri və etirafları ilə tanış olur. Çox istərdik ki, bu barədə oxucularımızla fikirlərinizi bölüşəsiniz.***

- Təşəkkür edirəm təbrikinizə görə. İlk növbədə biz xüsusi qeyd etməliyik ki, tariximizə qızıl hərflərlə həkk olunmuş Qələbəmizin təməli məhz Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə siyasi, iqtisadi və hərbi sahədə həyata keçirilən sistemli islahatlarla və uzaqgörən strateji planlaşdırma sayəsində mümkün olmuşdur.

Dövlət başçısının ətrafında xalqımızın, bütün dövlət qurumlarının, güc strukturlarının səfərbər olması nəticəsində qazanılan, milli iradəni və ədaləti təmin edən Zəfər regionda uzunmüddətli sülh və sabitliyin möhkəmlənməsinə və qarşılıqlı etimadın artmasına şərait yaratmışdır.

Təbii ki, 1987-ci ildən Ermənistan ali siyasi rəhbərliyinin xarici havadarlarının dəstəyilə müxtəlif forma və miqyaslarda ölkəmizə və xalqımıza qarşı törədilən çoxsaylı cinayətlər, Qarabağda və digər sərhədyanı bölgələrdə baş tutan terror aktları üzrə ilk gündən yerli hüquq-mühafizə, o cümlədən prokurorluq orqanları tərəfindən təqsirli şəxslərin müəyyənləşdirilməsi üçün tələb olunan bütün prosessual addımlar atılmışdır.

Müstəqilliyin bərpasından sonra da bu proses bir an belə dayanmamış, istər beynəlxalq konvensiyaların, istərsə də milli qanunvericiliyin tələblərinə uyğun olaraq mümkün olan sübutların toplanması istiqamətində kompleks istintaq-əməliyyat tədbirləri davam etdirilmiş, cinayət törətməsinə dair əsaslı şübhələr mövcud olan şəxslər barəsində beynəlxalq axtarış tədbirləri tətbiq olunmuşdur.

Bu gün müxtəlif ölkələrdə törədilən cinayətlərə görə mötəbər sübutların toplanmasına, müvafiq məhkəmə qərarlarının olmasına baxmayaraq, təqsirli şəxslərin dünyanın gözü önündə "real" məsuliyyətə cəlb edilməməsinin şahidi olduğumuz halda, məhz möhtərəm cənab Prezident İlham Əliyevin fitri diplomatik məharəti sayəsində hüquq-mühafizə orqanlarının, o cümlədən prokurorluğun apardığı cinayət işləri üzrə müharibə və digər xüsusilə ağır cinayətlər törətməkdə təqsirləndirilən şəxslərin ədalət mühakiməsinin qarşısına çıxarılması təmin edilmişdir.

Nəticə etibarilə, 5 il öncə əldə edilən Böyük Zəfər həm də mənəvi ölçüdə ədalətin təntənəsi olmaqla şəhidlərimizin əziz xatirəsinə ehtiramın, zərərçəkmişlərin hüquqlarının bərpasının və hüquqi yaddaşın gələcək nəsillərə ötürülməsinin təminatıdır.

***- İşğaldan azad edilmiş ərazilərdə Böyük qayıdış çərçivəsində həm rayon və şəhər, həm də hərbi prokurorluqlar təsis olunaraq fəaliyyətə başlayır.***

***Başqa sözlə desək, 30 il "köçkün" düşmüş yerli prokurorluqlar doğma yerlərinə dönürlər. Bütün bunları təşkil edib həyata keçirmək, o cümlədən kadr məsələlərini həll etmək çətin deyil ki?***

- Burada çətinliyi aradan qaldıran amil dövlətimizin prokurorluq sistemində illərdir ardıcıl şəkildə aparılan institusional islahatlarıdır.

Əlbəttə, bir çox dövlət təsisatı kimi, prokurorluq orqanlarının da təkmilləşdirilməsi, əməkdaşların əməyinin fərqləndirilməsi, yeni informasiya texnologiyalarının tətbiqi və sosial-maddi təminatın əhəmiyyətli dərəcədə yaxşılaşdırılması Ümummilli Lider Heydər Əliyev irsinə layiqli varislik sərgiləyən cənab Prezident İlham Əliyevin çağdaş tələblərə uyğun həyata keçirdiyi hüquqi dövlət quruculuğu kursu sayəsində mümkün olmuşdur.

Məhz bu strateji xətt bizə həm idarəetmədə çeviklik, həm də kadr və resursların səmərəli səfərbərliyi üçün möhkəm təməl yaratmışdır.

Bu gün dövlət başçısının birbaşa dəstəyilə prokurorluqda hesabatlılıq və şəffaflıq mexanizmləri gücləndirilir, elmi-texniki nailiyyətlər tətbiq olunur, maddi-texniki baza və əməkdaşların sosial müdafiəsi davamlı olaraq yaxşılaşdırılır, işin səmərəliliyi yüksəldilir və aşkarlanan çatışmazlıqlar təxirə salınmadan aradan qaldırılır.

Aparılan islahatlar da öz növbəsində azad edilmiş ərazilərdə infrastrukturun sıfırdan qurulması, bərpası və rəqəmsal idarəçilik standartlarının tətbiqi kimi mürəkkəb tapşırıqların icrasına kömək etmiş olur.

Bu baxımdan cənab Prezidentin 1 aprel 2021-ci il tarixli "İşğaldan azad edilmiş ərazilərdə yeni hərbi prokurorluqların yaradılması haqqında" sərəncamı qayıdış prosesinin hüquqi-institusional çərçivəsini formalaşdırdı: Qubadlı və Kəlbəcər Hərbi Prokurorluqları təsis olundu, Qarabağ Hərbi Prokurorluğunun bazasında Ağdam Hərbi Prokurorluğu yaradıldı.

Qısa zaman kəsiyində Qubadlı və Kəlbəcər hərbi, həmçinin Xankəndi şəhər və Laçın rayon prokurorluqları üçün müasir tələblərə cavab verən inzibati binaların istifadəyə verilməsi bölgədə prokurorluğun fəaliyyətinə praktiki töhfə vermiş oldu.

Qeyd edə bilərəm ki, bu, təkcə orqanların fiziki qayıdışı deyil, həm də qanunun aliliyinin, cinayətkarlığa qarşı mübarizənin doğma torpaqlarda bərqərar edilməsidir.

Təbii ki, bunun həyata keçirilməsində prokurorluğun vətənpərvər, dövlətçiliyə sadiqliyi ilə seçilən, bir çoxu həmin bölgələrdə dünyaya gəlməklə sonradan məcburi köçkün həyatı yaşayan əməkdaşlarının da rolu danılmazdır.

Fürsətdən istifadə edərək böyük həvəslə həmin ərazilərdə xidməti fəaliyyət göstərən prokurorluq orqanlarının, xüsusən çətin relyef şəraitində çalışan ərazi hərbi prokurorluqlarının əməkdaşlarına öz təşəkkürümü bildirmək istərdim.

***- Kadrlardan söz düşmüşkən. Kamran müəllim, son vaxtlar prokurorluq orqanlarına xeyli sayda gənc əməkdaş işə götürülüb. Amma bir məsələ də var ki, gənclər nə qədər fəal, beynəlxalq hüquqdan daha məlumatlı, kreativ olsalar da, təcrübə sarıdan nisbətən yaşlı əməkdaşlardan geri qalırlar.***

***Sizcə, hansına daha çox üstünlük verilməlidir - təcrübəyə, yoxsa biliyə?***

- Prokurorluqda kadr korpusunun keyfiyyətinin yüksəldilməsi, elmi-nəzəri fəaliyyətin, əməkdaşların peşə səviyyələrinin artırılması və vəzifədə irəli çəkilmə üçün dayanıqlı kadr ehtiyatının formalaşdırılması əsas prioritetlərdən biridir.

Bu istiqamətdə müxtəlif nəsil prokurorluq işçiləri arasında sağlam varisliyin təmininə önəm verilməklə, perspektivli, mənəvi-etik keyfiyyətləri ilə seçilən, vətənpərvərlik, azərbaycançılıq və dövlətçilik ruhu yüksək olan, qanunun aliliyinə hörmətlə onu tərəddüdsüz tətbiq etmək bacarığına malik gənc mütəxəssislər hesabına sistemli yenilənmə həyata keçirilir.

Beləliklə də kadrların komplektləşdirilməsi günün tələbləri və qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, obyektivlik, ədalət və şəffaflıq meyarları əsasında qurulmuş, işçilərin potensialının qiymətləndirilməsi, irəli çəkilmə və rotasiya mexanizmləri də eyni prinsiplərlə idarə olunmaqdadır.

Kadr siyasətində, hesab edirəm ki, bu məsələni "təcrübəni, yoxsa biliyimi?" kimi ayırmaq düzgün deyil. Prokurorluğun fəaliyyətində nəticəni etibarlı edən məhz bu iki amilin vəhdəti, yəni "ya o, ya bu" deyil, "həm o, həm bu" yanaşmasının tətbiqidir.

Praktiki risklərin öncədən görülməsi, prosessual incəliklərin qorunması və peşəkarlığın davamı üçün təcrübə əvəzsizdirsə, xüsusən beynəlxalq humanitar hüquq bilikləri, xarici dil qabiliyyəti, rəqəmsal texnologiyalar və süni intellektin imkanlarına bələd olmaq isə müasir çağırışlara çevik cavabın təməlidir.

Ona görə də bu balansı ayırmaq düzgün deyil, gənclər fəaliyyətimizə dinamika və yenilik gətirir, təcrübəli əməkdaşlar isə rastlaşdıqları konkret hallar üzrə bilik və bacarıqlarını tətbiq etməklə peşəkar praktikanın formalaşmasına zəmin yaradırlar.

***- Cənab baş prokuror, bildiyimiz kimi, Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə regionumuzda davamlı sülhün əldə olunması üçün ardıcıl və gərgin iş gedir. O sıradan Azərbaycanla Ermənistan arasında münasibətlər getdikcə düşmənçilik müstəvisindən çıxır. Amma bunun fonunda İrəvan hələ də bizə Qarabağ və Şərqi Zəngəzurda basdırılan minaların dəqiq xəritəsini verməyib. Bu barədə nə deyə bilərsiniz? Problemlə bağlı qarşı tərəflə danışıqlar gedirmi?***

- Tarixi qələbəmizin beş illiyinə yaxınlaşarkən cənab Prezidentin siyasi uzaqgörənliyi ilə gerçəkləşən və diplomatik şahmat zəfəri kimi dəyərləndirilən Vaşinqton razılaşması milli iradəmizin beynəlxalq legitimliyini möhkəmləndirdi. Bu nailiyyət bölgədə sülhün daimi xarakter almasına, tarixi ədalətin bərpasına və dövlətimizin gələcək rifahının dayanıqlı əsaslar üzərində qurulmasına xidmət etməkdədir.

Sülhün möhkəmlənməsinə yönəlmiş addımlardan biri kimi ölkəmizin Ermənistana göndərilən yüklərin tranzitinə bütün məhdudiyyətləri aradan qaldırması "etimad quruculuğu" prosesinin "kağız üzərindən" real əməkdaşlıq mexanizminə çevrilməsinə rəvac vermişdir.

Bununla belə sülh gündəminin irəliləməsinə baxmayaraq, mina məsələsi regionda təhlükəsiz reinteqrasiya, qayıdış və bərpa prosesləri üçün hələ də ən ciddi maneələrdən biridir.

Döyüş əməliyyatları dayandırılandan indiyə qədər mina partlayışları nəticəsində 400-dən çox hərbi qulluqçu və mülki şəxs həlak olmuş və ya müxtəlif dərəcəli bədən xəsarətləri almışdır ki, bu göstərici mina təhlükəsinin miqyasını nümayiş etdirməklə dəqiq xəritələrin təhvil verilməsinin vacibliyini daha da artırır.

Azərbaycan tərəfi məsələni həm beynəlxalq-hüquqi müstəvidə, həm də qurumlararası əməkdaşlıq çərçivəsində, o cümlədən iki ölkənin prokurorluqları vasitəsilə də qaldırıb ancaq təqdim edilən mina xəritələrinin yararlılığının 25 faizdən yuxarı olmaması təhlükəsizlik risklərini və mülki əhali üçün təhdidləri artırmaqla genişmiqyaslı təmizləmə işlərində gecikmələrə və əlavə resurslara səbəb olmaqdadır.

Sülh prosesinin etibarlı irəliləməsi üçün humanitar öhdəliklərin yerinə yetirilməsi zəruridir, bu həm beynəlxalq humanitar hüququn tələbidir, həm də davamlı sabitlik üçün vacib şərtdir.

***- Elə bu yerdə itkin düşmüş soydaşlarımızla bağlı sual vermək istərdik. Yəqin ki, onların talelərinə aydınlıq gətirmək üçün işlər görülür.***

- Bəli, bu məsələ dövlət səviyyəsində ən həssas prioritetlərdəndir və bu istiqamətdə həm prokurorluq, həm də Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası ilə birlikdə zəruri tədbirlər davam etdirilir.

Təəssüflə qeyd etməliyəm ki, işğaldan azad edilmiş ərazilərdə aparılan qazıntılar zamanı aşkarlanmış 29 kütləvi məzarlıqdan təxminən 800-ə yaxın meyit qalığı çıxarılaraq ekspertizaya göndərilmiş, məhkəmə molekulyar-genetik ekspertizasının nəticəsi olaraq, I Qarabağ müharibəsində itkin düşmüş şəxslərdən 203 nəfərin şəxsiyyəti eyniləşdirilərək ailələrinə təhvil verilmiş, qanunvericiliyin tələblərinə və milli-dini ənənələrə uyğun dəfn olunmuşlar.

İtkin kimi qeydiyyata alınan 3990 nəfərdən 3 min 984 nəfəri I Qarabağ müharibəsində, 6 nəfəri isə 44 günlük Vətən müharibəsində itkin düşmüşlər ki, onlardan 3 min 211 nəfəri hərbçi, 779 nəfəri isə mülki şəxsdir.

Məlumat üçün bildirim ki, itkin düşmüş soydaşlarımızın yaxın qohumlarından on bir mindən artıq bioloji nümunə toplanılmaqla müvafiq genetik laboratoriyada sistemləşdirilmişdir.

Bu proses davamlı xarakter daşımaqla dövlətimizin, o cümlədən prokurorluğun məqsədi dəyişməzdir: hər bir soydaşımızın taleyinə hüquqi və insani baxımdan tam aydınlıq gətirmək.

***- Baş prokurordan öncəki vəzifənizi nəzərə alaraq Sizdən müsahibə alıb ölkəmizdə korrupsiyaya qarşı aparılan mübarizə barədə sual verməmək doğru olmazdı, xüsusən də bu məsələ birbaşa Prezidentin gündəlik nəzarətindədirsə.***

- Qalibiyyət şərəfini daşıyan respublikamızın gələcək dövr üçün müəyyən edilən əsas strateji hədəflərinə çatmaqda korrupsiya hüquqpozmalarına qarşı mübarizə mühüm əhəmiyyət kəsb edir.

Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin 4 aprel 2022-ci il tarixli sərəncamı ilə yeni inkişaf mərhələsinin doğurduğu zərurətdən irəli gələn növbəti konseptual sənədin - "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın qəbul edilməsi bu sahədə dövlət başçısının siyasi iradəsinin və qətiyyətli mövqeyinin növbəti əyani təsdiqi olmuşdur.

Qeyd etməliyəm ki, korrupsiyaya qarşı mübarizə xətti son illər rəqəmsallaşma, açıq məlumatların genişləndirilməsi, risk əsaslı nəzarət mexanizmləri və korrupsiya risklərini öncədən neytrallaşdıran qabaqlayıcı tədbirlər vasitəsilə daha da dərinləşdirilmişdir.

Müvafiq sahədə dövlət siyasətinin formalaşmasında iştirak edən Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası tərəfindən dövlət idarəçiliyində səmərəliliyin artırılması və şəffaflığın gücləndirilməsi ilə əlaqədar davamlı tədbirlər həyata keçirilmişdir.

Bu çərçivədə qayda və prosedurların sadələşdirilməsi, insan faktoru ilə bağlı təsadüfi qərarların minimuma endirilməsi və xidmətlərin proaktiv təqdimatı korrupsiya risklərini struktur səviyyəsində azaldan əsas tədbirlər kimi çıxış edir.

Səmərəli antikorrupsiya platforması hesab edilən "ASAN xidmət" və DOST şəbəkələrinin genişlənməsi dövlət qulluqçusu-vətəndaş münasibətlərində şəffaf, nəzakətli və sürətli ünsiyyət standartını formalaşdırmaqla korrupsiya üçün zəmin yaradan boşluqları xeyli azaltmışdır.

Korrupsiya ilə mübarizədə ixtisaslaşmış cinayət təqibi orqanı olan Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən də ötən 10 ay ərzində yüksək göstəricilərə nail olunmaqla rüşvətlə bağlı, vəzifə səlahiyyətlərini aşma, vəzifə saxtakarlığı, vəzifədən sui-istifadə və s. faktlar üzrə 120 vəzifəli şəxs barəsində 75 cinayət işinin ibtidai istintaqı tamamlanaraq baxılması üçün məhkəmələrə göndərilmiş, həmin işlər üzrə vurulmuş maddi ziyandan ibtidai araşdırma mərhələsində 3 milyon 532 min manatın ödətdirilməsi təmin edilmiş, həmçinin 14 milyon 916 min manat dəyərində qiymətləndirilən əmlak üzərinə həbs qoyulmaqla, ümumilikdə vurulmuş maddi ziyanın 76 faizinin ödətdirilməsi təmin edilmişdir.

Bundan başqa, icraatına xitam verilmiş işlər üzrə 4 milyon 343 min manat məbləğində maddi ziyan ödənilməklə cinayət məsuliyyətindən azad olunmuş şəxslər tərəfindən dövlət büdcəsinə əlavə olaraq 2 milyon 198 min manat məbləğində pul vəsaiti ödənilmişdir.

Korrupsiyaya qarşı mübarizədə ixtisaslaşmış aparıcı beynəlxalq təşkilatlar hesab edilən BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (UNODC), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupu (GRECO), MONEYVAL Komitəsi və digər ixtisaslaşmış nüfuzlu qurumlar tərəfindən ölkəmizdə dövlət idarəçiliyində şəffaflığın artırılması sahəsində həyata keçirilən islahatlar və əldə edilən nailiyyətlər yüksək qiymətləndirilmişdir.

Ölkəmizin korrupsiyaya qarşı mübarizə üzrə təşəbbüslərinə beynəlxalq etimadın növbəti təzahürü olaraq cari ilin may ayında Bakı şəhərində Birləşmiş Millətlər Təşkilatının Korrupsiyaya qarşı mübarizə aparan hüquq-mühafizə orqanlarının Qlobal Əməliyyatlar Şəbəkəsi - GlobE Network çərçivəsində 92 ölkəni təmsil edən 120 dövlət qurumunun 300-dən artıq nümayəndəsinin iştirakı ilə Altıncı Plenar İclasın keçirilməsi bu baxımdan müstəsna əhəmiyyət daşımışdır.

Beynəlxalq-hüquqi əməkdaşlığın gücləndirilməsi, uğurlu təcrübə mübadiləsi və səmərəli yanaşmaların formalaşdırılması baxımından mühüm antikorrupsiya platforması hesab olunan "GlobE Network"-ün iclasında yeni texnologiyaların hüquq-mühafizə orqanlarına təsiri, ekoloji hüquqpozmaların qarşısının alınması və əmlakın bərpası kimi aktual mövzular ətrafında müzakirələr aparılmışdır.

Qeyd etməliyəm ki, korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlıq diqqət mərkəzində saxlanılmaqla ölkəmiz 2026-cı ildə İslam Əməkdaşlıq Təşkilatına (İƏT) Üzv Dövlətlərin Korrupsiyaya qarşı mübarizə aparan hüquq-mühafizə orqanlarının Yüksək Səviyyəli Görüşünə evsahibliyi edəcəkdir.

Prokurorluq orqanları tərəfindən bundan sonra da möhtərəm cənab Prezident İlham Əliyevin, - "Korrupsiyaya, rüşvətxorluğa qarşı amansız mübarizə aparılmalı və bunun kökü kəsilməlidir" göstərişinə uyğun olaraq ölkəmizdə həyata keçirilən quruculuq işlərinə, sosial, iqtisadi və siyasi sahədə aparılan islahatlara kölgə salan, habelə əhalinin haqlı narazılığına səbəb olan neqativ təzahürlərə qarşı daha ciddi mübarizə aparılması istiqamətində sistemli, ardıcıl və qətiyyətli mübarizə tədbirlərinin davam etdirilməsi təmin ediləcəkdir.

***- Etiraf edək ki, son vaxtlar Sizin xarici ölkələrə səfərlərinizin sayı xeyli artıb. Bu, sözsüz ki, Azərbaycan Baş Prokurorluğunun xarici əlaqələrinin coğrafiyasının genişlənməsindən xəbər verir.***

- Ölkəmizin dünya birliyinə inteqrasiyası, qloballaşma meyillərinin güclənməsi və informasiya texnologiyalarının sürətli inkişafı transmilli cinayətkarlığın yeni formalarına qarşı mübarizədə dövlətlərin birgə səylərini zəruri edir.

Bu reallıq hüquq-mühafizə orqanlarının, o cümlədən Azərbaycan Respublikası Prokurorluğunun digər ölkələrin müvafiq qurumları ilə sıx əməkdaşlıq etməsini və beynəlxalq təşkilatlarda fəal iştirakını prioritet kimi müəyyənləşdirir.

Ötən müddətdə beynəlxalq qurumlarla və xarici tərəfdaşlarla əlaqələrin inkişafına mühüm əhəmiyyət verilərək ekstradisiya, hüquqi yardım və digər sahələr üzrə beynəlxalq müqavilə və konvensiyalarda təsbit edilmiş öhdəliklərin icrasında öz səlahiyyətləri çərçivəsində fəal iştirak edən prokurorluq orqanları tərəfindən əməkdaşlığın genişləndirilməsi istiqamətində müvafiq tədbirlərin görülməsi davam etdirilmişdir.

Təbii ki, praktiki nəticələr də özünü göstərir: həm prokurorluğa daxil olan, həm də ölkəmizdən xarici dövlətlərə yönəldilən hüquqi yardım sorğularının sayı əhəmiyyətli dərəcədə artmış, istintaqdan yayınan şəxslərin Azərbaycana ekstradisiyası təmin olunmuşdur.

Həyata keçirilmiş tədbirlərin və prokurorluq orqanlarının beynəlxalq aləmdə nüfuzunun yüksəlməsinin nəticəsidir ki, ötən il Bakı şəhərində dünya prokurorlarının yeganə qlobal təşkilatı olan Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu İllik Konfransı və Ümumi Yığıncağı keçirilmişdir.

55 ölkənin baş prokuroru və prokurorluq xidmətinin rəhbəri də daxil olmaqla, 95 ölkə və 10 beynəlxalq təşkilatdan ümumilikdə 500-dən artıq şəxsin iştirakı ilə baş tutmuş tədbir Azərbaycan prokurorluğunun inkişaf tarixində ən əlamətdar hadisələrdən biri kimi yadda qalmışdır.

Beynəlxalq platformadakı aktivliyin davamı olaraq cari ildə də çoxsaylı görüşlər keçirilmiş, o cümlədən "Konstitusiya və Suverenlik İli" çərçivəsində, həmçinin Azərbaycan prokurorluğunun peşə bayramı və 107 illik yubileyi ərəfəsində Uqanda, Laos, Tanzaniya, Keniya baş prokurorları və Türkiyə Baş Prokurorluğunun nümayəndələrinin iştirakı ilə "Suverenliyin keşiyində: Konstitusiyada Prokurorluğun statusu" mövzusunda konfrans keçirilmişdir.

Milli prokurorluq orqanları tərəfindən əldə olunan müsbət təcrübələr beynəlxalq təşkilatlarda da qurumun əməkdaşlarının mütəxəssis qismində cəlb olunmasına şərait yaratmış, belə ki, cari ildə Baş Prokurorluğun idarə rəisi Albaniya tərəfindən BMT-nin Korrupsiya əleyhinə Konvensiyasının tətbiqinin qiymətləndirməsində dəyərləndirici ekspert kimi iştirak etmişdir.

Eyni zamanda Baş Prokurorluğun idarə rəisi korrupsiyaya qarşı mübarizə sahəsində nəzəri və praktiki boşluqların aradan qaldırılması, ixtisasartırma, təcrübə mübadiləsi və elmi tədqiqatların təşviqinə yönəlmiş nadir beynəlxalq institutlardan olan Beynəlxalq Anti-Korrupsiya Akademiyasının (IACA) rəhbər orqanı - İdarəetmə Şurasında fəaliyyətə başlamışdır.

***- Zəfərin 5-ci ildönümü ərəfəsində vaxt tapıb suallarımızı ətraflı cavablandırdığınız üçün minnətdarlığımızı bildiririk. Fürsətdən istifadə edib bir daha Sizi və bütün prokurorluq orqanları işçilərini bu münasibətlə təbrik edirik.***

- Mən də Sizə təşəkkür edir, fürsətdən istifadə edərək qəzetinizin kollektivini, həmçinin bütün media nümayəndələrini bayram münasibətilə təbrik edirəm.

Prokurorluq orqanları dövlət başçısı cənab İlham Əliyevin tövsiyə və tapşırıqlarına uyğun olaraq, vətəninə və xalqına sədaqətlə xidmət etməyə davam edəcək, ictimai-siyasi sabitliyin və dövlətçiliyimizin qorunması, qanunçuluğun möhkəmləndirilməsi naminə üzərilərinə düşən vəzifələri layiqincə həyata keçirəcəkdir.

*Müsahibəni apardı:*

***Bəxtiyar ƏZİZLİ,***
***"Azərbaycan"***

# Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov Astanada Beynəlxalq Forumda iştirak edir






2025-ci ilin 6-7 noyabr tarixlərində Qazaxıstanın paytaxtı Astana şəhərində "Milli statistika sistemlərinin rəqəmsal transformasiyası" mövzusunda Beynəlxalq Forum və forum çərçivəsində Qazaxıstanın dövlət statistika qurumunun yaradılmasının 105 illiyi mərasimi keçirilir. Tədbirdə ölkəmizi Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov təmsil edir.

Forum zamanı innovativ informasiya texnologiyalarının tətbiqi (süni intellekt, maşın öyrənməsi və s.), məlumatların idarə olunmasına yeni yanaşmalar, onların təhlükəsizliyi və məxfiliyinin təmin edilməsi də daxil olmaqla rəsmi statistikanın modernizasiyası, eləcə də kadr potensialının möhkəmləndirilməsi və təkmilləşdirilməsi, texniki infrastrukturun və statistik proseslərin transformasiyasının zəruriliyi, artan çağırışların birgə həlli yolları və istifadəçi ehtiyaclarının ödənilməsi imkanlarına dair aktual məsələlərlə bağlı müzakirələr aparılır. Tədbir milli statistika sistemlərinin rəqəmsal transformasiyası, məlumatların keyfiyyəti və müasir dünyada onların artan keyfiyyəti, rəsmi statistikada irihəcmli məlumatlardan istifadə potensialı, dövlət idarəetməsində süni intellekt texnologiyalarından istifadə, istifadəçi və məlumat istehsalçıları ilə kommunikasiya mövzularında sessiyalardan ibarətdir.

Tədbirin birinci günü Dövlət Statistika Komitəsinin Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinin müdiri Toğrul Əcəlov təqdimatla çıxış edərək Azərbaycanda keyfiyyətin idarə olunması sisteminin tətbiqi, metaməlumatlar və şəffaflıq, keyfiyyətə nəzarət cədvəlləri, ev təsərrüfatları büdcələri tədqiqatında və istehlak qiymətləri indeksinin hesablanmasında ilkin məlumatların keyfiyyətinin yoxlanılması, inzibati məlumatlar və onların statistik məlumatların keyfiyyətində rolu sahəsində görülmüş işlər barədə tədbir iştirakçılarına geniş məlumat verib.

*"Azərbaycan"*

# Sahil BABAYEV: "Bu gün Azərbaycanın sosial, iqtisadi inkişafı üçün balanslaşdırılmış fiskal siyasət aparılır"

**2024-cü illə müqayisədə səhiyyə xərclərini 40 faiz artırırıq. Son beş ildə 160 faiz artıb. Bunun özü kifayət qədər böyük bir rəqəmi göstərir. ÜDM-də payı 2,7 faizdir.**



Bu sözləri maliyyə naziri Sahil Babayev noyabrın 6-da Təbii ehtiyatlar, energetika və ekologiya, Əmək və sosial siyasət, Səhiyyə, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitələrinin birgə iclasında çıxışı zamanı deyib. AZƏRTAC-ın məlumatına görə, nazir bildirib ki, bu gün Azərbaycanın sosial, iqtisadi inkişafı üçün balanslaşdırılmış bir fiskal siyasət aparılır: "Biz həm vergi yüklərini, həm də fiskal yükləri balanslaşdırılmış şəkildə aparırıq. Ona görə də düşünürük ki, təqdim olunan rəqəmlər həm dinamika, həm də beynəlxalq göstəricilər baxımından çox yaxşıdır".

# Vergi Məcəlləsinə dəyişikliklər nəticəsində dövlət büdcəsinə əlavə 623 milyon manat vəsaitin daxil olması proqnozlaşdırılır

**Bu barədə Mili Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinin müzakirəsi zamanı Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərli bildirib.**



Vergi Məcəlləsinə təklif olunan dəyişikliklərin gözlənilən nəticələri və təsirlərindən danışan O.Nəzərli deyib ki, xaricdən əldə olunan dividend gəlirləri üzrə vergi dərəcəsinin azaldılması xaricdə yerləşən maliyyə vəsaitlərinin, investisiyaların Azərbaycana repatriasiyasını və gəlirlərin könüllü bəyan edilməsini təşviq edəcək. "Dövlət-özəl tərəfdaşlığı layihələri, avtomobil istehsalı, gəmiqayırma, balıqçılıq, kənd təsərrüfatı və ictimai iaşə sahələrində tətbiq olunan vergi güzəştləri həmin sahələrdə əlavə dəyərin və istehsal həcmlərinin artmasına səbəb olacaq. Həmçinin bərbər və gözəllik sahəsində xidmətlər üzrə "ƏDV geri al" mexanizminin tətbiqi bu fəaliyyət sahələrinin şəffaflaşmasına mühüm töhfə verəcək", - deyə o vurğulayıb.

# Azərbaycan və NATO əməkdaşlıq gündəliyinin əsas aspektləri müzakirə edilib

Noyabrın 6-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan NATO nümayəndə heyəti ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nümayəndə heyətinə Türkiyə, Yunanıstan, Macarıstan, Monteneqro, Niderland, Şimali Makedoniya, Norveç, Slovakiya, Sloveniya, İsveç, Çex, Portuqaliya, İspaniyanın NATO-dakı daimi nümayəndələri, eləcə də ABŞ və Fransanın NATO-dakı daimi nümayəndələrinin müavinləri daxildir. Görüşdə Azərbaycan və NATO əməkdaşlıq gündəliyinin əsas aspektləri, habelə regional və beynəlxalq təhlükəsizlik məsələləri, Azərbaycan ilə Ermənistan arasında sülh prosesinin cari vəziyyəti və perspektivləri müzakirə olunub.



İşğal tarixi, postmünaqişə dövründə bölgədə mövcud təhlükəsizlik vəziyyətindən bəhs edən nazir Ceyhun Bayramov Vaşinqton Sammiti çərçivəsində əldə olunmuş razılıqlar və sülh perspektivləri, bölgədə nəqliyyat dəhlizləri üzrə planlar barədə səfirlərə məlumat verib. Bununla yanaşı, bölgədəki mina təhdidi diqqətə çatdırılıb.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Neft Daşları bu gün də dünyanı heyrətləndirməkdə davam edir

## Əfsanəvi mədən-şəhərin 76 yaşı tamam olur

**76 il əvvəl noyabrın 7-də "Neft Daşları"nda ilk quyu fontan vurdu. Özünün indiki, yəni daimi adını almazdan əvvəl bu bənzərsiz məkan "Qara daşlar", "Yeddi gəmi adası" kimi tanınıb. Sonralar isə Neft Daşlarını obrazlı şəkildə "Möcüzələr adası", "Dünyanın səkkizinci möcüzəsi", "Əfsanəvi şəhər" də adlandırıblar. Xəzərin qoynunda, polad dirəklər üstündə salınmış Neft Daşları əslində analoqu olmayan mədən-şəhərdir.**

Neft Daşlarına çox gözəl və mənalı adlar verilib. Azərbaycanın Xəzərdə yaratdığı bu əfsanə haqqında filmlər çəkilib, bədii əsərlər yazılıb, mahnılar bəstələnib. Bunların heç birinin doğru-dürüstlüyünü, məna dərinliyini və nəhayət, obrazlılığını danmadan deyək ki, Neft Daşlarını gərək öz gözlərinlə görəsən. Neft Daşları elə bir məkandır ki, onun haqqında qələmlə, fırça ilə təsəvvür yaratmaq çətindir. Təsadüfi deyil ki,Ümummilli Lider Heydər Əliyev Neft Daşlarına səfər edəndən sonra təəssüratını belə ifadə etmişdi: "Neft Daşlarında işləyən hər bir kəs ən böyük hörmətə layiq bir insandır. Orada işləməyən, oranı görməyən, oranı ziyarət etməyən insan bunu təsəvvür edə bilməz".

Yeri gəlmişkən, Ulu Öndər burada dəfələrlə olmuş, estakada və meydançaları gəzmiş, dənizin qoynunda hünər göstərən neftçilərlə görüşmüş, bir sözlə, Neft Daşlarını sevmiş, "Neft Daşları Azərbaycan neftçilərinin qəhrəmanlıq abidəsidir",- demişdi.

"Neft Daşları" yatağını Xəzərin sularından baş qaldıran çıxıntıların - qara daşların yaxınlığında müşahidə ediblər. Tarix bu yatağın "doğuluş"unu öz yaddaşında belə qoruyub saxlayır: "...1948-ci ildə 23 nəfərdən ibarət ilk dəniz neftçiləri dəstəsi birinci quyunun kəşfiyyatına başladı. Böyük neft təşkilatçısı Sabit Orucovun, geoloq Ağaqurban Əliyevin və qazma sahəsində zəngin təcrübəyə malik mühəndis Yusif Səfərovun təklifi ilə əlavə xərclərə yol verməmək və işçi qüvvəsinə qənaət etmək üçün Bakı gəmi təmiri zavodlarından istifadədən silinmiş 7 iritonnajlı gəmi gətirilərək "Qara daşlar"ın yanında basdırıldı. Süni buxta yaradıldı. Beləcə, buranı "Yeddi gəmi adası" deyə çağırmağa başladılar. Qəhrəmanlıq mücəssəməsi olan əfsanəvi "Yeddi gəmi adası" Xəzərin fatehlərini fırtınalardan qoruyan sığınacağa və dənizin dərin qatlarına nüfuz etmək üçün istinad nöqtəsinə çevrildi... Usta Mixail Kaveroçkinin başçılıq etdiyi qazmaçılar briqadasının 1 nömrəli quyudan götürdüyü nümunə 100 tona yaxın ilk neft fontanının yaxınlaşmasından xəbər verirdi. 1949-cu il noyabrın 7-də quyu fontan vurdu".

Neft Daşlarının sonrakı inkişafında Qurban Abasov, Nəsrulla Babayev, Solomon Qrobşteyn, Əhəd Yaqubov, Viktor Naqayev, Bəxtiyar Məmmədov, Fuad Səmədov, Bəhmən Hacıyev, Akif Cəfərov, Həzrət Xadikov, Mübarək Məmmədov, Xanoğlan Bayramov, Səyyad İbrahimov, Fərhad Həmzəyev, Əhməd Zeynalov, Xoşbəxt Yusifzadənin misilsiz əməyi olub. Ötən səkkiz onilliyə yaxın bir dövrdə Neft Daşlarında nəsillər dəyişsə də, ənənələr dəyişmir. Bu, Azərbaycan neftçilərinin qəhrəmanlıq ənənələridir.

"Neft Daşları" ilk növbədə karbohidrogenlərlə zəngin dəniz yatağıdır. Bu yataq Xəzər dənizinin akvatoriyasında, Abşeron neftli-qazlı rayonunda, Bakı şəhərindən 110, Pirallahı adasından 50 kilometrlik məsafədə yerləşir. Yataq "Neft Daşları" NQÇİ (Neft və Qazçıxarma İdarəsi) tərəfindən istismar olunur. 1951-ci ildən "Neft Daşları"nın, 1963-cü ildən isə "Palçıq Pilpiləsi"nin sənaye əhəmiyyətli işlənməsinə başlanıb. Həmin vaxtdan indiyədək bu yataqlardan fasiləsiz olaraq neft və qaz çıxarılır. "Neft Daşları" Neft və Qazçıxarma İdarəsində keçən il 1 milyon 160 min 465 ton neft hasil edilib. Bu, müstəqillik dövründə idarənin ən yüksək göstəricisidir. Neftçilərin builki hədəfi isə 1,2 milyon tondur.



Neft Daşlarının hər uğuru Xəzərin fırtınalı qoynunda ekstremal şəraitdə işləyən Azərbaycan neftçisinin fədakar əməyinin, ona hərtərəfli qayğısını getdikcə artıran Azərbaycan dövlətinin dəstəyinin nəticəsidir. Prezident İlham Əliyev dəfələrlə burada olub. Dövlət başçısının diqqət və qayğısı sayəsində "Möcüzələr adası" son illər xeyli abadlaşıb gözəlləşərək dünyanı təəccübləndirməkdə davam edir. Dəniz neftçilərinin məişət şəraitinin yaxşılaşdırılması istiqamətində əməli işlər görülüb.

Neft Daşlarını əfsanəyə bənzətsələr də, o, əsl həqiqətdir, işləyən, yaşayan, qurub-yaradan şəhərdir. Lakin Neft Daşları mədən-şəhərdir. Çünki burada məktəblər, uşaq bağçaları, ailələrin yaşadığı mənzillərdən ibarət evlər yoxdur. Beş və doqquzmərtəbəli yataqxanalar, yeməkxanalar, vertolyot meydançası, tibbi-sanitar hissə, mağazalar var. Bu şəhərdə yalnız neftçilər yaşayır, həm də təkcə əmək növbələri günlərində. Neftçilər dedikdə təkcə dənizin dərin qatlarından "qara qızıl"ı çıxaranlar deyil, böyük neftçi "ailə"sinin bütün üzvləri - geoloqlar, kəşfiyyatçılar, qazmaçılar, inşaatçılar, rabitəçilər, energetiklər, nəqliyyatçılar və xidmət sahələrində çalışanlar nəzərdə tutulur. Onlar "Neft Daşları" Neft və Qazçıxarma İdarəsinin, eləcə də neçə-neçə digər müəssisə və təşkilatın nümayəndələridir. Növbələşərək işləyirlər - bir həftə dənizdə, növbəti həftə quruda, ev-eşiklərində olurlar.

Son illər ərzində "Neft Daşları" və "Palçıq Pilpiləsi" yataqlarında onlarca stasionar dəniz özülü, geniş sahəsi olan estakadayanı meydançalar, estakadalar inşa edilib. Bütün qurğuların saz vəziyyətdə olması daim diqqət mərkəzindədir. Odur ki, mütəmadi olaraq yataqların ərazisində cari təmir işləri də həyata keçirilir.

Neft Daşlarının bir möcüzəsi də yamyaşıl parkları, gül-çiçəyi, ikimərtəbəli "Çay evi", idman zalıdır… Təsəvvür edək ki, bunların hamısı açıq dənizin qoynunda, polad meydançaların üstündədir.

Bu da bir həqiqətdir ki, vaxtilə Neft Daşları kəşf edilməsə, kim bilir, sonrakı yataqların "tale"yi necə olardı. Ulu Öndər Heydər Əliyevin təbirincə desək, Neft Daşları olmasaydı, nə "Azəri-Çıraq-Günəşli" olardı, nə də Bakı-Tbilisi-Ceyhan...

Təkcə "Azəri-Çıraq-Günəşli"mi?! 76 il əvvəl "Neft Daşları" yatağının kəşf edilməsi, ümumiyyətlə, dünyada dəniz nefti erasının başlanğıcını qoydu. Yalnız keçmiş SSRİ-ni əhatə edən Xəzərdə, Oxot, Barents dənizlərində, Qara dənizdə deyil, həm də dünyanın bütün dəniz və okeanlarında - Meksika körfəzində, Şimal dənizində axtarış-kəşfiyyat işlərinin inkişafına güclü təkan verdi. Hazırda dünya üzrə axtarış-kəşfiyyat işlərinin və karbohidrogen hasilatının əhəmiyyətli hissəsi dəniz akvatoriyalarının payına düşür. Okean və dəniz şelflərində işlərin miqyası sürətlə genişlənir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Milli Məclis komitələrinin birgə iclasında 2026-cı ilin dövlət büdcəsinin layihəsi müzakirə olunub

**Noyabrın 6-da Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya, Əmək və sosial siyasət, Səhiyyə, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitələrinin birgə iclası keçirilib.**



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədov iclası açaraq, tədbirdə "Azərbaycan Respublikasının 2026-cı ilin dövlət büdcəsi haqqında" qanun layihəsinin birinci oxunuşda müzakirəyə çıxarıldığını deyib.

Milli Məclis Sədrinin birinci müavini Konstitusiyamıza əsasən ölkənin və vətəndaşların təhlükəsizliyinin təmin edilməsinin, insanların rifahının yaxşılaşdırılmasının dövlətin ali məqsədlərindən olduğunu bildirib. Bununla yanaşı, Konstitusiyada dövlətin vəzifələrinin təsbit olunduğunu və onların həyata keçirilməsi üçün ölkə Prezidenti tərəfindən müəyyən edilmiş iqtisadi və sosial strategiyanın əks olunduğunu deyib. Eyni zamanda hazırda Böyük qayıdış proqramının reallaşdırılmasının mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb. O, 2026-cı ilin dövlət büdcəsinin layihəsində qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün lazımi iqtisadi və maliyyə əsaslarının təmin edildiyini söyləyib.

Əli Əhmədov beynəlxalq aləmdə gedən mürəkkəb proseslərin iqtisadi sahədə də müəyyən çağırışlar yaratdığını deyib. O, bütün bunlara baxmayaraq, Azərbaycanda iqtisadi və sosial sahələrdə uğurların əldə edildiyini bildirib. Ölkəmizin 2026-cı il üçün dövlət büdcəsinin həm gəlirlərində, həm xərclərində artımın müşahidə edildiyini, bu büdcənin də ənənəvi olaraq sosialyönümlü olduğunu qeyd edib. Növbəti ilin dövlət büdcəsində sosialyönümlü xərclərin xüsusi çəkisinin 41 faiz olduğunu deyib. Büdcənin həyatın bütün sahələrində qarşıda qoyulan vəzifələrin icrası üçün lazımi təminat yaratdığını bildirib.

İclasda maliyyə naziri Sahil Babayev "Azərbaycan Respublikasının 2026-cı ilin dövlət büdcəsi haqqında" qanun layihəsini təqdim edib. O bildirib ki, növbəti ilin büdcəsi hazırlanarkən makroiqtisadi və fiskal dayanıqlıq, monetar sabitlik prinsipləri, habelə ölkəmizin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin təmin edilməsi məsələləri əsas götürülüb. Bununla yanaşı, əhalinin sosial rifahının gücləndirilməsi istiqamətində tədbirlərin təmin edilməsi həm dövlət büdcəsi, həm də icmal büdcə çərçivəsində nəzərdə tutulub. Eyni zamanda Qarabağ və Şərgi Zəngəzur iqtisadi rayonlarının inkişafı, keçmiş məcburi köçkünlərin bu ərazilərə geri qayıtması üçün maliyyə təminatı yaradılıb. İqtisadiyyatın inkişafı, davamlı kapital qoyuluşunun təmin edilməsi, infrastrukturun daha da yaxşılaşdırılması üçün geniş təminat nəzərdə tutulub. Büdcə zərfi çərçivəsində, həmçinin özəl sektorun dəstəklənməsi, vergi yükünün optimallaşdırılması, iqtisadiyyatın müxtəlif istiqamətlərinə dəstək tədbirləri təklif olunur. Layihədə neft gəlirlərindən asılılığın azaldılması, ölkənin valyuta ehtiyatlarının qorunmasına yönəlmiş tədbirlər də öz əksini tapıb.

Nazir əsas makroiqtisadi göstəriciləri təqdim edərək bildirib ki, 2026-cı ildə ÜDM real ifadədə 2,9 faiz artaraq 134,1 milyard manat, o cümlədən qeyri-neft-qaz ÜDM-i 5,0 faiz artaraq 101,7 milyard manat təşkil edəcək. Xam neftin 1 barelinin orta illik ixrac qiyməti 65 ABŞ dollar, orta illik inflyasiya 4,8 faiz müəyyən edilib. 2026-cı il üçün dövlət borcunun proqnozunun ÜDM-də nisbəti 21,8 faiz olaraq qiymətləndirilir. Ölkənin strateji valyuta ehtiyatları 1 noyabr tarixinə 81,5 milyard ABŞ dolları həcmindədir. 2026-cı ildə Neft Fondunun gəlir və xərcləri balanslaşdırılıb və Neft Fondundan büdcəyə transfert 1 milyard ABŞ dolları həcmində azaldılıb. Ümumilikdə, dövlət büdcəsinin gəlirlərinin 57 faizi, icmal büdcənin gəlirlərinin 63 faizi qeyri-neft-qaz gəlirləri hesabına təmin edilib. İcmal büdcədə növbəti ildə qeyri-neft-qaz kəsirinin ÜDM-də nisbəti 19 faiz müəyyən edilib. Dövlət büdcəsinin cari xərclərinin 88 faizinin qeyri-neft-qaz gəlirləri hesabına qarşılanacağı planlaşdırılır.

Sahil Babayev büdcənin xərcləri ilə bağlı məlumat verərək bildirib ki, icmal büdcə xərcləri ÜDM-in 36 faizinə, qeyri-neft-qaz ÜDM-in 48 faizinə bərabər olacaq. Dövlət büdcəsinin 34 faizi investisiyayönümlü xərclərə yönəldilib. Ümumilikdə, icmal büdcənin xərcləri 48,8 milyard manat, dövlət büdcəsinin xərcləri isə 41,7 milyard manat olaraq proqnozlaşdırılır. Dövlət borcuna xidmətlə bağlı xərclər 2,5 milyard manat müəyyən edilib. Büdcənin müxtəlif istiqamətlər üzrə xərcləri barədə qeyd edilib ki, sosialyönlü xərclər 17,1 milyard manat, təhsil sahəsində xərclər 5 milyard manat, sosial müdafiə və sosial təminat xərcləri 4,9 milyard manat, səhiyyə xərcləri 2 milyard manat, icmal səhiyyə xərcləri 3,7 milyard manat, ölkənin müdafiə və milli təhlükəsizliyi ilə bağlı xərcləri 8,7 milyard manat, iqtisadi fəaliyyət xərclərinə 7,9 milyard manat, kənd təsərrüfatı xərcləri 1,2 milyard manat, ətraf mühitin və təbiətin mühafizəsi üzrə xərclər 420 milyon manat, beynəlxalq fəaliyyətlə bağlı xərclər 550 milyon manat məbləğində müəyyən edilib.

Büdcə gəlirləri ilə əlaqədar qeyd olunub ki, 2026-cı ildə icmal büdcənin gəlirləri 45 milyard manat, dövlət büdcəsinin gəlirləri isə 38,6 milyard manat təşkil edəcək. O cümlədən qeyri-neft-qaz sektoru üzrə gəlirlər 22,2 milyard manat, neft-qaz sektoru üzrə gəlirlər 16,4 milyard manat, Dövlət Vergi Xidmətindən daxilolmalar 16,9 milyard manat, Dövlət Gömrük Komitəsi vasitəsilə daxilolmalar 6,9 milyard manat, büdcə təşkilatlarının ödənişli xidmətləri üzrə gəlirlər 1 milyard 21 milyon manat, sair gəlirlər 531 milyon manat, Dövlət Neft Şirkətinin dividendlərindən isə 450 milyon manat gəlir proqnozlaşdırılır. Dövlət büdcəsi kəsirinin yuxarı həddi 3,1 milyard manat məbləğində qiymətləndirilir.

Nazir bildirib ki, 2026-cı ilin icmal büdcəsində Dövlət Neft Fondunun gəlir və xərcləri 13 milyard manat məbləğində proqnozlaşdırılır. Naxçıvan Muxtar Respublikasının gəlir və xərcləri 483 milyon manat məbləğində müəyyən olunub.

O, dövlət büdcəsinin və icmal büdcənin 2026-cı il və 2026-2029-cu illər üzrə təqdim edilmiş layihəsinin ölkənin növbəti ildə və ortamüddətli dövrdə dayanıqlı inkişafı üçün lazımi təminatlar yaratdığını bildirib.

İclasda çıxış edən iqtisadiyyat nazirinin müavini Anar Axundov vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən islahatlar sayəsində Azərbaycan sabit və dayanıqlı iqtisadiyyatı, eləcə də böyük maliyyə resursları olan, mühüm geosiyasi və geoiqtisadi mövqe tutan, qlobal enerji təhlükəsizliyinin təminatında strateji rol oynayan dövlətə çevrilib. Qeyd edilib ki, ölkəmizdə əlverişli biznes mühitinin formalaşdırılması, sahibkarların dəstəklənməsi və əmək münasibətlərinin rəsmiləşdirilməsi istiqamətində mühüm islahatlar həyata keçirilir.

Nazir müavini bildirib ki, 2025-ci ilin gözlənilən artım tempi nəzərə alınmaqla 2022-2025-ci illərdə orta illik hesabla ÜDM-in 3,3 faiz artması gözlənilir. ÜDM-in artımı tamamilə qeyri-neft-qaz sektorunun inkişafı hesabına təmin olunmaqla, bu sektor üzrə ÜDM-in orta illik artımının 6,1 faiz olacağı nəzərdə tutulur. Qeyri-neft-qaz sektorunda iqtisadi artımın 2,9 faiz təşkil etməsi nəticəsində ümumi iqtisadi artım 1,3 faiz olub. ÜDM-in növbəti ildə 2,9 faiz, 2026-2029-cu illərdə orta illik hesabla 3,5 faiz, qeyri-neft-qaz ÜDM-nin növbəti və ortamüddətli dövrdə isə orta illik hesabla 5 faiz ətrafında artacağı proqnozlaşdırılır.

Anar Axundov nəzərə çatdırıb ki, dövlət başçısının müvafiq sərəncamına əsasən, "Azərbaycan Respublikasının 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası" və "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramı"nın hazırlanması istiqamətdə intensiv işlər görülür. Bu sənədlərin reallaşması ölkə iqtisadiyyatının mənzərəsində əhəmiyyətli dəyişikliklərə səbəb olacaq, xüsusilə prioritet sahələrdə iqtisadi artım templəri sürətlənəcək, iqtisadi artımın və məşğulluğun dayanıqlığı daha da artacaq.

Tədbirdə Hesablama Palatasının sədri Vüqar Gülməmmədov Azərbaycan Respublikasının 2026-ci il üçün dövlət büdcəsi layihəsinə dair Palatanın rəyini açıqlayıb. O bildirib ki, rəy 2026-cı il üçün dövlət büdcəsinə dair qanun layihəsinin və layihə ilə birlikdə hazırlanan və təqdim olunan aidiyyəti sənədlərin mövcud qanunvericilik aktlarına uyğunluğu, nəzərdə tutulmuş dövlət büdcəsinin gəlirləri və xərcləri, büdcə kəsirinin proqnoz göstəricilərinin düzgünlüyü və tamlığı, həmçinin bu göstəricilərin makroiqtisadi parametrlərə və ölkənin strateji sənədlərinə uyğunluğu barədə kənar dövlət maliyyə nəzarəti orqanının mövqeyini ifadə edir. Nəzərə çatdırılıb ki, dövlət maliyyəsinin idarə edilməsinin təkmilləşdirilməsi, beynəlxalq təcrübəyə uyğunluğunun təmin olunması dövlət büdcəsinin gəlir və xərclərinin düzgün uçotunun aparılması istiqamətində Hesablama Palatasının əvvəlki rəylərində göstərilmiş əksər məsələlər büdcə zərfində nəzərə alınıb, habelə bəzi düzəlişlər edilib. Qanun layihəsinin "Büdcə sistemi haqqında" qanunun tələblərinə uyğun tərtib edildiyi qeyd olunub.

Palata sədri təqdim olunan rəydə qanun layihəsinə daxil edilən göstəricilərin maddələr üzrə təhlil edildiyini, bəzi maddələr üzrə təkmilləşdirmələrin aparılmasının məqsədəmüvafiq hesab olunduğunu, bununla yanaşı, sənədin hazırlanması zamanı Hesablama Palatasının tövsiyələrinin nəzərə alındığını bildirib. O qeyd edib ki, 2026-cı ilin baza ssenarisində olan proqnoza əsasən, ölkə iqtisadiyyatında əlverişli makroiqtisadi mühitin müşahidə ediləcəyi, o cümlədən iqtisadiyyatda real artımın, məqbul inflyasiyanın, cari əməliyyatlar balansında profisitin və sabit məzənnənin təmin ediləcəyi gözlənilir.

Vüqar Gülməmmədov 2026-cı ilin büdcəsinə dair fiskal risklər, dövlət və icmal büdcələrin gəlir və xərclərinin təhlili, dövlət büdcəsinin kəsiri və kəsirin maliyyələşdirilməsinin təhlili üzrə əsas nəticələr, ortamüddətli büdcə planlaşdırılması ilə bağlı qeydlərini açıqlayıb, palatanın tövsiyələrini nəzərə çatdırıb.

İclasda əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev çıxış edərək vurğulayıb ki, Azərbaycan Prezidenti tərəfindən müəyyən edilən siyasətə uyğun olaraq, əhalinin sosial rifahının yaxşılaşdırılması, sosial müdafiəsinin gücləndirilməsi, hər bir vətəndaşımıza layiqli həyat səviyyəsinin təmin edilməsi məqsədi ilə geniş islahatlar proqramı həyata keçirilir. Nəzərə çatdırılıb ki, son 7 ildə ölkədə 5 sosial islahat zərfi icra edilib və bu islahatların illik maliyyə tutumu 7,6 milyard manat təşkil edib. Cari ildə 5-ci sosial islahat zərfi çərçivəsində minimum əməkhaqqı, minimum pensiya, habelə sosial müavinətlərin, Azərbaycan Prezidentinin təqaüdlərinin, tələbə təqaüdlərinin məbləğləri, hərbi qulluqçuların aylıq vəzifə maaşları artırılıb. Ümumilikdə 5-ci sosial islahat paketi 1,9 milyon vətəndaşımızı əhatə etməklə, illik əlavə maliyyə tutumu 885 milyon manat təşkil edib.

Bildirilib ki, növbəti ilin dövlət büdcəsində sosialyönlü xərclər 2025-ci illə müqayisədə 236 milyon manat çox olmaqla 17 milyard 146 milyon manat təşkil edəcək. Sosialyönlü xərclərin dövlət büdcəsində xüsusi çəkisi 41,1 faiz nəzərdə tutulur. 2026-cı ilin dövlət büdcəsində sosial müdafiə və sosial təminat xərclərinin 4 milyard 873 milyon manat həcmində olması proqnozlaşdırılır. Nazirliyin fəaliyyət istiqamətləri üzrə isə gələn il 4 milyard 537 milyon manatın ayrılması nəzərdə tutulur və bu vəsaitin 98 faizi əhaliyə ödənişlərə sərf ediləcək.

Sonra nazir Dövlət Sosial Müdafiə Fondunun büdcəsi barədə məlumatında bildirib ki, fondun 2026-cı il üçün gəlirləri 8 milyard 323 milyon manat proqnozlaşdırılır. Fondun növbəti il üçün xərcləri isə 8 milyard 483 milyon manat həcmində nəzərdə tutulub və bunun 96,6 faizi və ya 8 milyard 196 milyon manatı əhaliyə ödənişlərin payına düşür. 2026-cı il üzrə əmək pensiyalarının maliyyələşdirilməsi üçün ayrılan vəsait 2025-ci ilin təsdiqlənmiş xərcləri ilə müqayisədə 782,4 milyon manat və ya 10,9 faiz artımla nəzərdə tutulub.

Qeyd olunub ki, İşsizlikdən Sığorta Fondunun 2026-cı il üzrə gəlirləri 238,3 milyon manat həcmində nəzərdə tutulub. Gəlirlərin 236,6 manatı və ya 99,3 faizi işsizlikdən sığorta haqlarından yığım hesabına formalaşacaq. Sığorta haqları üzrə yığımın 78 faizi qeyri-büdcə sektorunun payına düşəcək. Fondun növbəti il üçün xərclərinin 266,4 milyon manat həcmində olacağı proqnozlaşdırılır. Xərclərin 77 milyon manatı özünüməşğulluq proqramının təşkilinə, 26 milyon manatı peşə hazırlığının və əlavə təhsilin təşkilinə, 28 milyon manatı işsizliyə görə sığorta ödənişlərinə, 1,5 milyon manatı peşəyönümlü məsləhət xidmətlərinin göstərilməsinə, 3,7 milyon manatı haqqı ödənilən ictimai işlərin təşkilinə, 1 milyon manatı peşə standartlarının hazırlanmasına, 6 milyon manatı sosial iş yerlərində əməkhaqqının maliyyələşdirilməsinə, 2 milyon manatı sosial müəssisələrin yaradılmasına və məqsədli proqramların həyata keçirilməsinə, 1 milyon manatı isə digər aktiv məşğulluq tədbirlərinə yönəldiləcək. Ümumilikdə, 2026-cı ildə fondun vəsaiti hesabına 450 minə yaxın şəxsin aktiv məşğulluq tədbirlərinə cəlb olunması gözlənilir.

Daha sonra səhiyyə naziri Teymur Musayev çıxış edib. O qeyd edib ki, həyata keçirilən dövlət siyasətinin əsas məqsədi vətəndaşların sosial rifahının yüksəldilməsidir. Nazir vurğulayıb ki, sağlam vətəndaşlar ölkənin sosial-iqtisadi inkişafında mühüm rol oynayırlar. Bu məqsədlə səhiyyə sektoruna ayrılan büdcə vəsaitləri ildən-ilə artır, səhiyyə infrastrukturu yenilənir və müasir çağırışlara uyğunlaşdırılır.

Bildirilib ki, 2026-cı ilin dövlət büdcəsində səhiyyə bölməsi üzrə xərclər ümumi büdcə xərclərinin 4,9 faizini təşkil edir. O cümlədən 2026-cı il üçün Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə 274,5 milyon manat vəsait ayrılması nəzərdə tutulub.

Nazir bildirib ki, 2026-cı ildə beş dövlət proqramı çərçivəsində Səhiyyə Nazirliyinə 91,1 milyon manat vəsait ayrılması planlaşdırılır. Qeyd olunub ki, "2023-2027-ci illər üzrə uşaqlar arasında yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Proqramı" üzrə maliyyələşmə əvvəlki illə müqayisədə 6 milyon manat və ya 21,1 faiz artmışdır.

Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə əsasən, uşaqların ən azı 90 faizinin peyvəndlə əhatə olunması hər bir ölkənin əsas səhiyyə göstəricilərindən biri sayılır. 2026-cı ilin sonunda ölkəmizdə bu göstəricinin 95 faizə çatdırılması nəzərdə tutulur.

İclasda çıxış edən Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov səhiyyə, sosial, xarici siyasət və ekologiya sahələrinə ayrılan vəsaitlərin həcminin artırılmasını ölkəmizdə aparılan uğurlu iqtisadi siyasətin nəticəsi kimi dəyərləndiriblər. Komitə sədrləri icbari tibbi sığortanın əhatə etdiyi müalicə, tibbi əməliyyat və dərman vasitələrinin sayının artırılması, Azərbaycanın sosial siyasət və xarici siyasət sahəsindəki uğurları, xarici ölkələrdəki diplomatik nümayəndəliklərimizin fəaliyyəti, ölkəmizdə "yaşıl iqtisadiyyat"ın inkişaf etdirilməsi, meşə fondunun idarə olunması, bioloji müxtəlifliyin qorunması və digər məsələlərlə bağlı fikirlərini bildiriblər, qeyd və təkliflərini səsləndiriblər.

Qanun layihəsinin müzakirəsi zamanı çıxış edən Milli Məclisin deputatları Nigar Məmmədova, İlham Məmmədov, Soltan Məmmədov, Məlahət İbrahimqızı, Rəşad Mahmudov, Asim Mollazadə, Müşfiq Məmmədli, Vüqar Rəhimzadə, Asif Əsgərov, Rövşən Muradov, Naqif Həmzəyev, Jalə Əliyeva, Sevil Mikayılova, Pərvanə Vəliyeva, Elman Nəsirov və Nəsib Məhəməliyev 2026-cı ilin dövlət büdcəsindəki artımları yüksək qiymətləndiriblər, bir sıra məsələlər barədə təkliflərini diqqətə çatdırıblar.

Sonra maliyyə naziri Sahil Babayev deputatların qaldırdıqları məsələlərə aydınlıq gətirib, onların suallarını cavablandırıb.

İclasda iştirak edən İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev deputatların səsləndirdikləri fikirlərə münasibət bildirib, onların suallarını cavablandırıb. Zaur Əliyev ölkəmizdə ilkin səhiyyə xidmətinin inkişafı sahəsində görülən işlər, həyata keçirilən pilot layihələr, kəndlərdə tibb məntəqələrinin yenidən qurulması sahəsindəki tədbirlər, kadr təminatının tənzimlənməsi və digər məsələlər barədə iclas iştirakçılarına məlumat verib.

Səhiyyə naziri Teymur Musayev iclasda səhiyyə sahəsi ilə bağlı qaldırılan məsələlərə münasibətini açıqlayıb.

Tədbirə yekun vuran Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədov iclasda 2026-cı ilin dövlət büdcəsinin geniş müzakirə olunduğunu və büdcə layihəsi barədə dəyərli fikirlər səsləndirildiyini diqqətə çatdırıb.

İclasın sonunda "Azərbaycan Respublikasının 2026-cı ilin dövlət büdcəsi haqqında" qanun layihəsi Milli Məclisin plenar iclasında birinci oxunuşda müzakirəyə tövsiyə olunub.

***"Azərbaycan"***

# Vergi siyasətində iqtisadi stimullaşdırıcı mexanizmlərin gücləndirilməsi prioritet istiqamətlərdən biridir

**Noyabrın 6-da Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitənin sədri Azər Əmiraslanov bildirib ki, iclasda Vergi Məcəlləsində, "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında", "Sosial sığorta haqqında", "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında", "Məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında", "Tibbi sığorta haqqında", "Dövlət rüsumu haqqında", "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət orqanı əməkdaşlarının dövlət icbari şəxsi sığortası haqqında", "Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında", "Sığorta fəaliyyəti haqqında", "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında", "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Gömrük tarifi haqqında", "Nağdsız hesablaşmalar haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) müzakirə olunacaq.

O qeyd edib ki, büdcə zərfinə daxil olan bu qanun layihəsi əsasən vergi güzəştləri ilə bağlıdır. Komitə sədri qanun layihəsində təklif olunan dəyişikliklərin əhəmiyyətindən söz açıb, onların büdcəyə təsiri ilə bağlı fikirlərini bildirib. Azər Əmiraslanov vurğulayıb ki, dəyişikliklər sahibkarlığı və iqtisadi inkişafı stimullaşdırmaq xarakteri daşıyır. Onun sözlərinə görə vergi siyasəti iqtisadiyyatın tənzimlənməsinin ən çevik alətidir və ölkəmizdə vergi siyasətində güzəşt və azadolmalar müəyyən edilərkən heç bir ayrı-seçkiliyə yol verilmir. Komitə sədrinin sözlərinə görə, vergi-gömrük güzəştlərinin əsas benefisiarı dövlət müəssisələri deyil, məhz özəl sektordur. Həyata keçirilən vergi və gömrük siyasəti fiskal xarakterdən daha çox iqtisadi tənzimləmə funksiyasına malikdir. Vurğulanıb ki, ölkəmizdə 2025-ci ilin məlumatlarına əsasən, vergi-gömrük güzəşt və azadolmaları 7,7 milyard. manat təşkil edir. Bu, 2025-ci ilin proqnozlaşdırılan büdcə gəlirlərinin təxminən 20 faizini təşkil edir.

İclasda çıxış edən maliyyə nazirinin müavini Azər Bayramov bildirib ki, 2026-cı ilin büdcə-vergi siyasəti çərçivəsində hazırlanmış dəyişikliklər ölkənin iqtisadi inkişafını sürətləndirmək, kölgə iqtisadiyyatı ilə mübarizə tədbirlərini gücləndirmək, daxili bazarı qorumaq və idxaldan asılılığı azaltmaq, strateji sahələrə investisiyaların təşviqi və inzibatçılığın təkmilləşdirilməsi kimi addımları nəzərdə tutur. O deyib ki, Vergi Məcəlləsinə təkliflər əsasən iqtisadiyyatı stimullaşdırmaq, sahibkarlığa dəstək və şəffaflığın artırılması tədbirlərini əhatə edir.

Nazir müavini bu günə qədər tətbiq olunan vergi güzəştləri və digər azadolmalar barədə danışaraq, onların iqtisadi effektivliyi ilə bağlı fikirlərini bölüşüb və əldə olunan nəticələri diqqətə çatdırıb. Qeyd olunub ki, hazırkı büdcə zərfində də sahibkarlıq və investisiya mühitini stimullaşdıran amillərə, eləcə də mövcud güzəştlərin davam etdirilməsinə xüsusi diqqət yetirilir.

Azər Bayramovun sözlərinə görə, Azərbaycanda qeyri-neft sektorunda və özəl sektorda tətbiq olunan vergi yükü regionda ən aşağı səviyyədədir. Bu, sahibkarlıq fəaliyyətinin genişlənməsinə və iqtisadi fəallığın artmasına imkan yaradır. O əlavə edib ki, ölkənin vergi siyasətində inzibati amillərin rolunun azaldılması, əvəzində iqtisadi stimullaşdırıcı mexanizmlərin gücləndirilməsi prioritet istiqamətlərdən biridir. Bu yanaşma gələn ilin büdcə zərfində öz əksini tapıb.

Vurğulanıb ki, son illərin əsas stimullaşdırıcı istiqamətlərindən biri nağdsız ödənişlərin təşviqidir. Artıq bir neçə ildir "ƏDV geri al" sistemi uğurla tətbiq olunur və bu sistemin nəticəsində daxilolmaların artım tempi yüksəlib. Bu tendensiyanın növbəti ildə də davam etməsi və sistemin əhatə dairəsinin genişləndirilməsi nəzərdə tutulur.

Sonra Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərli layihədə Vergi Məcəlləsinə təklif olunan dəyişikliklər barədə ümumi məlumat verib. O, Vergi Məcəlləsinə təklif olunan dəyişiklikləri ölkəmizin iqtisadi siyasətində həyata keçirilən islahatların növbəti mərhələsi kimi dəyərləndirib. Qeyd olunub ki, dəyişikliklər həm vergi inzibatçılığının sadələşdirilməsini, həm də sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasını hədəfləyir. Qlobal trendlər, rəqəmsal transformasiya və fiskal siyasətin dayanıqlılıq prinsipləri nəzərə alınmaqla hazırlanan bu təkliflər, vergi ödəyicilərinin yükünün optimallaşdırılmasına və dövlət gəlirlərinin sabitliyinin təmin edilməsinə xidmət edir.

Orxan Nəzərli diqqətə çatdırıb ki, dəyişikliklər paketi 2026-cı ildən etibarən tətbiqi nəzərdə tutulan büdcə-fiskal çərçivə ilə uzlaşdırılıb. Təkliflərdə muzdlu iş üzrə mövcud vergi güzəştlərinin 2026-cı ildən sonrakı dövrə tənzimlənməsi, aksiz siyasətinin beynəlxalq tələblərə uyğunlaşdırılması, yerli avtomobil istehsalının təşviqi, idxaldan asılılığın azaldılması və daxili bazarın qorunması, vergi nəzarətinin və şəffaflığın artırılması, eləcə də qanunsuz sahibkarlıqla mübarizənin gücləndirilməsi kimi məsələlər öz əksini tapıb. Orxan Nəzərli təklif olunan dəyişikliklərin mahiyyəti barədə danışıb, onların gözlənilən nəticələri və təsirlərini diqqətə çatdırıb.

Sonra Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Vergi Siyasəti Baş İdarəsinin rəisi Nicat İmanov Vergi Məcəlləsinə təklif olunan dəyişikliklər paketi barədə slaydlar əsasında təqdimat edib.

Layihənin hüquqi əsaslarından söz açan baş idarə rəisi təklif olunan 45 maddə üzrə 145 dəyişiklik təklifinin 3 əsas istiqaməti - investisiya və sahibkarlığın təşviqi, büdcə gəlirlərinin tənzimlənməsi, vergi nəzarətinin təkmilləşdirilməsi barədə məlumat verib. O, sahələrin hər biri üzrə ayrı-ayrılıqda nəzərdə tutulan vergi və sosial güzəştlər, müddəti uzadılan güzəştlər, nağdsız dövriyyə, kənd təsərrüfatı və balıqçılıq üzrə vergi güzəştləri, fərdi sahibkarların sosial sığorta yükünün, aksizlər üzrə büdcə gəlirlərinin tənzimlənməsi kimi məsələlərlə bağlı təklif olunan dəyişikliklərin detallarını nəzərə çatdırıb.

Müzakirələrdə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini Azər Badamov, üzvləri Ziyad Səmədzadə, Əli Məsimli, Tahir Mirkişili, Əlibala Məhərrəmzadə, Aydın Hüseynov, Vüqar Bayramov çıxış ediblər, fikirlərini və bəzi qeydlərini bildiriblər.

Maliyyə nazirinin müavini Azər Bayramov və Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərli çıxışlarda qaldırılan məsələlərə aydınlıq gətiriblər.

Müzakirələrin sonunda qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***"Azərbaycan"***



# AZƏRBAYCANIN ŞƏRƏF VƏ QÜRUR TARİXİ

## ŞANLI ZƏFƏR - 5 İL

# Xalqımız tarixi qələbə ilə hər zaman öyünəcək

2020-ci ilin payızında şanlı Azərbaycan Ordusu Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin sərkərdəliyi altında 44 gün davam edən Vətən müharibəsində 30 ilə yaxın erməni işğalında qalmış torpaqlarımızı azad etdi. Bir an olsun belə sengiməyən döyüşlərdə zabit və əsgərlərimiz misilsiz qəhrəmanlıq göstərdilər. Düşmən üzərində qazanılan bu tarixi qələbə xalqımızın milli iradəsinin, sarsılmaz birliyinin, ordumuzun gücünün, daim inkişaf edən iqtisadiyyatının, dövlətimizin baçısının siyasi uzaqgörənliyinin təntənəsidir. Tariximizin səhifələrində dərin iz qoymuş Zəfər Günü Azərbaycan dövlətinin və xalqının birlik rəmzinə çevrildi.

İkinci Qarabağ müharibəsində əldə olunan qələbə nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa olundu. Bununla da beynəlxalq hüququn tələbləri reallaşdı və illərlə davam edən ədalətsizliyə, haqsızlığa son qoyuldu. Xalqımızın biri-birindən cəsur oğulları döyüş meydanlarında göstərdikləri igidlikləri ilə erməni qəsbkarlarını məğlubiyyətə uğradıb, tarixi ədaləti bərpa etdilər.

Xoş anlar yaşadığımız bu günlərdə hər bir azərbaycanlı qalib xalqın nümayəndəsi olduğundan qürur duyur, iftixar hissləri keçirir. Erməni qəsbkarları üzərində qazanılan tarixi Zəfərdən beş il keçir. Amma tariximizin şərəfli səhifəsi keçmişdə qalmayıb. Zəfər Günü həm dünənki, həm bugünkü, həm də gələcək nəsillər üçün əbədi-əzəli vətənpərvərlik, fədakarlıq və qəhrəmanlıq nümunəsi olaraq qalacaq. Azərbaycan xalqı gələcək bütün zamanlarda bu şanlı və iftixar dolu Zəfərlə fəxr edəcək, qürur duyacaq.

27 sentyabr 2020-ci ildə erməni işğalçılarının təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başlayan kimi ürəyi Vətən eşqi ilə döyünən oğullar çağırış gözləmədən döyüşlərə yollandılar. Qələbə əzmi, Zəfər ovqatı ilə Vətən torpaqlarının azadlığı uğrunda gedən döyüşlərə qoşuldular. Rəşadətli Azərbaycan Ordusunun qəhrəman zabit və əsgərləri düşməni geri sıxışdırıb irəlilədikcə, xalq arxa cəbhədə əzm və fədakarlıq nümayiş etdirməyə başladı. 44 günlük Vətən müharibəsinin davam etdiyi günlərdə həkimlər, gənclər, qadınlar, jurnalistlər - bir sözlə, hamı bu müqəddəs mübarizədə biri-birinə dayaq durdu. Torpaqlarımızın erməni işğalçılarından azad olunması naminə hamı üzləşdiyi çətinliyə mərdliklə sinə gərdi. Azərbaycan xalqı çalışdı ki, sıralarında övladlarının döyüşdüyü ordu müharibədə erməni işğalçılarına qalib gəlsin, uzun illərdən bəri düşmənin əlində qalmış torpaqlarını azad etsin. Yurdun azadlığı uğrunda mübarizəyə qalxmış Azərbaycan xalqı sonda məqsədinə, amalına çatdı, düşmənin başını əzərək qalib gəldi.

Rəşadətli Azərbaycan Ordusu sentyabrın 27-də düşmən hücumlarını dəf etdikdən sonra torpaqlarımızın azadlığı uğrunda başladığı uğurlu əks-hücum əməliyyatı zamanı 44 gün ərzində 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik işğalçılardan təmizləndi.

Vətən müharibəsinin davam etdiyi günlərdə döyüş təkcə ön cəbhədə deyil, həm də informasiya məkanında aparılırdı. Müharibə başlayar-başlamaz Ermənistan illərcə əvvəl yaratdığı saxta təbliğat maşınını işə saldı. Azərbaycan əleyhinə yalanlar püskürməyə başladı. Amma bu dəfə ermənilərin planları baş tutmadı, iflasa uğradı. Xaricdə yaşayan soydaşlarımız Prezident İlham Əliyevin siyasətinə uyğun olaraq, Azərbaycanın haqq işi uğrunda fəal mövqe nümayiş etdirdilər. Real vəziyyəti, müharibədə kimin haqlı, kimin haqsız olduğunu beynəlxalq aləmə çatdırdılar. Aparılan uğurlu təbliğat nəticəsində dünya Azərbaycanın haqlı tərəf olduğunu dəqiqləşdirdi. Soydaşlarımızın apardıqları təbliğat işi bir daha göstərdi ki, Azərbaycan xalqı təkcə bir coğrafi məkanla məhdudlaşmır - o həm də bütün dünyada yaşayan və öz sözünü deyə bilən böyük qüvvədir. Zəfərdən sonra xalqımızın birliyi və həmrəyliyi daha da möhkəmləndi. Buna görə də inamla demək olar ki, Zəfər Günü həm də insanlarımızın yaddaşında birlik, mübarizə və qürur rəmzi kimi əbədi olaraq qalacaq. Həmişə də iftixarla, qürurla xatırlanacaq.



Dünyada yaşayan bütün xalqların tarixində əlamətdar, müqəddəs günləri olur. Belə əlamətdar günlər heç vaxt unudulmur, daim qürurla, iftixarla yad edilir. Çünki həmin günlər yalnız bir dövrün deyil, bütöv bir millətin tarixini, dünənini, bu gününü və sabahını dəyişdirir. Nə xoşbəxtik ki, Azərbaycan xalqının taleyində bu cür günlər çoxdur. Belə əlamətdar günlərdən biri də 2020-ci ilin 8 noyabrında düşmən üzərində qazanılmış qələbənin şərəfinə təntənə ilə qeyd olunan Zəfər Günüdür. Bu gün Azərbaycan xalqının qürur, şərəf və iftixar tarixidir. İkinci Qarabağ müharibəsində əldə olunmuş böyük Qələbənin rəmzidir. Torpaqlarımızın azadlığı uğrunda erməni işğalçılarına qarşı 44 gün davam edən və Zəfərimizlə başa çatan müharibə Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyini, müdrikliyini, dövlətimizin gücünü, ordumuzun qüdrətini, xalqımızın sarsılmaz gücünü, birliyini və iradəsini dünyaya göstərdi. Otuz ilə yaxın davam edən işğalın, sarsıntıların, danışıqların sonunda Azərbaycan xalqı öz tarixi torpaqlarını gücü, qüdrəti və qəhrəmanlığı ilə azad etdi. Vətən müharibəsi dövründə Azərbaycan xalqı misilsiz birlik nümayiş etdirdi. Prezident İlham Əliyev hələ müharibədən əvvəlki çıxışlarında bu amili xüsusi olaraq qeyd edərək demişdir: "Biz güclü dövlət, güclü ordu, vətənpərvər xalq sayəsində istənilən hədəfə çata bilərik". Dövlətimizin başçısının çox böyük uzaqgörənliklə söylədiyi bu dəyərli sözlər 2020-ci ilin payızında Zəfərimizlə öz təsdiqini tapdı.

Ümummilli Lider Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə gəldikdən sonra Azərbaycan xalqına çağırış edərək bildirdi ki, müstəqilliyimizi və suverenliyimizi daimi etmək üçün harada yaşamasından asılı olmayaraq, bütün dünya azərbaycanlıları bir amal - azərbaycançılıq ideologiyası ətrafında sıx birləşməlidir. Bundan sonra dünya azərbaycanlılarının birliyinin təmin edilməsi, diaspor quruculuğu dövlət siyasətimizin əsasına çevrildi. Son 22 ildə Prezident İlham Əliyev bu istiqamətdə də Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirir, birliyimizi, həmrəyliyimizi daha da möhkəmləndirir. Ölkəmizdə yaşayan azsaylı xalqların nümayəndələri də 44 günlük Vətən müharibəsində erməni işğalçılarına qarşı cəsarətlə vuruşaraq böyük igidlik və qəhrəmanlıqlar göstərdilər. İkinci Qarabağ müharibəsinin davam etdiyi, şəhər və kəndlərimizin erməni işğalçılarından azad edildiyi günlərdə etnik və dini mənsubiyyətindən asılı olmayaraq, ölkəmizin bütün vətəndaşları həm ön, həm də arxa cəbhədə sarsılmaz birlik və yüksək həmrəylik nümayiş etdirdilər.

İkinci Qarabağ müharibəsi başa çatan kimi dərhal azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və quruculuq işlərinə başlanıldı. Bu gün Qarabağ, Şərqi Zəngəzur yenidən qurulur, dirçəlir. Qısa müddət ərzində Zəfər yolu tikilib istifadəyə verildi. Biri-birinin ardınca Qarabağın və Şərqi Zəngəzurun hava qapıları dünyanın üzünə açıldı. Füzuli, Zəngilan və Laçın Beynəlxalq Hava limanlarının qısa müddətdə istifadəyə verilməsi həm bu ərazilərin strateji əhəmiyyətini, həm də ölkəmizin iqtisadi qüdrətini və gücünü dünyaya göstərdi. Böyük qayıdış proqramının I mərhələsinin başa çatacağı 2026-cı ilədək 140 min keçmiş məcburi köçkünün öz doğma yurduna qayıdışı nəzərdə tutulub.

Zaman hiss olunmadan ötüb keçir. Artıq tarixi Zəfərimizin beş ili tamam olur. Rəşadətli Azərbaycan Ordusu Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin sərkərdəliyi altında 2020-ci ilin payızında, 44 gün ərzində erməni işğalçılarını məğlub edərək, Azərbaycan xalqına Zəfər sevinci yaşatdı, regiona sülh gətirdi. Şanlı Azərbaycan Ordusu ərazilərimizlə yanaşı, tarixi və milli kimliyimizi də, qürurumuzu da özümüzə qaytardı. İkinci Qarabağ müharibəsində qazanılan qələbəmiz tarixin səhifələrinə böyük hərflərlə yazıldı. Bu şanlı tarixlə, bu şanlı Zəfərlə Azərbaycan xalqı bütün zamanlarda fəxr edəcək.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Zəfər mənə 30 illik müharibədə itirdiyim gəncliyimi qaytardı

30 il düşmənlə üz-üzə, göz-gözə yaşayıb ona gözdağı olan Tərtərdənəm. Top-tüfəng səsləri altında övlad böyüdən anayam. Müharibənin ətrafa necə ölüm saçdığının, necə əlillik payladığının şahidiyəm. Zəfər tariximizin hər sətri, hər səhifəsi gözlərimiz önündə yazılıb.

Oğlunun başsız bədənini qucaqlayan atanı, qazinin əlini, ayağını özü kəfənlədiyini görmüşəm. Balasının cəsədinin tapılmasına qurban deyən anaların axan göz yaşlarını, sevdiyinin şəkli ilə uyuyan qız-gəlinlərin gizli kədərini heç vaxt unutmaram. Şəhid məzarlarını qucaqlayıb ağlayan analara baxıb itkin düşən oğulların analarının köks ötürdüyünü, "kaş mənim balamın da bir məzarı olaydı" deməsini eşitmişəm.

Mən tərtərliyəm, gəncliyini müharibə alan, vaxtından tez ahıllaşan tərtərli. Zəfər gününü 30 il gözləyən, bu günə ürəkdən inanan tərtərli. 2016-cı ilin Aprel döyüşlərini, Zəfər tariximizin ilk bünövrəsinin qoyulduğu günü yaddan çıxarmaram. Tərtərin və tərtərlilərin dar günündə təmas xəttinin 200 metrliyində yerləşən Qapanlı kəndində özünün və həyat yoldaşının həyatını riskə ataraq əhali ilə görüşə gələn Ali Baş Komandanın bu addımını qürurla xatırlayıram. Xalq ilə rəhbərin, ordunun birliyi yazdı Zəfər tariximizi. Bu birlik və Ali Baş Komandan İlham Əliyevin müdrik siyasəti işğaldan azad etdi torpaqlarımızı.

İnsanlardakı ovqat hələ də yadımdan çıxmır. Biz şəhid verdik, gözümüzün yaşını silib "oğul düşmən çəpəridir",- dedik, "Vətən sağ olsun", - söylədik. İgidlərimizlə fəxr etdik və Zəfər tariximizi vətən sevdalı oğulların qanıyla yazdıq. Xocalını azad etməklə Azərbaycan kişisi Xocalı faciəsinin qisasını aldı, namusunda olan "qara ləkə"ni təmizlədi.

44 günlük Vətən müharibəsində hamı qarabağlı idi. Çünki biz övladlarımıza tanıtdıq Qarabağı, ata və babalarının bu torpaq uğrunda şəhid olduqlarını bildirdik. Atəş səsləri altında böyüyən oğullar məkrli düşmənlərini yaxşı tanıdılar. 30 ildə alınan torpaqları 44 günə geri qaytardılar. 2023-cü ilin sentyabr ayının 19-da işğaldan azad edilmiş ərazilərdə lokal xarakterli antiterror əməliyyatları keçirərək 23 saata torpaqlarımızı terrorçulardan təmizlədilər.

Tək döyüşdə deyil, informasiya müharibəsində də qalib olduq. Bütün beynəlxalq aləmə kimliyimizi, mənliyimizi, millətimizi, ən əsası, haqlı olduğumuzu tanıtdıq.

Tərtər Vətən müharibəsində ən çox mərmi və raket atılan ərazilərdən biridir. Ermənistan silahlı birləşmələri beynəlxalq hüquq normaları ilə müəyyən olunmuş qaydaları pozaraq Tərtər şəhəri də daxil olmaqla rayonun yaşayış məntəqələrinə 16 min 277 top, tank, qrad mərmisi, 21 qadağan olunmuş raket atıb. Bəzi günlərdə Tərtərə 2000-dən çox mərmi atılıb. Ermənistanın silahlı birləşmələri tərəfindən mülki şəxslərin çoxsaylı əmlakına ciddi ziyan vurulub, yaşayış evləri, çoxmənzilli yaşayış binaları, qeyri-yaşayış sahələri dağıdılıb, 16 nəfər qətlə yetirilib, 63 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Onların arasında qadın və uşaqlar da olub. Erməni vandalları hətta dəfn mərasimi zamanı Tərtər şəhərinin qəbiristanlığını atəşə tutub, 4 nəfərin faciəli surətdə ölümünə, neçə nəfərin yaralanmasına səbəb olub. Vətən müharibəsində rayonumuzda 46 hərbi qulluqçu həyatını itirib, 57 hərbi qulluqçumuz yaralanıb. Bu gün 1554 tərtərli Vətən müharibəsi veteranıdır.

Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq Prezident İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli sərəncamı ilə hər il sentyabrın 27-sinin Azərbaycan Respublikasında Anım Günü kimi qeyd edilməsi qərara alınıb. Həmin sərəncamda qeyd edilir: "Torpaqlarımız qəhrəman şəhidlərimizin, əsgər və zabitlərimizin, qazilərimizin qanı və canı bahasına işğaldan azad edilmişdir. Müzəffər Ordumuzun bu gün yazdığı tarix sabah daha da güclü inkişaf edəcək, çiçəklənəcək Azərbaycan üçün möhkəm bünövrədir. Bu, eyni zamanda regionda dayanıqlı və uzunmüddətli sülhü, əmin-amanlığı və təhlükəsizliyi təmin edən mühüm amildir".

Vətən müharibəsi Ermənistanın 30 ilə yaxın davam edən təcavüz siyasətinə son qoydu, Azərbaycanın ərazi bütövlüyünü təmin etdi, bir milyona yaxın azərbaycanlının fundamental hüquqları bərpa olundu. Azərbaycan təkbaşına BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını təmin etdi.

Hazırda azad olunmuş ərazilərdə bərpa və yenidənqurma işləri həyata keçirilir, məcburi köçkünlər öz evlərinə dönürlər. Prezident İlham Əliyev həmin ərazilərə səfərləri zamanı yeni-yeni obyektlərin təməlini qoyur, açılışlarını edir.

2020-ci il noyabrın 8-də Şəhidlər xiyabanından mədəniyyət beşiyimiz olan Şuşanın azadlığını xalqımıza çatdıran Müzəffər Ali Baş Komandan deyirdi: "...Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün!.."

Bu sözlər həm oğul olaraq ata vəsiyyətini layiqincə yerinə yetirməsindən doğan sevincin təntənəsi, həm də "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən Ona Özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm",- deyən Ulu Öndərin inamına qürur dolu bir cavab idi.

Ata vəsiyyətinə daha bir cavab isə 2025-ci il avqustun 8-də oldu. Həmin gün Prezident İlham Əliyevin siyasi iradəsi, uzaqgörənliyi və diplomatik ustalığı sayəsində Azərbaycan tarixində yeni bir mərhələnin başlanğıcı kimi yadda qaldı. Bu, təkcə Zəngəzurdan Naxçıvana uzanan bir yolun açılacağı deyil, həm də Qafqazdan da yan keçməyən yeni dünya düzəninə doğru atılmış mühüm addım idi. Siyasətçilər Vaşinqton Bəyannaməsinin Cənubi Qafqaz üçün yalnız diplomatik sənəd deyil, həm də siyasi yol xəritəsi olduğunu deyirlər. Vaşinqtonda danışıqlara Müzəffər Ali Baş Komandan kimi başlayan Prezident İlham Əliyev Vətənə Müzəffər Ali Baş Diplomat kimi döndü.

Mən tərtərli olmağımla fəxr edirəm, 30 illik müharibədə itirdiyim gəncliyimə də heyifsilənmirəm. Çünki Şanlı Zəfər tariximizi yazan oğullarımız da gənclər idi. Bizə bu qələbə sevincini onlar həyatları bahasına yaşatdılar.

***Svetlana ƏZİZOVA,***
***Tərtər şəhər sakini***

# *Politoloq:* "Rusiya rəhbərliyi Bakı ilə qarşılıqlı faydalı münasibətlərin inkişaf kursunu dəstəkləyir"

Azərbaycan xalqı noyabrın 8-də Vətən müharibəsində qazanılmış tarixi Qələbənin beşinci ildönümünü - Zəfər Gününü qeyd edəcək. 2020-ci ildə qazanılan bu Qələbə Cənubi Qafqazın geosiyasi mənzərəsini köklü şəkildə dəyişərək, regionda sülh və əməkdaşlıq üçün yeni imkanlar açıb.

Mövzu ilə bağlı AZƏRTAC-a müsahibə verən rusiyalı siyasi elmlər doktoru, Rusiya Federasiyasının birinci dərəcəli Dövlət müşaviri Tatyana Poloskova Cənubi Qafqazda baş verən dəyişikliklərin, xüsusilə Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən nəqliyyat-logistika layihələrinin regionun və ölkəsinin inkişafına təsirini dəyərləndirib.

AZƏRTAC müsahibəni təqdim edir.

-2025-ci ilin avqustunda Vaşinqtonda keçirilən görüşün Cənubi Qafqazda yeni təhlükəsizlik sisteminin formalaşmasına və Rusiya-Azərbaycan əməkdaşlığının perspektivlərinə təsirini necə qiymətləndirirsiniz?

-Bu görüş Ermənistan ilə Azərbaycan arasında ziddiyyətləri aradan qaldırmaqla yanaşı, Cənubi Qafqazda beynəlxalq münasibətlərin sülh formatında inkişafı üçün siyasi-hüquqi əsas yaratdı. Ən başlıcası, bu görüş təkcə dialoqun deyil, həm də birgə xarici siyasət kursunun hazırlanmasının və həyata keçirilməsinin başlanğıc nöqtəsi oldu. Mən dəfələrlə vurğulamışam ki, Ermənistanla Azərbaycan arasında ziddiyyətlər uzun illər ərzində üçüncü ölkələr tərəfindən süni şəkildə formalaşdırılıb və gərginləşdirilib. Onlar "parçala və hökm sür" prinsipi ilə hərəkət ediblər. Məhz həmin ölkələr Cənubi Qafqazda öz maraqlarına uyğun siyasət yürüdüb, bu oyunlar isə hər zaman region xalqlarının mənafeyinə zidd olub. Cənubi Qafqaz ölkələri və xalqları arasında müttəfiqlik münasibətləri olmadan bu regionun sabit və təhlükəsiz şəraitdə yaşaması mümkün deyil.

Regional sabitlik, sülh, Zəngəzur dəhlizinin (ən mühüm logistika layihələrindən biri kimi artıq "quru Panam kanalı" adlandırılır), Azərbaycanla Ermənistan arasında yüklərin daşınması üçün sərhədlərin açılması Cənubi Qafqazı beynəlxalq əlaqələr sistemində mühüm oyunçuya çevirir. Mən inanıram ki, yaxın vaxtlarda Azərbaycan və Ermənistan arasında turizm və mədəni mübadilə də başlayacaq.

Yaxın gələcəkdə Cənubi Qafqaz digər regionlar üçün cəlbedici təsir mərkəzinə çevrilə bilər. Burada ən vacib məqam resursların və xarici iqtisadi imkanların qarşılıqlı mübadiləsidir. Şübhəsiz ki, regionda beynəlxalq iqtisadi cazibə mərkəzi və lider mövqeyində hazırda Azərbaycan dayanır. Azərbaycanın resursları və xarici əlaqələri Cənubi Qafqazın bütün iqtisadi oyunçularının potensialını əhəmiyyətli dərəcədə gücləndirə bilər.

Rusiya ilə bağlı onu qeyd etmək istərdim ki, mənim ölkəm prezident respublikasıdır və onun xarici siyasət prioritetlərini Konstitusiyaya əsasən Prezident müəyyənləşdirir. Bu istiqaməti nə Dövlət Dumasındakı azərbaycanofob dairələr, nə də bəzi televiziya kanallarında çıxış edən populist fiqurlar təyin edir. Prezident Vladimir Putin bir müddət əvvəl Rusiya ilə Azərbaycan arasında münasibətlərin inkişafından məmnunluğunu ifadə edib və onların daha da dərinləşdirilməsinin vacibliyini vurğulayıb. Bildirmək istərdim ki, Rusiya Zəngəzur dəhlizinin, eləcə də Azərbaycan ilə Ermənistan arasında sərhədlərin açılmasında son dərəcə maraqlıdır. Cəmiyyətin və beynəlxalq münasibətlərin inkişafını sonda real iqtisadi maraqlar müəyyənləşdirir. Bu, heç də bəzi mifləşdirilmiş hekayələr və ya tarixi təhriflər deyil.



Rusiya rəhbərliyi Bakı ilə qarşılıqlı faydalı münasibətlərin inkişaf kursunu dəstəkləyir. Rusiyada Azərbaycanın çoxsaylı dostları var. Rus və azərbaycanlı ailə bağları geniş yayılıb. İş adamlarımız Azərbaycanın işgüzar dairələri ilə səmərəli əməkdaşlıq edirlər. Azərbaycan rus turistlər üçün populyar istiqamətlərdən biridir. Moskvada çalışan azərbaycanlı həkimlər, Azərbaycanın bəstəkarları, müğənniləri və aktyorları bizim ümumi qürurumuzdur. Mən, məsələn, Qara Qarayevin, Üzeyir bəy Hacıbəylinin, Müslüm Maqomayevin, Rəşid Behbudovun, Polad Bülbüloğlunun, "Qaya" ansamblının yaradıcılığının böyük pərəstişkarıyam. Rauf Hacıyevin əsərlərini çox sevirəm, gəncliyimdə onun "Təbəssümünü gizlətmə" ("Qafqazlı qohum qızı") musiqili komediyasında Leyla rolunu xalq operetta teatrında oynamışam. Azərbaycan aktyoru Fəxrəddin Manafov isə ("Qətldən yeddi gün sonra" filmindəki rolu ilə tanınan) mənim ən sevimli aktyorlarımdandır.

Rusiya-Azərbaycan dialoqunun inkişafına qarşı çıxan qüvvələr azdır, lakin informasiya məkanında daha çox görünürlər. Əmin olun, bu dairələrin heç bir ciddi təsir gücü yoxdur. Onlar artıq keçmişin kölgələridir. Bilindiyi kimi, kölgələr günorta vaxtı yox olur. Cənubi Qafqazda həmin "günorta" artıq uzaqda deyil. Əminəm ki, bəzi Rusiya və xarici informasiya məkanlarında xalqlar arasında gərginlik yaratmağa çalışan "media qəhrəmanları"nın dövrü başa çatıb.

-Azərbaycan Xəzər, Qara dəniz və Baltik regionlarını vahid iqtisadi zəncirdə birləşdirməyə qadir olan "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat-logistika təşəbbüslərini fəal şəkildə həyata keçirir. Sizin fikrinizcə, bu layihələr Rusiyanın geoiqtisadi roluna, Avrasiyada yeni ticarət və enerji marşrutlarının formalaşmasına necə təsir göstərə bilər?

-Şübhəsiz ki, Rusiya bu logistika dəhlizlərində digər ölkələrdən daha çox maraqlıdır. Çünki hazırda Rusiya bəlkə də tarixinin ən mürəkkəb dövrlərindən birini yaşayır və istənilən yeni marşrutlar xüsusi əhəmiyyət kəsb edir. Rusiyanın sözügedən nəqliyyat-logistika təşəbbüslərində iştirakının faydası açıq şəkildə görünür. Rusiya həm Xəzər, həm Qara dəniz, həm də Baltik regionlarında mövcuddur.

Dövlət səviyyəsində həyata keçirilən təşəbbüslərlə yanaşı, bu istiqamətdə Rusiya regionlarından, işgüzar dairələrdən və ictimai təşkilatlardan da çoxsaylı təkliflər daxil olur. Məsələn, 2025-2026-cı illər üçün "Volqa-Xəzər" layihəsi çərçivəsində Rusiyanın bir sıra regionlarında və xaricdə investisiya əməkdaşlığına həsr olunan "dəyirmi masa"ların keçirilməsi planlaşdırılır. Layihənin təşəbbüskarı Rusiyada tanınmış ictimai xadim, həmvətəniniz Kamran Babayevin rəhbərlik etdiyi "Kostroma Millətlər Evi" təşkilatıdır.

"Volqa-Xəzər: investisiya əməkdaşlığına gedən yol" proqramı bu ilin dekabrında start götürəcək. Proqram çərçivəsində Nijni Novqorod, Həştərxan, Moskva, Bakı, Aktau və Bəndər-Abbas şəhərlərində "dəyirmi masa"lar keçiriləcək. Bu tədbirlərdə Rusiya işgüzar dairələrinin xarici investorların cəlbinə yönəlmiş layihələri təqdim olunacaq. Həmçinin xarici ölkələrin investorların axtarışı və investisiya layihələrinin dəstəklənməsi ilə məşğul olan dövlət qurumlarının fəaliyyət formaları və modelləri nümayiş etdiriləcək. Bir sıra tədbirlər Qara dəniz regionunda və Baltik sahillərində də təşkil ediləcək. Rusiyada logistika xarakterli təşəbbüslərin sayı çoxdur və bu istiqamətdə Azərbaycandan olan tərəfdaşlarla əməkdaşlıq zəruridir. Xəzər-Qara dəniz-Baltik regionlarının vahid şəbəkədə birləşdirilməsi həm Cənubi Qafqaz, həm də Rusiya üçün böyük üstünlüklər yaradacaq. Çünki bizim dövrümüz nəqliyyat dəhlizləri dövrüdür.

# Yaşar GÜLER: "Türkiyə və Azərbaycanın həmrəyliyi regional sabitliyə ən mühüm zəmanətdir"

"Vətən müharibəsi günlərində Azərbaycan Silahlı Qüvvələri əsl qəhrəmanlıq nümayiş etdirərək ədalətsizliyə son qoydu. Azərbaycanın tarixi torpaqlarının azad edilməsində göstərilən rəşadət və qətiyyət türk dünyasının tarixinə qızıl hərflərlə əbədi həkk olunub, 44 günlük mübarizə xalqın tarixi torpaqlarını müdafiə etmək əzminin göstəricisinə çevrilib".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyənin milli müdafiə naziri Yaşar Güler 44 günlük Vətən müharibəsində Şanlı Zəfərin beşinci ildönümü və Azərbaycanın Dövlət Bayrağı Günü münasibətilə keçirilən təntənəli qəbulda çıxışında ifadə edib.

Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Selçuk Bayraktaroğlu və ordunun müxtəlif qollarının komandanlarının da qatıldığı tədbirdə çıxış edən Y. Güler Azərbaycan Silahlı Qüvvələrinin tarixi Qələbəsinə həsr olunmuş mərasimdə iştirak etməkdən qürur və məmnunluq duyduğunu bildirib. Türkiyə Milli Müdafiə Nazirliyinin rəhbəri Prezident Rəcəb Tayyib Ərdoğanın salamlarını tədbir iştirakçılarına çatdırıb, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin xatirəsini ehtiramla yad edib.

Türkiyəli nazir vurğulayıb ki, bu gün üçrəngli Azərbaycan bayrağının Qarabağda dalğalanması onu səmimi-qəlbdən məmnun edir.

"Türkiyə vətəndaşları Azərbaycandakı qardaşlarımızla birlikdə Qələbənin qürurunu yaşadı. Vətən müharibəsi zamanı Azərbaycan xalqı üçün dua etdik və onu dəstəklədik. Qeyd edim ki, 44 günlük müharibə "Bir millət, iki dövlət" kəlamının əhəmiyyətini bir daha nümayiş etdirdi, çünki Azərbaycanın sevinci bizim sevincimiz, kədəri isə Türkiyənin kədəridir", - deyən Yaşar Güler Ankaranın qardaş Azərbaycanı dəstəkləməyə



davam etməyə hazır olduğunu bildirib. O vurğulayıb ki, Türkiyənin gücü Azərbaycanın qüdrətidir və bunun eynisi Azərbaycanın potensialına da aiddir. "Prezidentlər Rəcəb Tayyib Ərdoğan və İlham Əliyevin iradəsi və qətiyyəti sayəsində ikitərəfli münasibətlər ən yüksək səviyyəyə çatıb. Ankara ilə Bakı arasında tərəfdaşlıq müdafiə sahəsi də daxil olmaqla bütün istiqamətlərdə fəal inkişaf edir", - deyə nazir bildirib. O, həmçinin iki qardaş ölkənin müdafiə sənayesi və birgə hərbi təlimlər üzrə əməkdaşlığını xatırladıb.

"Dünyada artan risklər və qeyri-müəyyənlik fonunda, sülhün dəyərinin xüsusilə yüksək olduğu bir vaxtda Türkiyə ilə Azərbaycan arasındakı həmrəylik regional sabitliyə ən mühüm zəmanətdir", - deyə Türkiyənin müdafiə naziri bildirib. Y.Güler, həmçinin Bakı ilə İrəvan arasında davamlı sülhə doğru atılan son addımlardan məmnunluğunu ifadə edib. "Bu gün Cənubi Qafqazda təhlükəsizlik, sabitlik və rifah mühiti yaratmaq üçün ciddi bir fürsət yaranıb", - deyə o vurğulayıb.

Türkiyəli nazir çıxışını bu sözlərlə yekunlaşdırıb: "Yaşasın Türkiyə-Azərbaycan qardaşlığı!"

# Məhkəmədə Arayik Harutyunyanla, Levon Mnatsakanyanla, Bako Sahakyanla, David Manukyanla və Arkadi Qukasyanla bağlı sübutlar elan olunub

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası noyabrın 6-da davam etdirilib.**

AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Məhkəmə iclası dövlət ittihamını müdafiə edən prokurorların ittiham çıxışı ilə davam etdirilib.

Belə ki, məhkəmə iclasında təqsirləndirilən şəxslərin ayrı-ayrılıqda cinayətkar birliyin tərkibindəki rollarını təsdiq edən sənədlərin və sübutların elan olunmasına başlanılıb.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev sənədlərin və sübutların təqsirləndirilən şəxs Harutyunyan Arayik Vladimiri (Vladimiroviç) ilə bağlı olan hissəsini diqqətə çatdırıb.

Bildirilib ki, təqsirləndirilən Arayik Harutyunyanın 1991-ci ilin dekabr ayında cinayətkar birliyə qoşulmaqla 2023-cü il sentyabrın 20-dək olan müddət ərzində cinayətkar birliyin tərkibində müxtəlif funksiyaları icra etməklə cinayətkar birlik tərəfindən törədilmiş bütün cinayətlərdə bilavasitə və dolayı yolla iştirak etməsi məhkəmə iclasında tədqiq olunmuş sübutlarla təsdiqlənib.

Qeyd edilənlər onun sıravi iştirakçı olmadığını, Ermənistan ordusunun döyüş qabiliyyətinin təmin edilməsində, qanunsuz silahlı birləşmələrin fasiləsiz təchizatında və onların qanunsuz silahlı əməliyyatlar aparmaq imkanlarının saxlanılmasında birbaşa rol oynadığını sübut edir.

Diqqətə çatdırılıb ki, tədqiq edilmiş materiallardan birinə əsasən, A.Harutyunyanın 1990-cı illərdə Ermənistan tərəfindən Azərbaycana qarşı törədilən cinayətlərdə qardaşı ilə birlikdə, habelə Kərkicahan qəsəbəsində, Xocalıda gedən döyüşlərə iştirak etməsi təsdiqini tapıb.

Qeyd olunub ki, məhkəmədə tədqiq edilmiş videomaterial təqsirləndirilən şəxsin təkcə vaxtilə Ermənistan silahlı qüvvələrinin işğalı altında olan Azərbaycanın suveren ərazilərinə səfər etmədiyini, həm də döyüş mövqelərinin yoxlanılması, oradakı qüvvələrin potensialının öyrənilməsi və hərbi əməliyyatların davamlılığının təmin olunmasına yönələn fəaliyyətlərdə bilavasitə iştirak etdiyini sübuta yetirir. Bu isə onun Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə qarşı aparılan hərbi təcavüzün informasiya, təşkilati və kadr təminatı istiqamətində mühüm rol oynadığını bir daha təsdiqləyir.

Bildirilib ki, A.Harutyunyan Azərbaycan xalqına, xüsusilə dinc əhaliyə qarşı çoxsaylı cinayətlərin, terror aktlarının törədilməsində iştirak etməklə yanaşı, qeyd edilən əməllərini sosial şəbəkələr vasitəsilə dünyaya çatdırmaqdan da çəkinməyib.

Məhkəmə istintaqı zamanı tədqiq edilmiş sübutlarla təsdiqlənib ki, 2023-cü ilədək Ermənistan tərəfindən davam edən təcavüzkar müharibə dövründə Arayik Harutyunyan I Qarabağ müharibəsində 1991-ci ildən etibarən aktiv döyüş əməliyyatlarında iştirak etməklə və sonrakı dövrlərdə təcavüzkar müharibənin yenidən planlaşdırılması, hazırlanması və aparılması, etnik təmizləmə, insanların təqib edilməsi, əsir və girov götürülməklə işgəncəyə məruz qoyulması, müharibə qanunlarının və adətlərinin pozulması, qondarma qurumda bir sıra "vəzifələr"in funksiyalarını icra etməklə hakimiyyətin zorla ələ keçirilməsi, Vətən müharibəsi dövründə şəhərləri və mülki insanları dağıdıcı raket hücumlarına məruz qoymaqla Azərbaycan xalqına qarşı terror aktlarının həyata keçirilməsində və cinayətkar birliyin tərkibində müxtəlif funksiyaları həyata keçirməklə cinayətkar birlik tərəfindən törədilmiş soyqırımı, əhalini məhvetmə, köləlik, insanları zorakılıqla yoxa çıxarma, qəsdən adam öldürmə, qanunsuz sahibkarlıq və digər cinayət əməllərinin törədilməsində iştirak edib.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramov təqsirləndirilən şəxs Levon Mnatsakanyan barəsində məhkəmə istintaqında aparılmış araşdırma zamanı ona verilən ittiham üzrə zəruri xüsusatları diqqətə çatdırıb.

Prokurorun sözlərinə görə, sübutlarla müəyyən edilib ki, L.Mnatsakanyan Ermənistan silahlı qüvvələrinin tərkibində Azərbaycana qarşı aparılan təcavüzkar müharibədə iştirak edib. Müxtəlif hərbi vəzifələrdə xidmət etməklə yanaşı, cinayətkar birliyin əsas üzvlərindən olub, eləcə də qondarma rejimin "ordu quruculuğunda" mühüm rol oynayıb.

O, nəinki Azərbaycanın suveren ərazilərinin işğal edilməsində, həm də həmin ərazilərin uzun illər işğal altında saxlanılmasına zəmin yaradaraq qondarma qurumun "ordusu"nun, yəni Ermənistan silahlı qüvvələrinin





ən böyük hərbi birləşməsinin formalaşmasında iştirak edib.

Dövlət ittihamını müdafiə edən prokuror Fuad Musayev isə təqsirləndirilən şəxs Bako Sahakyan barəsində məhkəmə istintaqında aparılmış araşdırma zamanı ona verilən ittiham üzrə zəruri xüsusatları elan edib.

Qeyd olunub ki, hazırda ittiham olunan şəxslər arasında B.Sahakyan yeganə hüquqşünas diplomlu şəxs olmasına baxmayaraq, onun Azərbaycan xalqına qarşı aparılmış etnik təmizləməni, təcavüzkar müharibəni, suveren ərazilərin işğalını və digər çoxsaylı cinayətkar əməlləri təkzib etməsi insani və əxlaqi dəyərlərin təhqiridir. Qeyd edilib ki, bu davranışlara özünə rəvac verən şəxsin ədalət, obyektivlik və mənəvi dəyərlərdən danışmağa haqqı yoxdur.

Vurğulanıb ki, Bako Sahakyanın Azərbaycana qarşı aparılmış təcavüzkar müharibəyə, etnik təmizləmə siyasətinə və çoxsaylı ağır cinayətlərin törədilməsinə birbaşa rəhbərlik etmiş Serj Sarkisyanın köməkçisi olması, mühüm tapşırıq və göstərişlər aldıqdan sonra qondarma qurumda "vəzifələr tutaraq" fəaliyyət göstərməsi onun 1988-ci ildən bəri formalaşmış cinayətkar ideologiyaya, eləcə də işğalçılıq siyasətinə sadiqliyinin bariz sübutudur.

Bu hallar məhkəmə istintaqı zamanı tədqiq edilmiş Bako Sahakyanın çoxsaylı müsahibələrində səsləndirdiyi fikirlərlə də öz təsdiqini tapıb.

Prokurorun sözlərinə görə, məhkəmə istintaqı zamanı tədqiq edilmiş sübutlarla təsdiq edilib ki, 1988-ci ildən başlamaqla 2023-cü ilədək davam edən təcavüzkar müharibə dövründə Bako Sahakyan Azərbaycana terror aktlarının həyata keçirilməsində və cinayətkar birliyin tərkibində müxtəlif funksiyaları həyata keçirməklə cinayətkar birlik tərəfindən törədilmiş soyqırımı, əhalini məhvetmə, köləlik, insanları zorakılıqla yoxa çıxarma, qəsdən adam öldürmə, qanunsuz sahibkarlıq və ittihamda təsvir edilən digər cinayət əməllərinin törədilməsində iştirak edib.

Dövlət ittihamını müdafiə edən prokuror Vüsal Abdullayev isə təqsirləndirilən şəxs David Manukyan barəsində məhkəmə istintaqında aparılmış araşdırma zamanı ona verilən ittiham üzrə zəruri xüsusatları diqqətə çatdırıb.

Qeyd edilib ki, D.Manukyan Ermənistan silahlı qüvvələrində, o cümlədən həmin silahlı qüvvələrin ən böyük hərbi birləşməsində müxtəlif yüksək vəzifələr tutmaqla Azərbaycan ərazilərinin vaxtilə işğal altında saxlanılmasında əsas rollardan birini oynayıb. I Qarabağ müharibəsinin əvvəlindən sonunadək David Manukyanın üzvü olduğu Şuşa batalyonu 1992-ci il sentyabrın 1-də "Daşnaksütyun" partiyasının əvvəllər yaradılmış könüllü birləşmələri əsasında formalaşdırılıb. 1991-1994-cü illərdə tabor Hadrut, Əsgəran, Şuşa, Ağdam, Füzuli, Cəbrayıl, Kəlbəcər, Zəngilan rayonlarının işğalında aktiv rol oynayıb.

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimli təqsirləndirilən şəxs Arkadi Qukasyan barəsində məhkəmə istintaqının gedişində tədqiq olunan sübutlar əsasında ona qarşı irəli sürülmüş ittiham üzrə zəruri xüsusatları elan edib.

Qeyd olunub ki, A.Qukasyanın cinayətkar fəaliyyətinin müddətini və xarakterini nəzərə alaraq, onun cinayətkar birliyə yaradılmasının ilk günlərindən qoşulması məlum olur. Bu səbəbdən təqsirləndirilən şəxsə 1988-ci ildən başlayaraq, 2023-cü ilin sentyabr ayınadək Ermənistan tərəfindən Azərbaycana qarşı aparılmış təcavüzkar müharibə və işğal dövründə törədilmiş bütün cinayət hadisələri üzrə ittiham verilib.

Bildirilib ki, A.Qukasyan yalnız işğal siyasətini sözlə müdafiə etməyib, həm də konkret hərbi və siyasi rəhbərləri təşviq etməklə onların əməllərini "böyütməyə" səy göstərib. O, həm hüquqi, həm də siyasi sahədə işğal siyasətini təbliğ edib, dinc əhaliyə qarşı zorakılığı legitimləşdirib.

İttiham tərəfinin çıxışları zamanı məhkəmə zalındakı təqsirləndirilən şəxslərin ittiham olunduğu cinayətlər üzrə fotoşəkillər də nümayiş etdirilib.

Məhkəmə prosesi noyabrın 7-də davam etdiriləcək.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

## ZƏFƏR gündəliyi
## 7 noyabr 2020-ci il

### Erməni əsgəri döyüşməkdən imtina edib

Noyabrın 7-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin mövqelərini və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutub. Döyüş əməliyyatları müxtəlif intensivlikdə əsasən cəbhənin Ağdərə, Ağdam və Xocavənd istiqamətlərində davam edib. Düşmən cəbhənin bəzi sahələrində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilib.

Cəbhənin Ağdərə istiqamətində Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının müdafiə sahəsində döyüş mövqelərinin artilleriya atəşinə tutulması nəticəsində şəxsi heyət arasında ölən və yaralananlar olub. Düşmənin bir neçə avtomobil texnikası və minaatan qurğusu sıradan çıxarılıb.

Azərbaycan Ordusu bölmələri tərəfindən həyata keçirilən əməliyyat nəticəsində düşmənin 6-cı dağatıcı alayının 1-ci taboru bölmələrinin şəxsi heyəti arasında itkilər var. Düşmənin D-30 artilleriya diviziyonunun 3-cü batareyasının topları da məhv edilib.

### Prezident İlham Əliyevdən xalqa müjdəli xəbər

Prezident İlham Əliyev rəsmi "Tvitter" (indiki "X") hesabında müjdəli xəbər paylaşıb: "Müzəffər Azərbaycan Ordusu Füzulinin Yuxarı Veysəlli, Yuxarı Seyidəhmədli, Qorqan, Üçüncü Mahmudlu, Qacar, Divanalılar, Cəbrayılın Yuxarı Məzrə, Yanarhac, Qubadlının Qəzyan, Balasoltanlı, Mərdanlı, Zəngilanın Beşdəli, Xocalının Qarabulaq, Moşxmaat, Xocavəndin Ataqut, Tsakuri kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"



### Tərtər və Ağdamın kəndləri artilleriya atəşinə tutulub

Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər rayonunun Şıxarx qəsəbəsini, Qazyan və Hüsənli kəndlərini, Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndini və Ağdamın Çullu və Çıraqlı kəndlərini artilleriya atəşinə tutub.

### Ermənistanın daha bir yalanı ifşa edilib

Ermənistan daha bir dezinformasiya yayıb. Guya Qubadlı rayonu ərazisindən Ermənistanın Qafan şəhəri yaxınlığındakı David Bek kəndi bölmələrimiz tərəfindən atəşə tutulub. Müdafiə Nazirliyi bildirib ki, bu, Ermənistan tərəfinin yaydığı təxribat xarakterli növbəti dezinformasiyadır. Əksinə, Ermənistan silahlı qüvvələrinin bölmələri Ermənistan ərazisindən Qubadlı rayonunun işğaldan azad olunmuş kəndlərini və Azərbaycan Ordusu bölmələrinin mövqelərini gün ərzində intensiv atəşə tutub. Ordumuz yalnız sərhədlərimiz çərçivəsində düşmənin atəş nöqtələrinə qarşı adekvat tədbirlər görüb.

### Bərdə atəşə tutulub, bir nəfər həlak olub

Ermənistan silahlı qüvvələrinin bölmələri Bərdə rayonunun Əyricə kəndini atəşə tutub. Nəticədə bir nəfər kənd sakini həlak olub.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*



# Etimadı doğrultmalıyıq



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyində iştirakı və dərinməzmunlu çıxışı dövlətin Azərbaycan elminin inkişafına nə qədər böyük önəm verdiyini göstərdi.

Akademiyanın 80 il ərzində elmi uğurlarına və eyni zamanda çətinliklərlə dolu şərəfli yoluna dəyər verməklə Prezident başlıca olaraq diqqətimizi elmimizin bugünkü vəziyyətinə, sürətlə dəyişən müasir dünya kontekstində yerinə, vəzifələrinə, perspektiv fəaliyyətinə yönəltdi. Mahiyyət etibarilə Prezident akademiyanın dünən və bu gün nə etdiyindən də çox, nə etməli olduğu mesajlarını qabartdı.

Yubiley yaşımızla bərabər, Azərbaycan Prezidenti bizi qarşıdan gələn daha bir təntənəli hadisə - Qələbə bayramımızın beş illiyi münasibətilə təbrik etdi, diqqətimizi bir neçə gün sonra Azadlıq meydanında keçiriləcək yubiley paradına cəlb etdi. Bunun özü də bizim üçün bir ictimai mesajdır. Beş ildir biz yeni Azərbaycanda, sürətlə dəyişən, dünya xəritəsində yerini tapan, tanınan, özünü təsdiq edən Azərbaycanda yaşayırıq. Azərbaycan Prezidentinin müxtəlif beynəlxalq kürsülərdən hər dəfə göstərdiyi, bəyan və nümayiş etdirdiyi bu reallığı Azərbaycan alimləri də böyük məsuliyyətlə dərk etməli, fəaliyyət proqramı kimi daim rəhbər tutmalıdırlar.

Təsadüfi deyil ki, Azərbaycan Prezidentinin hər bir çıxışı kimi, akademiya kürsüsündən söylədiyi nitqi də beynəlxalq ictimaiyyət tərəfindən yalnız bizə, konkret elmi auditoriyalara yönəlik deyil, daha geniş ünvanlara mesaj kimi qəbul olunmuş, böyük rezonans doğurmuşdur. Məsələn, Prezidentin daim səsləndirdiyi fikirlər - dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların sayının 50 milyona çatması, Azərbaycan xalqının təbiətcə separatizmdən uzaq olması və yaşadığı ölkələrin qanunlarına hörmətlə yanaşması, o cümlədən Qərbi Azərbaycana qayıdış planının dinc səciyyə daşıması, bəzilərinin yozduğuna rəğmən, erməni xalqı üçün heç bir təhlükə törətməməsi və sairə məqamlar xarici mediada, ictimai-siyasi fikir dairələrində gələcəyə yönəlik konseptual proqram sənədi kimi qarşılanmışdır. Hazırda dünyanın maraq dairəsində olan Azərbaycan və Ermənistan arasında Sülh müqaviləsinin bağlanması baxışından da bu aydınlatmalar çox vacib, yerində səslənmişdir.

Azərbaycan Prezidentinin, eləcə də tarixçilər, dilçilər, humanitar elm sahəsi alimləri qarşısında qaldırdığı məsələlər, verdiyi tövsiyələr - Qərbi Azərbaycan toponomikasının ilkin mənbələr əsasında öyrənilməsinə davam, tarixin qəsdən unutdurulmuş səhifələrinin arxivlərdən üzə çıxarılması və geniş təbliği, Azərbaycan dilinin gerçək mənzərəsi və digər məsələlər müasir siyasət baxımından prinsipial olduğu qədər də, milli tarixin, mədəniyyətin, milli varlığın dərki müstəvisində də vacibdir, aktualdır. Qərbi Azərbaycanın nümunəsində səslənən konkret mesajları daha geniş anlamda qavramaq, bütünlükdə ictimai və humanitar elm qarşısında qoyulan tələblər, açılan üfüqlər kimi dəyərləndirmək gərəkdir. Belə ki, Azərbaycan tarixinə, etnomədəni coğrafiyamıza, milli-mənəvi irs və dəyərlərimizə yenidən, bu gün qazandığımız, sahib olduğumuz müstəqillik və suverenlik zirvəsindən bir daha baxmaq, bir zamanlar imperiya müstəmləkəçiliyi və sovet dönəmində, ideoloji-siyasi basqılar altında formalaşmış təsəvvür və baxışların qalıqlarından tam uzaqlaşmaq zamanıdır. Dəyişən dünyanın ritmi, bu temporallıqla ayaqlaşmağa çalışan Azərbaycanın cəsarətli mövqeyi, Azərbaycan Prezidentinin qətiyyətli addımları bizdən bunu tələb edir.

Azərbaycan Prezidenti bütün çıxışlarında bizə qalib xalq, müstəqil və suveren olduğumuzu xatırladır. Bu gün dövlətimizin gərəyincə möhkəm iqtisadi və ictimai potensialı, real göstəriciləri, o cümlədən Qarabağ və Şərqi Zəngəzurun dirçəldilməsi fonunda bu həqiqəti dünyaya nümayiş etdirir, göstəririk. Azərbaycan alimləri təkcə tarixin qaranlıqlarını aydınlatmaqla deyil, eyni zamanda bu günün aydın, real həqiqətlərini təsbit etməkdə dövlətimizin yanında olmalı, dövlətçiliyimizin möhkəmləndirilməsinə öz töhfələrini verməlidirlər.

Azərbaycan Prezidentinin akademiya kürsüsündən müdrik, pafosdan uzaq, son dərəcə işgüzar çıxışı, bu və digər gündəm məsələlərini sadə, aydın şəkildə bölüşməsi bizi, akademik elm nümayəndələrini bu günün Azərbaycan və dünya həqiqətlərinə həssas olmağa, qarşımızda qoyulan vəzifələri məsuliyyətlə, intizamla, dövlətçilik mövqeyi və düşüncəsi ilə yerinə yetirməyə ruhlandırdı, səfərbər etdi.

Bir məqamı da məxsusi vurğulamaq gərəkdir. Akademiyanı milli sərvətimiz kimi dəyərləndirən Ulu Öndər Heydər Əliyevin hələ sovet dönəmində elmin inkişafına böyük qayğı göstərməsi, 1990-cı illərdə AMEA-nı dağıdıcı qüvvələrin həmlələrindən qoruması, himayə etməsi bu elm ocağına verilən yüksək qiymət və etimaddır. Azərbaycan Prezidenti çıxışında onu da bizə xatırlatdı ki, Ulu Öndər Heydər Əliyev müstəqil dövlət quruculuğuna 1993-cü ildə məhz akademiya binasında ziyalılar, alimlər, yazıçılarla görüşdən başlamışdır. Düşünürəm ki, minnətdarlıq borcumuzu bu gün biz həmin tarixi etibar və etimada layiq olmaqla doğrulda bilərik.

***Tehran ƏLİŞANOĞLU,***
***AMEA-nın müxbir üzvü***

Elm xadimlərimiz

# Vətənpərvər alim, dəyərli tədqiqatçı

**Yüksək tədqiqatçılıq qabiliyyəti, güclü zəkası, möhkəm iradəsi, dəst-xəti ilə seçilən alimlərimizdən biri də AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun "Azərbaycanın XV-XVIII əsrlər tarixi" şöbəsinin müdiri, tarix elmləri doktoru, dosent Tofiq Nəcəflidir. Tofiq müəllimin elmi potensialının yüksək olmasını bu gün hamı etiraf edir - adi ziyalılar da, akademiklər də, elm ictimaiyyəti də. Alimin fəaliyyəti geniş və zəngindir. O, tədqiqatçılıq bacarığına, gözlənilməz proqnozlarına görə minlərlə insanın dərin hörmət və məhəbbətini qazanmışdır. Bütün bunlardan öncə isə T.Nəcəfli əsl ziyalıdır.**



...1960-cı ilin noyabrında Füzuli rayonunun Aşağı Seyidəhmədli kəndində dünyaya göz açmışdır. 1987-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Tarix fakültəsini bitirərək 3 ilə yaxın İsmayıllı rayonunun Buynuz kəndində tarix müəllimi işləmişdir.

1990-1993-cü illərdə AMEA Tarix İnstitutunun (hazırda Tarix və Etnologiya İnstitutu) aspiranturasında təhsil almış, 1994-cü ilin iyununda "Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir türk tarixşünaslığında" mövzusunda namizədlik mövzusunu müdafiə edərək bu tədqiqatının nəticəsi olaraq bir sıra mühüm əsərlərə imza atmışdır. Onun zəngin qaynaqlar və çeşidli ədəbiyyat əsasında ərsəyə gətirdiyi "Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir türk tarixşünaslığında" (2000), "Qaraqoyunlular və Ağqoyunlular" (2011, fars dilində) və "Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri" (2012) adlı monoqrafiyaları buna misaldır.

Tofiq Nəcəfli 2016-cı ilin sentyabrında "Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti müasir Türkiyə tarixşünaslığında" mövzusunda doktorluq işini uğurla müdafiə etmiş və tarix elmləri doktoru adını almışdır. Ağır zəhmət, zəngin elmi qaynaqlar əsasında meydana gəlmiş "Səfəvi Osmanlı münasibətləri" (2014), "Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti" (2020), "Azərbaycan Səfəvi imperiyasının Hindistanın türk-müsəlman sultanlıqları ilə əlaqələri" (2020) və "Azərbaycan Səfəvi imperiyasının Türküstan xanlıqları ilə siyasi əlaqələri" (2021) adlı monoqrafiyaları onun tədqiqatlarında Səfəvi dövləti və onun beynəlxalq əlaqələri istiqamətinin mühüm ağırlıq mərkəzi olduğunu sübut edir.

1993-cü ildən institutun "Azərbaycanın Orta əsrlər tarixi" (hazırda "Azərbaycanın XV-XVIII əsrlər tarixi") şöbəsində kiçik elmi işçi kimi fəaliyyətə başlayan T.Nəcəfli burada böyük elmi işçi, aparıcı elmi işçi, şöbə müdiri vəzifəsinədək yol keçmişdir. O, 2011-2021-ci illərdə institutun elmi işlər üzrə direktor müavini vəzifəsini də icra etmişdir.

Eyni şöbədə 35 il onunla birgə çalışan tarix elməri doktoru, dosent Xeyirbəy Qasımov deyir ki, Tofiq müəllim ömrünü Orta əsrlər Azərbaycan dövlətlərinin tarixinin Türkiyə tarixşünaslığında tədqiqi səviyyəsini öyrənməyə həsr edən tarixçi-alimdir. O həm də həmkarlarına çox diqqətlə yanaşan, işgüzar, zəhmətkeş bir insandır.

Tarix elmləri doktoru, dosent Ramil Ağayev isə alim haqqında bildirir ki, şöbəyə gəldiyi ilk dövrdən bu günə kimi Tofiq Nəcəfli həm ona, həm də şöbənin digər əməkdaşlarına həmişə xeyirxah münasibət bəsləmiş, dissertasiya və məqalələrin müzakirəsində verdiyi məsləhətlərlə yardımçı olmuşdur.

Tofiq müəllim həm də Azərbaycanın Orta əsrlər tarixi üzrə aparıcı mütəxəssislərindən biridir. Onun Qaraqoyunlular, Ağqoyunlular və Səfəvilərlə bağlı yazdığı monoqrafiya və məqalələr böyük elmi dəyərə malikdir. O, Azərbaycan tarixinin Türkiyə tarixşünaslığı əsasında araşdırılmasında başlıca mütəxəssisdir. Təsadüfi deyildir ki, Türkiyə tarixşünaslığı ilə bağlı hər hansı bir problem olanda hamı T.Nəcəfliyə müraciət edir.

Tarix üzrə fəlsəfə doktoru Fərəh Hüseyn həmkarı haqqında söyləyir ki, həyatının böyük hissəsini həsr etdiyi müəssisə elm sahəsində ilk qədəm qoyduğu Tarix İnstitutunun məhz Orta əsrlər tarixi şöbəsi olmuşdur.

Tofiq müəllimin çalışdığı və rəhbərlik etdiyi şöbə Azərbaycan tarixşünaslığının inkişafında müstəsna xidmətləri olmuş elm ocağıdır - bir sıra fundamental tədqiqatlar və əsərlər məhz bu şöbənin fəaliyyəti nəticəsində ərsəyə gəlmişdir. Azərbaycan səfəvişünaslıq məktəbinin banisi AMEA-nın müxbir üzvü Oqtay Əfəndiyev, korifey alimlərimiz professorlar Sara Aşurbəyli, Şahin Fərzəliyev, Vaqif Piriyev, akademiklər Nailə Vəlixanlı, Yaqub Mahmudov, Nərgiz Axundova, AMEA-nın müxbir üzvü albanşünas Fəridə Məmmədova və digər dəyərli alimlərimiz həmin şöbənin yetirmələri olmuş, burada bilavasitə fəaliyyət göstərmiş və sıx əməkdaşlıq etmişdilər. Azərbaycan tarixinin Orta əsrlər dövrünün mühüm problemləri ilə məşğul olan bir şöbədə yazılan qiymətli əsərlər isə Vətən tarixi elmimizin söykəndiyi təməl sütunlarını təşkil edir. Əlbəttə ki, belə şərəfli və zəngin bir dövrü tədqiq edən şöbəyə rəhbərlik etmək böyük məsuliyyət tələb edir. Həm elmi potensialı və geniş erudisiyası, həm də şəxsi keyfiyyətləri ilə Tofiq müəllim bu işin öhdəsindən uğurla gəlməyi bacarır.

Tofiq müəllimin bir tədqiqatçı alim kimi Azərbaycan tarixşünaslığına verdiyi töhfələr çox dəyərlidir. Orta əsrlər Azərbaycan dövlətçilik tarixinin əhatə etdiyi geniş problematikaya dair dərin və olduqca təfərrüatlı məlumatlara sahib olan alim bu bilgiləri müxtəlif formatlarda - nəşr etdiyi çoxsaylı elmi monoqrafiyalar və məqalələrində, yerli və beynəlxalq konfrans və simpoziumlarda, təhsil sahəsində, ictimai tədbirlərdə və KİV-dəki müsahibələrində reallaşdırır, elmi və populyar müstəvidə təbliğinə çalışır. Tofiq müəllimin Vətənə qəlbən bağlılığı ona Azərbaycan tarixi həqiqətlərinin araşdırılıması və təbliğində milli mənafeləri hər şeydən uca tutmaqda, tarixi keçmişimizə yönələn qərəzli iddialara qarşı inam və cəsarətlə sinə gərməkdə güc və istiqamət verən başlıca amildir.

"Tarix elmi yalnız keçmişi öyrətmir, o həm də bu günümüzə milli kimlik, düşüncə və mənəvi dayaqlar bəxş edir" - bu sözləri Tofiq Nəcəflinin digər həmkarı, 20 ildən artıq birgə elmi fəaliyyət dövründə onu təkcə alim, tarixçi kimi deyil, həm də vətənini, millətini, elmini sevən bir ziyalı kimi xarakterini yaxından müşahidə edən tarix üzrə fəlsəfə doktoru, dosent Mübariz Ağalarlı söyləyir.

Tofiq Nəcəfli elmi axtarışlarında xüsusilə, Azərbaycanın Orta əsrlər dövrü, o cümlədən Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətlərinin siyasi və mədəni tarixi ilə bağlı mühüm istiqamətlər formalaşdırmışdır. Tofiq müəllim təkcə tədqiqatçı deyil, həm də uzun illər təhsil sahəsində çalışan pedaqoqlardan biridir. O, Bakı Dövlət Universitetində illərlə "Orta əsrlər tarixi", "Xalqların böyük köçü və Azərbaycan" kimi fənləri tədris edərək yüzlərlə tələbənin elmi dünyagörüşünə təsir göstərmişdir.

Tofiq Nəcəflinin elmi yaradıcılığında Azərbaycan Səfəvi dövləti anlayışının mərkəzi yer tutduğunu qeyd edən M.Ağalarlı onun tədqiqatlarında həm də bu dövlətin Azərbaycanın siyasi və mədəni dövlətçilik ənənələrinin zirvəsi; etnik və mənəvi kökləri ilə milli dövlətçilik xəttinin daşıyıcısı; dil, mədəniyyət və ideologiya baxımından türk-islam sintezinin nümunəsi; beynəlxalq münasibətlər sistemində Avrasiya miqyaslı güc mərkəzi kimi təqdim olunduğunu vurğulayır.

Tofiq Nəcəflinin tədqiqatlarında Azərbaycan Səfəvi dövləti XVI-XVII əsrlər Avrasiyasının geosiyasi tarazlıq elementi - Osmanlı imperiyası, şimalda Moskva dövləti, cənubda Hindistan və Dekan sultanlıqları ilə aparılan diplomatik əlaqələr səfəvilərin regional balans siyasətinin göstəricisi kimi təqdim olunur. Səfəvi hökmdarlarının diplomatik missiyaları və beynəlxalq müqavilələri Azərbaycanın dövlətçilik mədəniyyətinin yüksək səviyyəsini nümayiş etdirir. Bu baxımdan Nəcəfliyə görə, Səfəvi dövləti Azərbaycan diplomatiyasının ilk imperiya modeli kimi dəyərləndirilməlidir. Onun Səfəvi dövlətinin tarixi ilə bağlı yazdığı monoqrafiyalar həm də böyük bir tarixi sərhədin - Azərbaycan və türk dünyasının keçmişinin, biri-birinə bağlı olan tarixi hadisələrinin aydınlaşdırılmasına xidmət edir.

Tofiq müəllim həm də Türkiyə, Polşa, Rusiya, İran, İraq və digər ölkələrdə keçirilən elmi konfranslarda iştirak edərək Azərbaycan tarixinin beynəlxalq elmi mühitdə təqdiminə xüsusi önəm verir. Onun məqalələri türk, rus, ingilis və fars dillərində nəşr olunaraq Azərbaycan tarix elmini dünya elmi müstəvisində təmsil etmişdir.

Tofiq müəllimlə 20 ildən artıq bir müddətdə eyni şöbədə çalışan tədqiqatçı-alim tarix üzrə fəlsəfə doktoru, dosent Əhməd Quliyev, "Azərbaycanın XV-XVIII əsrlər tarixi" şöbəsi nəzdində "Tarixi coğrafiya" elmi qrupunun rəhbəri kimi fəaliyyət göstərən tarix üzrə fəlsəfə doktoru, dosent Sahibə Budaqova Tofiq müəllimin tarixi hadisələrə elmi baxışı, münasibəti, məsuliyyəti və şöbəyə rəhbərlik bacarığı ilə həm kollektivə, həm də gənc nəslə gözəl nümunə olduğunu xüsusi qeyd edirlər.

Tofiq müəllimin bütün uğur və nailiyyətlərinin bünövrəsində gərgin zəhmət və zəhmətə qarışan böyük istedadı durur. T.Nəcəfli öncə peşəkar tədqiqatçı kimi tanınan tarixçi alimlərimizdəndir. Onun ən mühüm cəhətlərindən biri yüksəkixtisaslı elmi-pedaqoji kadrların hazırlanması sahəsindəki fəaliyyətidir. Alimin qayğıkeş və xeyirxah insan kimi işinin mühüm istiqamətlərindən biri də müxətlif mövzularda müdafiə olunan çoxsaylı fəlsəfə doktoru və doktorluq dissertasiyaları üzrə opponent kimi çıxış etməsidir.

Tofiq müəllim həm də başqalarının elmi inkişafına ədalətli, qayğıkeş münasibəti və köməyi ilə seçilir. Alimlərimizin əsərlərinin müzakirəsində yaxından iştirak edir.

Köksündə əsl vətəndaş-alim ürəyi döyünən tədqiqatçı alim dostumuz Tofiq Nəcəfliyə fəaliyyətində uğurlar arzulayırıq.

***Elçin VƏLİYEV,***
***tarix üzrə fəlsəfə doktoru***

# Hasilat ahəngdar, ixrac fasiləsizdir

## BP-nin 9 ay üzrə hesabatına görə yeni layihələrin icrası da ləngimir

BP şirkəti ölkəmizdə operatoru olduğu layihələr çərçivəsində ilin ötən üç rübündə görülən işlər və aparılan əməliyyatlar barədə məlumat verib. İlk növbədə "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarından hasilatın həcmi, burada həyata keçirilən qazma işləri və digər tədbirlər açıqlanıb.

Cari ilin üç rübü ərzində bu yataqlar blokundan hasilat stabil, təhlükəsiz və etibarlı şəkildə davam edib. Bu dövrdə "Çıraq" platformasından gündə orta hesabla 21 min, "Mərkəzi Azəri"dən 88 min, "Qərbi Azəri"dən 75 min, "Şərqi Azəri"dən 43 min, "Dərinsulu Günəşli"dən 52 min, "Qərbi Çıraq"dan 24 min və ACE-dən 24 min barel, ümumilikdə AÇG-dən 327 min barel, 9 ay ərzində isə təxminən 89 milyon barel, yəni 12 milyon ton neft hasil olunub.

Sözügedən dövrdə AÇG-dən Azərbaycan dövlətinə əsasən Səngəçal terminalından, həmçinin "Neft Daşları"ndakı qurğu vasitəsilə səmt qazının təhvil verilməsi davam edib.

"Şahdəniz" yatağından da hasilat ahəngdardır. 9 ayda "Şahdəniz Alfa" və "Şahdəniz Bravo" platformalarından ümumilikdə təqribən 21 milyard standart kubmetr qaz və təxminən 3 milyon ton kondensat hasil edilib. Qeyd edək ki, "Şahdəniz"in mövcud qurğularının hasilat gücü gündə təxminən 75,7 milyon (ildə təqribən 27,6 milyard) standart kubmetrdir.

Azərbaycan neftinin və qazının ixracı da fasiləsiz davam edir. Belə ki, Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan boru kəməri vasitəsilə üç rüb ərzində ixrac olunan təqribən 19 milyon ton (təxminən 159 milyon barel) xam neft və kondensat Ceyhan terminalında 216 tankerə yüklənərək dünya bazarına yola salınıb. Kəmər istifadəyə veriləndən - 2006-cı ilin ortalarından bu il sentyabrın sonunadək ixrac olunmuş neftin həcmi isə 613 milyon tona yaxın (4,6 milyard bareldən çox) olub.

Cənubi Qafqaz Boru Kəməri (CQBK) də ahəngdar işləyir. İlin əvvəlindən kəmərin ixrac üçün gündəlik orta ötürücülük gücü 63,1 milyon kubmetr təşkil edib. CQBK vasitəsilə qaz Azərbaycana, Gürcüstana və Türkiyəyə çatdırılır, genişləndirilmiş CQBK ilə mavi yanacaq Türkiyəyə və Avropaya ixrac olunur.

BP-nin əməliyyatçılığı ilə həyata keçirilməsinin müxtəlif mərhələlərində olan bir sıra layihələr də var. Məsələn, AÇG üzrə mövcud hasilatın pay bölgüsü (HPBS) sazişinə sərbst təbii qazla (STQ) bağlı yeni əlavənin imzalanmasından sonra ilkin hasilat quyusu planlaşdırılıb və "Qərbi Çıraq" platformasından təhlükəsiz şəkildə qazılıb. Bu quyudan əldə edilən məlumatlar AÇG-dəki sərbəst təbii qaz ehtiyatlarının işlənməsi üçün gələcək planların hazırlanmasına kömək edəcək.

İndiyədək Azərbaycanda neft, qaz və ixrac layihələrinə operatorluq edən BP hazırda ölkəmizdə yeni bir bərpaolunan enerji layihəsinə də start verib. Belə ki, şirkət işğaldan azad olunmuş Cəbrayıl rayonunda "Şəfəq" Günəş-Elektrik Stansiyasını tikir və obyektdə inşaat işləri qrafikə uyğun irəliləyir.



Bu il iyunun 2-də Səngəçal terminalının investorları STEL layihəsini də təsdiqlədilər. Bu layihə terminalın elektrikləşdirilməsini nəzərdə tutur. STEL "Şəfəq" günəş layihəsi ilə "virtual enerjiötürmə mexanizmi" adlanan yeni kommersiya modeli vasitəsilə sıx əlaqədardır. Bu mexanizmə əsasən, "Şəfəq" elektrik enerjisi istehsal edərək onu Cəbrayıl rayonunda "Azərenerji"yə verəcək, "Azərenerji" isə sonra eyni həcmdə elektrik enerjisini Səngəçal terminalına ötürəcək.

İyun ayında yekun investisiya qərarı qəbul edildikdən sonra ŞDK ("Şahdəniz" Kompressiya Layihəsi) layihəsi üzrə də işlər bir sıra iri müqavilələrin imzalanması ilə irəliləyib. Bu layihədə məqsəd "Şahdəniz"dəki aşağıtəzyiqli qaz ehtiyatlarını əlçatan etməklə onların hasilatının təmin olunmasıdır.

Bəs digər layihələr üzrə işlər necə gedir? "Şəfəq-Asiman" dəniz blokunda TPAO-nun qoşulması ilə layihəni irəli aparacaq ən uyğun variantın müəyyənləşdirilməsi üçün blokun bundan sonrakı qiymətləndirilməsi sürətləndiriləcək. Bu məqsədlə Aşağı Suraxanı layına bir quyunun qazılması da daxil olmaqla əlavə qiymətləndirmə işləri həyata keçiriləcək. Bu fəaliyyətlərə imkan yaratmaq üçün, həmçinin HPBS-nin kəşfiyyat dövrü uzadılıb.

Bu ilin iyun ayında BP, həmçinin "Qarabağ" neft yatağının işlənməsi üzrə mövcud Risk Xidməti Sazişinə (RXS) və "Əşrəfi-Dan Ulduzu-Aypara" (ADUA) sahəsinə aid HPBS-yə qoşuldu. Bu sazişlər Xəzərdə mövcud infrastrukturdan ən səmərəli şəkildə istifadə etməyə imkan yaradacaq yeni işlənmə variantlarını müəyyənləşdirmək istiqamətində BP-nin SOCAR-la əməkdaşlığında yeni perspektivlər açır.

BP öz işçi heyəti haqqında da məlumat verib. Belə ki, şirkətin işçiləri olan Azərbaycan vətəndaşlarının sayı 2389 nəfərdir və buraya müddətli müqavilə əsasında çalışanlar da daxildir. 2018-ci ilin ortalarından BP-nin ixtisaslı işçilərinin 90 faizini milli kadrlar təşkil edirlər. İxtisası olmayan işçilərin isə hamısı yerli vətəndaşlardan ibarətdirlər.

Əməliyyatçı şirkət belə hesab edir ki, onun Xəzərdəki layihələrinin uğuru həm də regiondakı ölkələrin əhalisi üçün bu layihələr vasitəsilə hiss edilən faydalar yaratmaq bacarığından asılıdır. Buna nail olmaq üçün BP öz tərəfdaşları ilə birlikdə mühüm sosial investisiya layihələri həyata keçirməyə davam edir.

2025-ci ilin ilk üç rübündə BP və tərəfdaşları belə sosial investisiya layihələrinə Azərbaycanda təxminən 1,1 milyon dollar vəsait xərcləyiblər. İlk doqquz ay ərzində bu layihələrə hazırda davam edən 22 təhsil proqramı, yerli bacarıqların yaradılmasını və sahibkarlığın inkişafını dəstəkləyən 1 layihə və ətraf mühit üzrə 1 təşəbbüs daxil idi.

Bundan əlavə, BP ayrıca bir şirkət kimi öz adından Azərbaycanda sponsorluq etdiyi layihələrə ilin ilk üç rübündə təxminən 1,3 milyon dollar vəsait xərcləyib.

***F.SADIQLI,***
***"Azərbaycan"***





# Vətən deyəndə...





**● Qarabağ Azərbaycandır!**

# Xalqın birliyindən və inamından güc alan Lider

**Son 200 ildə Cənubi Qafqaz tarixin ən mürəkkəb və ziddiyyətli proseslərinin yaşandığı regionlardan biri olub. Bu, bir həqiqətdir ki, yaşadığımız coğrafiyada əsrlər boyu formalaşmış etnik-mədəni tarazlığın pozulması, xüsusilə XIX əsrdən başlayaraq ermənilərin kütləvi şəkildə bölgəyə köçürülməsi, regionun siyasi xəritəsini də, ictimai nizamını da kökündən dəyişdirdi.**



Cənubi Qafqazda geosiyasi marağı olan dövlətlərin planlı şəkildə həyata keçirdiyi bu siyasət regionda təkcə demoqrafik vəziyyəti dəyişmədi, eyni zamanda xalqlar arasında süni qarşıdurmaların yaranmasına, etimadın sarsılmasına və sabitliyin pozulmasına gətirib çıxardı.

XX əsr isə bu proseslərin ən faciəvi nəticələrini Azərbaycan xalqının taleyinə yazdı. Deportasiyalar, qırğınlar, torpaqların işğalı və humanitar fəlakətlər xalqımızın tarixinə qara hərflərlə həkk olundu. Bu hadisələr təkcə keçmişin ağrılı xatirəsi deyil, həm də bu günün geosiyasi reallıqlarını formalaşdıran mühüm tarixi dərslərdir.

Xalqımızın başına gələn bəlaların bir səbəbi ermənilər, xain qonşularımız, ətrafımızda yerləşən böyük dövlətlər idisə, digər səbəbi də beynəlxalq siyasəti bilən, güclü sərkərdəlik qabiliyyəti olan, xalq tərəfindən sevilən, öz xalqının gücünə arxalanan qətiyyətli bir liderin olmaması idi.

Tanrı İlham Əliyevi 200 ildən sonra xalqımızın qələbə dolu tarixini, zəfər salnaməsini yenidən yazmaq üçün bir xilaskar olaraq göndərdi. Ona xilaskar da demək olar, bir millətin arzusunun ifadəçisi də…

Düşmənə qalib gəlmək üçün müasir silahlarla təchiz edilmiş, vahid mərkəzdən idarə olunan ordunun, polad iradə və qətiyyətin olması əsas şərtdir. Eyni zamanda döyüş meydanında qazanılan qələbəni dünya miqyasında qəbul etdirmək üçün güclü diplomatik idarəetmə və zərgər dəqiqliyi ilə ölçülüb-biçilən siyasətin olması çox şeyi həll edir.

Düşmən təkcə sərhədlərimizi keçməmişdi. Bütün siyasi və diplomatik qayda-qanunları pozaraq müvəqqəti qələbə eyforiyasına qapılıb bizə meydan oxuyurdu. İşğal altında saxladığı torpaqlarda keçilməz dəmir-beton istehkamlar qurur, yeraltı tunellər çəkir, beynəlxalq hüquqa məhəl qoymadan məskunlaşma aparır, tarixi adları dəyişdirir, abidələri ya məhv edir, ya da saxtalaşdırırdı. Bunlar azmış kimi babalarımızın at çapıb qılınc oynatdıqları qəhrəmanlıq meydanlarında şənliklər qurub milli heysiyyətimizə toxunurdu. Düşmən o qədər harınlamışdı ki, qarşısındakının əzmini, gücünü və nəyə qadir olduğunu qiymətləndirə bilmirdi.

Prezident İlham Əliyev hakimiyyətə gəldiyi ilk gündən düşməni həm siyasi, həm də diplomatik meydanda küncə sıxışdırdı. Ordu quruculuğuna ayrılan xərclərin artırılması, modern silahların alınması, hərbi intizamın gücləndirilməsi ilə qarşı tərəfə daim xəbərdarlıq da edirdi: "Əgər Qarabağ problemi sülh yolu ilə həll olunmasa, müharibə qaçılmazdır". "Biz torpaqlarımızın bir qarışını belə güzəştə getməyəcəyik. Qarabağ Azərbaycandır!" Bu qətiyyətli mövqe artıq müharibənin qaçılmaz olduğundan xəbər verirdi.

Xalqının məsuliyyətini dərk edən lider olmaq hər kəsə nəsib olmayan xoşbəxtlikdir. Azərbaycanın bəxti onda gətirdi ki, İlham Əliyev kimi rasional hesablama qabiliyyətinə malik, nəyi nə zaman edəcəyini dəqiqliklə bilən praqmatik bir lideri var.

2020-ci il dünya üçün pandemiya ili olsa da, Azərbaycan üçün həm də möhtəşəm Qələbə ili kimi tarixə yazıldı. 2020-ci il həyatımızı zəhərləyən viruskimilərin üzərində çalınan Zəfər ili kimi yaddaşımıza möhürünü vurdu.

Azğınlaşan düşmən 2020-ci ilin isti yay günlərində Tovuz rayonu istiqamətində sərhədlərimizə təcavüz edərək yeni təxribatlara əl atdı. Generalımız, əsgər və zabitlərimiz şəhid oldular. Bu hadisə xalqı ayağa qaldırdı. Gənclər "Ya Qarabağ, ya ölüm!" deyərək hərbi komissarlıqlara axışdı. Ali Baş Komandan öz xalqının qətiyyətini görüb "dəmir yumruğ"unu düyünlədi və düşmənə son mesajını verdi.

2020-ci il sentyabrın 27-də düşmən artilleriyanın gücündən istifadə edərək bütün cəbhə boyu ordumuzun yerləşdiyi əraziləri və dinc əhalinin yaşadığı yaşayış məntəqələrini atəşə tutdu. Məqsəd yeni ərazilər zəbt etmək idi. Amma düşmən yanılırdı. İndi qarşılarında 1990-cı illərin nizamsız ordusu yox, müasir, güclü, nizamlı Azərbaycan Ordusu, həm də xalqın birliyindən və inamından güc alan qətiyyətli Ali Baş Komandan var idi.

Prezident xalqa müraciət edərək düşmənin xain hücumu barədə məlumat verdi. Ali Baş Komandan qətiyyətli çıxışı, səmimiyyəti ilə xalqda möhkəm inam yaratdı. Bu inam milləti bir yumruq kimi birləşdirdi. Elə döyüşün ilk saatlarından qazandığımız uğurlar göstərdi ki, ordunun gücləndirilməsi üçün aparılan tədbirlər öz bəhrəsini verir.

Müharibə təkcə döyüş zonasında getmirdi, informasiya və diplomatiya cəbhəsində də vəziyyət olduqca gərginləşmişdi. Ermənipərəst medianın, muzdlu jurnalistlərin ölkəmizə qarşı hücumu səngimək bilmirdi. Dövlətimizin başçısı dəmir məntiqi, sarsılmaz arqumentləri ilə muzdlu jurnalistləri susdurub yerlərində oturtdu. Hətta bəziləri dalana dirəndiklərini etiraf etmək məcburiyyətində qaldılar.

Prezidentin hər çıxışı əsgərlərimizdə ruh yüksəliyi yaradır, ordunun döyüş əzmini daha da artırırdı. Yaralı hərbçilərlə görüşündə dövlətimizin başçısının hər bir əsgərə ata qayğısı ilə yanaşması xalqımızın yaddaşına əbədi yazıldı.

44 günlük Vətən müharibəsi bir daha sübut etdi ki, Azərbaycan xalqı Vətəni üçün canından keçməyə hazırdır. Biz o günlərdə oğlunun tabutunu çiynində aparan ananı, həyat yoldaşının əsgər formasını geyinib "Təki Vətən sağ olsun" deyən qadını, qardaşının cənazəsinə girən bacını gördük. Yaralı yoldaşını belində daşıyaraq döyüşən igidləri, şəhid olmuş döyüş yoldaşının nəşini kilometrlərlə çiyinlərində aparan mərd oğulları gördük. Bütün bunlar xalqımızın möhkəm, qırılmaz iradəsini, qələbə ruhunu,Vətən sevgisini, bütövlüyünü əks etdirən kefiyyətlər idi.

Bu mübarizə göstərdi ki, Azərbaycan xalqı bir olduqda qarşısında heç bir güc dayana bilməz. İlham Əliyevin uzaqgörən siyasəti, ordumuzun yenilməz qəhrəmanlığı və xalqın sarsılmaz birliyi tariximizin ən parlaq səhifəsini yaratdı. Biz bu zəfəri yalnız torpaqlarımızı azad etməklə qazanmadıq, - biz özümüzü, ruhumuzu, milli ləyaqətimizi azad etdik. Şəhidlərimizin müqəddəs qanı ilə yazılan bu Qələbə əbədi dövlətimizin dayağı, millətimizin qüruru, gələcək nəsillərin yol göstəricisi olacaq. Qarabağda ucalan hər bir ev, tikilən hər bir məktəb, açılan hər bir ocaq bu xalqın əzmini, gücünü, birliyini təbliğ edəcək. Azərbaycan 44 gündə təkcə torpaqlarını deyil, həm də gələcəyini qazandı. Bizi gözəl gələcəyə aparan yolun adı Qələbədir!

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

**● Tarix yazan oğullar**

# Döyüşçü andı

Tarixin yaddaşı bəzən bir insanın cəsarəti, bir nəfərin amalına sədaqəti ilə işıqlanır. Vətən müharibəsinin od-alov içində yazılan o şərəfli səhifələrində yüzlərlə qəhrəmanın adı var. Amma elələri də oldu ki, sözləri ilə taleyini, amalını, yolunu öncədən bəyan etdi: "Tarix məndən çox danışacaq, çünki mən tarix yazmağa gəldim". Bu cümlə adi bir söz deyildi, taleyini Vətənə bağlamış bir igidin andı idi.




Teymur Osmanlı Cülyan kəndinin səssizliyindən doğulub Qarabağın azadlığı uğrunda tarix yazan bir qəhrəman oldu. Onun yaşam yolu, düşüncəsi, mübarizəsi və şəhadəti bu gün bir ömürdən çox qəhrəmanlıq hekayəsinə çevrilib.

Yalnız indinin yox, həm də gələcək nəsillərin qəhrəmanını tanıyaq. Teymur Saday oğlu Osmanlı 31 may 1995-ci ildə İsmayıllının Cülyan kəndində dünyaya gəlib. 2001-2012-ci illərdə İsmayıllı şəhər İ.Həsənov adına 1 saylı tam orta məktəbdə təhsil alıb. Məktəb illərində Teymur vətənpərvərliyi, çalışqanlığı, bilik və təşkilatçılığı ilə yaşıdlarından seçilirdi. O, 2012-ci ildə məktəbi əla qiymətlərlə bitirərək Azərbaycan Dillər Universitetinin fransız dili üzrə Tərcümə fakültəsinə daxil olub. Universitet illərində də Teymur həm təhsilinə məsuliyyəti, həm də fitri istedadı ilə diqqət çəkirdi. Əlaçı tələbə olmaqla yanaşı, gitara ifaçılığı, xüsusən fransız musiqisinə olan sevgisi onu fakültədə tanınan simalardan birinə çevirmişdi.

2016-cı ildə ali məktəbi bitirən gənc elə həmin il Tərtərə hərbi xidmətə yollanır. Xidməti başa vurduqdan sonra isə Bakıda notariat ofisində baş mütəxəssis vəzifəsində çalışır. İş mühiti, kollektiv, şəhər həyatı ona yeni təcrübələr qazandırır. Gələcəyini xəyal deyil, praqmatik düşüncə ilə quran Teymur 2018-ci ildə Naxçıvan Dövlət Universitetinin Hüquq fakültəsinə qəbul olunur.

Qardaşı Samir deyir: "Teymur hərbi xidmətdən sonra dostlarına işğal altındakı torpaqlarımızdan tez-tez danışardı. Qarabağın dağlarını, meşələrini, bulaqlarını xatırladıqca təkrarlayardı: "Qarabağın hər qarışı bizim Cülyan kəndi kimi gözəldir. O torpaqların işğalda qalması hər bir azərbaycanlı üçün utancdır. Biz ərazilərimizi mütləq azad etməliyik".

Vətən sevgisi ilə yaşayan Teymur 2020-ci il sentyabrın 27-də Prezident İlham Əliyevin müharibə ilə bağlı xalqa müraciətini eşidən kimi könüllü döyüşə yollanır, Talış-Suqovuşan istiqamətində gedən ağır döyüşlərdə iştirak edir. İllərlə həmin bölgədə istehkamlar quran düşmən ciddi müqavimət göstərsə də, Azərbaycan əsgəri hər addımda düşmənə öz iradəsini, Vətənə sədaqətini sübut edirdi. Oktyabrın 3-də mərmi partlayışı Teymurun arzu dolu qəlbini susdurdu. Qardaşı Samir o günləri belə xatırlayır: "Teymurla son danışığımız oktyabrın 2-də olmuşdu. Döyüşlərdən danışmazdı ki, ata-anam narahat olmasın. Soruşanda bir cavabı vardı: "Narahat olmayın, hər şey yaxşı olacaq". Sonra əlaqə kəsildi, biz elə bildik telefona icazə vermirlər. Qardaşımın şəhid xəbərini çox sonradan aldıq".

Teymurun nəşi bir də həmin ərazilərin işğaldan azad edilməsindən sonra götürülərək oktyabrın 17-də doğulduğu Cülyan kəndində torpağa tapşırılıb. Teymur o kənddən Vətən uğrunda canından keçən ilk şəhiddir.

Samir Osmanlı sözünə davam edir: "Teymur həmişə deyirdi ki, torpaqlarımız azad olunacaq. Qürur duyuram ki, 30 il işğal altında qalan Vətən torpaqlarının azad edilməsində onun da payı var. Bu gün o torpaqlar abadlaşır, cənnətə dönür. Təəssüf ki, şəhidlərimiz bunun sevincini görə bilmədilər".

Torpaqlarımızın ərazi bütövlüyünün bərpası uğrunda göstərdiyi qəhrəmanlığa görə Teymur Osmanlı ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad edilməsi uğrunda" və "Xocavəndin azad edilməsi uğrunda" medalları ilə təltif edilib.

Şəhidin şəxsi əşyaları arasında tapılan bir məktubda belə yazılıb: "Tarix məndən çox danışacaq, çünki mən tarix yazmağa gəldim". Bu sözlər bir gəncin içindəki böyük amalın, Vətən sevgisinin son nəfəsinə qədər necə alov kimi yandığının sübutudur.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi Azərbaycan xalqının qürur, şərəf və birlik tarixini yazdı. İllər, əsrlər keçəcək, gələcək nəsillər bu torpaqda azad, bütöv, suveren Azərbaycan bayrağı dalğalansın deyə canından keçən Teymur Osmanlı kimi qəhrəmanların adını hər zaman ehtiramla anacaqlar. Teymur Osmanlının yolu Vətənə bəxş edilmiş bütöv bir şərəf yoludur. Onun şəhadəti təkcə bir ailənin yox, bütün Azərbaycan xalqının qəlbində əbədi yanacaq bir işıqdır. Bu gün azad edilən torpaqlarımızda tikilən hər bir məktəb, qurulan hər bir ev, çəkilən hər bir yol Teymur kimi oğulların qanı ilə möhürlənmiş böyük Zəfərin davamıdır.

***E.QƏNİYEV,***
***"Azərbaycan"***

**● Vətən sağ olsun!**

# "Tarixdə yaşayan Qələbə!"

**2020-ci ilin payız günlərində şanlı Azərbaycan Ordusunun Müzəffər Ali Baş Komandanı İlham Əliyevin sərkərdəliyi altında erməni işğalçıları üzərində qazandığı tarixi Zəfərdən beş il keçir. Ordumuzun zabit və əsgərlərinin qəhrəmanlığı sayəsində 44 gün ərzində qazanılan bu Zəfər Azərbaycan xalqına böyük sevinc yaşatdı. Üstündən beşillik zaman keçməsinə baxmayaraq, bu sevincin qığılcımları hələ də ürəklərdə, qəlblərdə dolaşır.**

Zəfər Günü ilə əlaqədar olaraq bu günlər bütün təhsil ocaqlarında, muzeylərdə, müəssisə və təşkilatlarda təntənəli mərasimlər keçirilir. Tədbir iştirakçılarına bu Zəfəri xalqımıza yaşadanların döyüş yollarından məlumat verilir, ön cəbhələrdə vuruşan zabit və əsgərlərimizin qəhrəmanlığından, igidliyindən ətraflı danışılır. Yurdumuzun azadlığı uğrunda gedən döyüşlərdə şəhid olan oğulların xatirəsi hörmət və ehtiramla yad edilir.

Bu günlərdə Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tabeliyində olan Nəriman Nərimanovun Xatirə Muzeyində Zəfər Günü münasibətilə keçirilən "Tarixdə yaşayan Qələbə!" adlı tədbir maraqlı anları ilə yadda qalıb. Tədbirdə Vətən müharibəsi qazisi İsmayıl Əhmədzadə, şəhid Sübhan Abdurrahmanlının anası Mehriban Abdurrahmanlı, şəhid Füzuli Əliyevin anası Fərasət Əliyeva, 128 nömrəli tam orta məktəbin müəllimi Çiçək Nuriyeva və şagirdlər, 189-190 nömrəli tam orta məktəbin müəllimi Vəfa Rəfiağayeva və şagirdləri, Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin şagirdləri, M.S.Ordubadinin Xatirə Muzeyinin əməkdaşları və başqa qonaqlar iştirak ediblər.

Əvvəlcə torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsi birdəqiqəlik



sükutla yad olunub. Sonra tədbir iştirakçıları Azərbaycan Respublikasının Dövlət Himnini oxuyublar.

Tədbiri muzeyin direktoru Ləman Hüseynova açaraq Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsindən, cəsur Vətən oğullarının döyüşlərdə göstərdiyi qəhrəmanlıqlardan danışdı. Bildirdi ki, 27 sentyabr 2020-ci ildə ermənilərin təxribatı nəticəsində başlanan İkinci Qarabağ müharibəsində Azərbaycanın düşmən üzərində qələbəsini hər şeydən əvvəl ölkəmizin iqtisadi gücü, qüdrətli ordusu, xalq və iqtidarın monolit birliyi təmin etdi. Vətən qeyrəti çəkən oğullar könüllü olaraq döyüşlərə yollandılar. 30 ilə yaxın torpaqlarımızı işğalda saxlayan Ermənistan silahlı qüvvələri güclü, qüdrətli ordumuzun qarşısında dayana bilməyərək məğlub oldu. Qəhrəman zabit və əsgərlərimiz bir an olsun belə hücumlarını dayandırmadılar. İşğalçılara sarsıdıcı zərbələr vuraraq addım-addım geri sıxışdırıb torpaqlarımızdan qovdular. İkinci Qarabağ müharibəsində qələbəyə köklənmiş qüdrətli Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrini darmadağın etdi. Döyüşlərdə qazanılan qələbələrə, zəfərlərə görə biz Müzəffər Ali Baş Komandan İlham Əliyevə, şəhidlərimizə və qazilərimizə minnətdarıq.

Çıxışlar başa çatdıqdan sonra Zəfər Gününün qürur və iftixar dolu anlarını özündə əks etdirən videoçarx nümayiş etdirildi.

Şəhid anaları çıxışlarında övladlarının vətənpərvərliyindən, qəhrəmanlığından ətraflı söhbət açdılar. Onların müqəddəs amallar uğrunda şəhid olduqlarını dedilər. Qazi İsmayıl Əhmədzadə keçdiyi döyüş yolundan, iştirakçısı olduğu əməliyyatlardan danışdı.

Tədbirin bədii hissəsində şagirdlərin ifasında vətənpərvərliyi və qəhrəmanlığı vəsf edən şeirlər səsləndirildi, iştirakçılara bədii kompozisiyalar və musiqi nömrələri təqdim olundu.

Sonda muzeyin rəhbərliyi tədbir iştirakçılarını təşəkkürnamələrlə mükafatlandırdı.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Donald Tramp: "Şatdaun ABŞ iqtisadiyyatına zərər verməyəcək"

ABŞ Prezidenti Donald Tramp Mayamidə keçirilən biznes forumunda bildirib ki, şatdaun ABŞ iqtisadiyyatına zərər verməyəcək. "Hazırda o qədər güclüyük ki, düşünmürəm nə isə bizə zərər verə bilsin", - deyə Amerika lideri vurğulayıb.



Lakin Tramp etiraf edib ki, işsiz və maaşsız insanlara qayğı göstərmək üçün hökumətin yenidən açılması yaxşı olardı. Bu arada Senatdakı demokratlardan ibarət bir qrup və bir neçə respublikaçı hökumətin işinin bərpasına səbəb ola biləcək razılaşma üzrə intensiv danışıqları davam etdirirlər. Bundan əvvəl ABŞ Prezidenti 4 noyabrda bir neçə ştatda və Nyu Yorkda keçirilən qubernator seçkilərində respublikaçıların məğlubiyyətinə səbəb olan şatdaunu günahlandırmışdı.

Məlum olduğu kimi, oktyabrın 1-də ABŞ hökumət qurumları müvəqqəti olaraq fəaliyyətini dayandırıb. Buna səbəb Konqresin onların maliyyələşdirilməsini uzatmaq üçün qanun layihəsi üzərində razılığa gələ bilməməsi olub. Nəticədə dövlət işçiləri maaşsız və milyonlarla amerikalı vacib xidmətlərdən kənarda qalıb.

*R.CƏFƏROV,*
*"Azərbaycan"*

# *BMT:* İqlim dəyişikliyi meşələri ciddi təhlükə altına alıb

BMT Avropa İqtisadi Komissiyasının (UNECE) mütəxəssislərinin fikrincə, atmosferdəki karbon qazı konsentrasiyasının artmasına əsas təbii maneə olan meşələrin qorunması üçün onilliklər ərzində görülən səylər, iqlim böhranının sürətlənməsi səbəbindən ciddi təhlükə altındadır.

Temperaturun artması, rütubətin azalması və geniş yayılmış zərərvericilərin yayılması nəticəsində meşə yanğınlarının və quraqlıqların artması səbəbindən kritik vəziyyət yaranıb.

UNECE-nin məsuliyyət zonasına daxil olan ölkələrdə - Avropa, Şimali Amerika, Qafqaz və Orta Asiyada - 1,76 milyard hektardan çox meşə sahəsi var ki, bu da dünya meşələrinin 40 faizindən çoxunu təşkil edir. Regiondakı ümumi meşə sahəsi 60 milyon hektar artsa da (ən böyük artım Avropa və Orta Asiyada qeydə alınıb), qlobal miqyasda əks tendensiya müşahidə edilir: hər il təxminən 10,9 milyon hektar meşə massivi məhv olur.

BMT Komissiyasının nümayəndəsi Paola Dedanın sözlərinə görə, 2021-ci ildə yanğınlar 12,6 milyon hektar meşəni məhv edib. Bu, Yunanıstanın ərazisi ilə müqayisə edilə bilən bir sahədir. Təxminən İspaniya və Portuqaliyanın birlikdə ərazisi qədər olan daha 73 milyon hektar meşə massivi xəstəliklər səbəbindən və zərərverici həşəratlar tərəfindən korlanıb. Deda xəbərdarlıq edib ki, əgər bu tendensiyalar davam edərsə, hazırda güclü karbon uducusu kimi çıxış edən meşələr emissiya mənbəyinə çevrilmək riski ilə üzləşəcək və qlobal iqlim məqsədlərinə çatmağı təhlükə altına alacaq. UNECE üzv dövlətlərinin dəstəyi ilə meşələrin



mühafizəsi proqramları, o cümlədən əvvəllər Mərkəzi Avropada ekosistemlərə ciddi ziyan vuran "turşu yağışları" ilə mübarizə tədbirləri həyata keçirilir. Bu cür tədbirlərin sayəsində 1990-cı ildən bəri biomüxtəlifliyin qorunması, torpaq mühafizəsi və su ehtiyatları üçün ayrılmış ərazi ikiqat artıb. Hazırda 300 milyon hektardan çox meşə ərazisi qorunur. Bununla belə, BMT Komissiyası iqlim dəyişikliyinin təsirlərinin meşələrin deqradasiyasını sürətləndirdiyini və onilliklər boyu əldə edilən ekoloji qazancları puça çıxara biləcəyini vurğulayıb. UNECE xüsusən şimal meşələrinin roluna diqqət yetirir. Xatırladaq ki, Arktikanı əhatə edən meşələr bütün quru karbon ehtiyatlarının təxminən 32 faizini təşkil edir.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*
*abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*

# Fransada jandarmların qanunsuz hərəkətləri ilə bağlı yeni görüntülər rezonans doğurub

Fransada 2023-cü ilin martında baş vermiş Sənt-Solin etirazları ilə bağlı yeni görüntülər ölkə ictimaiyyətində rezonans yaradıb. "Liberation" və "Mediapart" portallarında yayımlanan bu videolar jandarmların etirazçılara qarşı təhqiramiz ifadələr işlətməsi və qanunsuz şəkildə qumbara atmasını göstərir.



AZƏRTAC xəbər verir ki, etirazlar zamanı yaralanan dörd nəfəri təmsil edən vəkil Kloe Şalo noyabrın 6-da "franceinfo"ya verdiyi müsahibədə bu görüntülərin dəhşətli olduğunu və cinayət xarakterli davranışları açıq şəkildə göstərdiyini bildirib. Onun sözlərinə görə, bu hadisələr "inzibati məsələ kimi deyil, cinayət hadisəsi kimi araşdırılmalıdır". Vəkil qeyd edib ki, jandarmların bədən kameralarından əldə edilən kadrlar qanunsuzluqların olduğunu sübut edir. "Bu atəşlər nəticəsində mənim iki müvəkkilim ağır yaralanıb və ölüm təhlükəsi ilə üz-üzə qalıb", - deyə vəkil Şalo vurğulayıb.

Hadisədən iki ildən çox vaxt keçməsinə baxmayaraq, daxili işlər naziri Loran Nunez bu görüntülərin yayımlanmasından sonra İctimai Təhlükəsizlik üzrə Baş Müfəttişliyə (IGGN) inzibati araşdırma aparmaq göstərişi verib. K.Şalo bildirib ki, bu videolar artıq IGGN tərəfindən izlənilib, lakin indiyədək heç bir hüquqi addım atılmayıb. Vəkil Şalo nazirin bu hadisələri "nadir davranışlar" kimi təqdim etməsini tənqid edib. "Bu görüntülər göstərir ki, həmin gün atəşlər sistematik şəkildə həyata keçirilib və bu, verilmiş əmrlərin birbaşa nəticəsidir", - deyə vəkil bildirib ki, jandarmların hərəkətlərində yaralama, şikəstlik və ölüm riski barədə tam bir etinasızlıq və şüurlu biganəlik müşahidə olunur.

2023-cü il martın 25-də Sənt-Solində keçirilən etiraz zamanı nümayişçilər 200 nəfərin yaralandığını, onlardan 40 nəfərin ağır vəziyyətdə olduğunu bildirmişdi. İki nəfər bir müddət komada qalmışdı. Rəsmi məlumatlara görə isə 45 jandarm yaralanıb, onlardan biri ayaqlarından yanıq xəsarəti alıb.

Vəkil K.Şalo xatırladıb ki, bu müddət ərzində etirazçılara qarşı istintaq işi açılıb, lakin heç bir jandarm məsuliyyətə cəlb edilməyib. "Mənim iki müvəkkilim ölümün bir addımlığında olub, amma hələ də heç kim cavab vermir", - deyə vəkil biganəlikdən şikayətlənib.

Bu hadisə Fransada polis zorakılığı və dövlət məsuliyyəti ilə bağlı mübahisələri yenidən alovlandırıb.

# Romanın metro stansiyalarında Zəfər Günü ilə bağlı videoçarx yayımlanır

İtaliyanın paytaxtı Romanın metro stansiyalarında, eləcə də avtobus dayanacaqlarındakı monitorlarda 8 Noyabr - Zəfər Gününün 5-ci ildönümü münasibətilə videoçarx yayımlanır.




AZƏRTAC xəbər verir ki, videoda hər günü bir qəhrəmanlıq dastanı olan 44 günlük Vətən müharibəsindən, tarixi və şanlı Zəfərdən bəhs olunur. "Bu şanlı Zəfər tariximizin ən parlaq səhifələrindən biridir, xalqımızın iradəsi və qətiyyəti sayəsində qazanılmış böyük nailiyyətdir. Bu Zəfər hər bir azərbaycanlının qəlbində yaşayır, millətimizin gücünün və qürurunun simvolu kimi əbədi yaşayacaq. Birlikdə qalib gəldik, biz birlikdə güclüyük. Birlikdə bu şanlı tarixi yazdıq. 8 Noyabr - Zəfər Günümüz mübarək!" - deyə videoçarxda vurğulanır.

Videoçarxda Bakı Media Mərkəzinin xalqımızın şanlı Zəfərimizi böyük qürur və coşqu ilə qeyd etdiyi kadrlar nümayiş olunur.

# Hava əsasən yağmursuz olacaq

Azərbaycanda bu günə gözlənilən hava şəraiti açıqlanıb.

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi yerlərdə az çiskinli olacağı ehtimalı var. Cənub-şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 9-13, gündüz 17-20 dərəcə isti olacaq. Atmosfer təzyiqi 767 millimetr civə sütunu, nisbi rütubət 70-75 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 7-12, gündüz 18-23, dağlarda gecə 0-5, gündüz 7-12 dərəcə isti olacaq.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Samir Nuriyev və struktur bölmələrinin rəhbərləri Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayevə atası

**YUSİF MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi səhiyyə naziri Teymur Musayevə atası

**YUSİF MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov və komitə üzvləri Rəşad Mahmudov, Məlahət İbrahimqızı, Günay Əfəndiyeva, Kamaləddin Qafarov, İlham Məmmədov, Müşfiq Məmmədli, Soltan Məmmədov, Anatoliy Rafailov və Pərvanə Vəliyeva səhiyyə naziri Teymur Musayevə atası

**YUSİF MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının kollektivi Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayevə atası

**YUSİF MUSAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayevə atası

**YUSİF MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi səhiyyə naziri Teymur Musayevə atası

**YUSİF MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Mərkəzi Bankının rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayevə atası

**YUSİF MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayevə atası

**YUSİF MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Pediatrlar Assosiasiyasının sədri, tibb üzrə fəlsəfə doktoru Təranə Tağı-zadə Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayevə atası

**YUSİF MUSAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ədliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayevə atası

**YUSİF MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayevə atası

**YUSİF MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzərEnerji" ASC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayevə atası

**YUSİF MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayevə atası

**YUSİF MUSAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Özəl Tibb Müəssisələri Assosiasiyası səhiyyə naziri Teymur Musayevə atası

**YUSİF MUSAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayevə atası

**YUSİF MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərliyi və kollektivi səhiyyə naziri Teymur Musayevə atası

**YUSİF MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi İsa Nəcəfov Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayevə atası

**YUSİF MUSAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru professor Ədalət Muradov və universitetin kollektivi səhiyyə naziri Teymur Musayevə atası

**YUSİF MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Nəsirəddin Tusi adına Klinika və "MedServis" Özəl Tibb Mərkəzinin kollektivi Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayevə atası

**YUSİF MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4033
Sifariş 2243

Qiyməti 60 qəpik